www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu  Gündəlik qəzet  2 avqust 2016-cı il  Çərşənbə axşamı  № 167  (6488)  Qiymət  60 qəpik

**Xəbər**

## Xırdalanda atalığı 6 yaşlı qızı döyüb öldürdü - qətlin şok təfərrüatları

yazısı səh.12-də

**Gündəm**

### İrəvanda qiyam yatırıldı, Sərkisyan qurtuldumu?



Erməni etirazçı prezident sarayı qarşısında özünü yandırdı; silahlı üsyanın ardınca hadisələr daha gərgin müstəviyə adlaya bilər

yazısı səh.8-də

### Seymur Həzi ilə Nigar Yaqublunun nikahına əngəl törədildi

yazısı səh.4-də

### Qərb liderlərinin Ərdoğanı dəstəkləməməsinin sirri

yazısı səh.3-də

### Amerika cəmiyyətində "Dəlisov Tramp"a rəğbətin səbəbi nədir?

yazısı səh.7-də

### Ərəblər Azərbaycanın daşınmaz əmlak bazarında canlanma yarada bilər

yazısı səh.12-də

### Suriyada Rusiya helikopteri vuruldu; 5 nəfər həlak oldu

yazısı səh.10-da

*Psixoloq:*

### "Hədsiz oxuyanlar gələcəkdə uğursuzluğa düçar olur"

yazısı səh.15-də

### Bakıda binaların faciə mənbəyi - "dam qapısı"

yazısı səh.13-də

### İş adamını öldürən dəstəyə hökm oxundu

yazısı səh.14-də

### Manat üçün şad xəbər

yazısı səh.10-da

### Beyləqanda banka hücum edildi

yazısı səh.14-də

### Bank sisteminin etimad problemi

yazısı səh.13-də

### UNO-ların reallıqla əlaqəsi varmı...

yazısı səh.15-də

## İki liderin tarixi görüşünü pozmaq üçün xain cəhd

# ERMƏNİLƏR ƏRDOĞAN-PUTİN GÖRÜŞÜ ÜÇÜN TƏXRİBAT HAZIRLAYIB - İLGİNC GƏLİŞMƏ

Türkiyə-Rusiya münasibətlərində istiləşmə düşmən tərəfin yuxusunu yenidən qaçırıb; prezidentlərin Sank-Peterburq görüşünün əhəmiyyətini azaltmaq üçün erməni diasporu hərəkətə keçib...



yazısı səh.3-də

# Nazir Yavər Camalovun istintaqda dindirildiyi xəbərləri yayıldı

Hərbi zavoddakı partlayışla əlaqəli Bakıda toplantı keçirildi; müdafiə sənayesi naziri və onun icra başçısı olan qardaşı Mərdan Camalov istintaqçılar üçün nə kimi ipucları verə bilər...

yazısı səh.5-də



### Rauf Arifoğlundan Arif Hacılıya cavab: "Mən sizinlə bağlı gözləntilərimə təslim olmuşam"

yazısı səh.9-da



*Elxan Şahinoğlu:*

### "Ankara "İncirlik" hərbi bazasını qapatsa, bu, İŞİD-ə qarşı mübarizəni

yazısı səh.6-da



*Bahar Muradova:*

### "Danışıqlarda aktivlik müşahidə olunan kimi Ermənistanda kataklizmlər ortaya çıxır..."

yazısı səh.11-də



## Prezident Xızı-Altıağac yolunun tikintisinə 8 milyon manat ayırdı

**Prezident İlham Əliyev Xızı rayonunun Xızı-Altıağac avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb. Axar.az xəbər verir ki, bu barədə Prezidentin mətbuat xidməti məlumat yayıb.**

Sərəncamda qeyd edilir: Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Dörd min nəfər əhalinin yaşadığı 11 yaşayış məntəqəsini birləşdirən Xızı-Altıağac avtomobil yolunun tikintisinin başa çatdırılması məqsədi ilə Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsində "Avtomobil Yolları" Məqsədli Büdcə Fondunda nəzərdə tutulmuş vəsaitdən 8,0 (səkkiz) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyəti bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni və tikinti işlərini müəyyən olunmuş qaydada təmin etsinlər.



## Türmə rəisi vəzifəsindən azad edildi

### Penitensiar Xidmətə yeni rəis müavini təyin olundu

**1 saylı Bakı İstintaq Təcridxanasının rəisi Azər Seyidov vəzifəsindən azad edilib. Trend-in məlumatına görə, hazırda təcridxananın rəisi vəzifəsini təcridxanaya yeni rəis müavini təyin edilmiş Rəşid Səfərov müvəqqəti icra edir.**

Ədliyyə Nazirliyi Penitensiar Xidmətdə (PX) isə yeni təyinat olub.

"Report"un xəbərinə görə, ədliyyə polkovniki Məhərrəm Qafarov Xidmətin rəis müavini təyin edilib.

Qeyd edək ki, Penitensiar Xidmətin rəisi ədliyyə general-mayoru Ceyhun Həsənovdur. C.Həsənov PX rəisi vəzifəsinə bu ilin iyun ayında təyin olunub. Həmin vaxta qədər isə Daxili İşlər Nazirliyinin (DİN) Nəqliyyatda Baş Polis İdarəsinin rəisi vəzifəsində çalışıb.

## Cəzaçəkmə Müəssisəsində məhkum ölüb

**Azərbaycanda məhkum xəstəlikdən ölüb. APA -nın məlumatına görə, hadisə Ədliyyə Nazirliyi Penitensiar Xidmətin 15 saylı Cəzaçəkmə Müəssisəsində qeydə alınıb. Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə təqsirləndirilərək azadlıqdan məhrum edilmiş, 1978-ci il təvəllüdlü Elşən Ramazan oğlu Əliyev saxlanıldığı müəssisədə vəfat edib. Onun ürək xəstəliyindən əziyyət çəkdiyi bildirilir.**

## Dolların rəsmi məzənnəsi 1.60-a yaxınlaşır

**Azərbaycan Mərkəzi Bankı (AMB) avqustun 2-nə olan USD/AZN rəsmi məzənnəsini açıqlayıb. AMB-dən "APA-Economics"ə verilən məlumata görə, USD/AZN rəsmi məzənnəsi avqustun 2-nə 1,5883 səviyyəsində müəyyən olunub. Qeyd edək ki, bu gün dollar 1,5851 manata bərabər olub.**


### "Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.


# Zaqatalada sahibkarı döyərək ondan 60 min manat tələb edənlər tutuldu



**Zaqatala rayonunda sahibkara qarşı quldurluq edilib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, iyulun 3-də Zaqatala rayonunun Aşağı Tala kənd sakini Ramiz Quliyev Rayon Polis Şöbəsinə müraciət edərək həmin gün yaşadığı kəndin ərazisindən həmkəndliləri Kamil Həmzəyev, Elçin Zeynalov və Anar Məmmədov tərəfindən avtomobilə oturdularaq kəndin kənarına aparılmasını, orada onu bıçaqla hədələyib 60000 manat pul tələb edilməsini, vermədiyindən döyülməsini və ayağına bıçaqla xəsarət yetirilməsini bildirib.**

Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi və Zaqatala Rayon Polis Şöbəsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində A.Məmmədov tutulub. Onun evinə baxış zamanı 608 qram marixuana, "İJ" markalı tüfəng və 42 ədəd patron aşkar edilərək götürülüb.

Davam etdirilən əməliyyat tədbirləri ilə Kamil Həmzəyev və Elçin Zeynalov da tutulublar.

Qeyd edək ki, R. Quliyev sahibkarlıq fəaliyyəti ilə məşğul olur.

## Bakı-Nabran avtobusunun radiatoru partladı - 5 sərnişin xəsarət aldı

**"Avtobusun radiatorunda partlayış oldu, qaynar su salona sıçradı".**

Bunu "Report"un Şimal bürosunun müxbirinə Bakı-Nabran sərnişin avtobusunun sürücüsü Zakir Abdullayev deyib.

Sürücü bildirib ki, radiatorda partlayış avtobus hərəkətdə olan zaman baş verib: "Radiatorda baş verən partlayış zamanı avtobusun salonuna qaynar su sıçradı. Məlum oldu ki, radiatorun şlanqı partlayıb. Bu zaman salonda olan sərnişinlərdən biri qadın və biri kişi olmaqla iki nəfər yanıq xəsarətləri alıb. Digər sərnişinlərdən üç qadın isə yüngül yanıq xəsarətləri alıb. Mən yaralıları dərhal taksi ilə Xudat şəhər Mərkəzi Xəstəxanasına yola saldım. Yaralıların xəstəxanaya gedib-getmədiklərini bilmirəm".

Sürücü əlavə edib ki, avtobusda yaranan nasazlığı aradan qaldırmaq üçün rayon mərkəzindən usta çağırılıb.

Nəqliyyat Nazirliyinin Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin mətbuat xidmətinin rəhbəri Şəfa Mehmanqızı hadisə ilə bağlı "Report" açıqlamasında bildirib ki, Bakı-Nabran istiqamətində hərəkət edən mikroavtobus Bakı Beynəlxalq Avtovağzalından çıxarkən saz vəziyyətdə olub: "Lakin yolda avtobusun radiatorunun şlanqı partlayıb. Sərnişinlər avtobusdan təxliyə olunublar və başqa bir avtobusla yollarına davam ediblər. Ciddi bir hal baş verməyib, avtobus təmir üçün nəzarətə götürülüb. Qeyd edək ki, yolda baş verən hər hansı bir hadisəyə görə məsuliyyəti nəqliyyat vasitəsinin məxsus olduğu şirkət daşıyır".

Qeyd edək ki, Zakir Abdullayevin idarə etdiyi "Hundai" markalı, 27-TA- 036 dövlət qeydiyyat nömrə nişanlı, Bakı-Nabran marşurut xətti ilə sərnişin daşıyan avtobusun radiatorunda partlayış baş verib və qaynar su salona sıçrayıb. Nəticədə 5 sərnişin xəsarət alıb.




# AZAL-ın Bakı və Berlin arasındakı reyslərində ikiqat millər

**"Azərbaycan Hava Yolları" (AZAL) Bakıdan Berlinə və əks istiqamətdəki reyslərdə yeni aksiyaya start verdiyini elan edir. Sözügedən marşrut üzrə uçuşlara sentyabrın 6-dan oktyabrın 29-dək (2016-cı il) aviabilet alan AZAL Miles proqram iştirakçıları iki dəfə çox status və səyahət balları qazana biləcəklər.**

Bakı-Berlin-Bakı marşrutu üzrə birbaşa uçuşlar həftədə iki dəfə - çərşənbə axşamı və bazar günləri yerinə yetiriləcək. Heydər Əliyev Beynəlxalq Hava Limanından uçuş - Bakı vaxtı ilə səhər saat 07:00-da, Tegel Beynəlxalq Hava limanına enmə - yerli vaxtla saat 09:55-də. Berlindən uçuş - yerli vaxtla saat 10:55-də, Heydər Əliyev Beynəlxalq hava Limanına enmə - Bakı vaxtı ilə saat 17:25-də. Həmçinin, 30 oktyabr tarixindən etibarən (qış mövsümü üzrə uçuş cədvəlinin qüvvəyə minməsi ilə) bu marşrut üzrə uçuşlar davam etdiriləcək.

Berlin Almaniyanın ən dinamik inkişaf edən turizm mərkəzlərindən biridir və yüksək həyat tempi olan böyük Avropa meqapolisidir. Almaniyanın paytaxtı hər il təxminən 10 milyon qonaq qəbul edir.

Aviabiletləri şirkətin www.azal.az saytında bronlaşdırmaq və ya AZAL-ın kassalarında, həmçinin aviaşirkətin rəsmi agentliklərində əldə etmək mümkündür. Balların avtomatik hesablanması üçün, aviabiletin alınması prosesində müvafiq xanada AZAL Miles iştirakçısının unikal nömrəsini daxil etmək kifayətdir.

AZAL Miles bonus proqramı haqqında ətraflı məlumat aviaşirkətin rəsmi internet saytında verilmişdir: https://www.azal.az/az/azal-miles/miles-programme. Proqram iştirakçısı olmayan şəxslər aşağıdakı link vasitəsilə qeydiyyatdan keçə bilər: http://ffj2.loyaltyplus.aero/j2loyalty/register.jsf?lang=az

Aviabiletləri əldə etmək və daha ətraflı məlumat almaq üçün aşağıdakı telefon nömrələri ilə əlaqə saxlaya bilərsiniz:

(+99412) 598-88-80;
*8880.
E-mail: callcenter@azal.az

AZAL Miles bonus proqramı ilə bağlı sualları ya azalmiles@azal.az email ünvanına və ya www.azal.az saytındakı əlaqə forması vasitəsilə göndərmək olar.

## Bakı-Novorossiysk neft kəməri ilə nəql dayandırıldı

**Bakı-Novorossiysk neft kəməri ilə nəql dayandırılıb. "APA-Economics" "İnterfax" agentliyinə istinadən xəbər verir ki, bu barədə Rusiyanın "Transneft" şirkətinin prezidentinin müşaviri, mətbuat katibi İqor Dyomin deyib.**

O bildirib ki, buna İsmayıllı rayonu ərazisində 6,5 bal gücündə baş verən zəlzələ səbəb olub.

"Hazırda hadisənin kəmərin fəaliyyətinə təsiri araşdırılır", - deyə o qeyd edib.

## "Xırda təkanlar davam edəcək"

**Avqustun 1-də yerli vaxtla saat 08: 49 radələrində Azərbaycanda zəlzələ olub. Respublika Seysmoloji Xidmət Mərkəzindən verilən məlumata görə, zəlzələ İmişli rayonu ərazisində zəlzələ qeydə alınıb. Ətraf rayonlarda 5 bala kimi hiss olunub.**

Əhali isə güclü təkanların davam edəcəyindən narahatdır. Lakin rəsmilər narahatlığa əsas olmadığını deyir.

Respublika Seysmoloji Xidmət Mərkəzinin baş direktoru Qurban Yetirmişli "Yeni Müsavat"a açıqlamasında bildirib ki, yaxın günlərdə güclü təkanların olmayacaq, lakin xırda təkanların davam edəcək: "İmişlidə və zəlzələnin hiss olunduğu ətraf rayonlarda əhalinin narahatlığına heç bir əsas yoxdur. Çünki, səhər saatlarında baş vermiş əsas təkanda enerji boşalması baş verib. Güclü təkandan sonra iki-üç dəfə afterşoklar qeydə alınıb və yaxın müddətdə zəif afterşokların baş verməsi davam edəcək. Zəlzələnin maqnitudası 5,6 bal gücündə olub. Həmin ərazidə tarixən baş verən zəlzələlər də bundan güclü olmayıb. Sadəcə şansımız onda gətirib ki, zəlzələ 25 km dərinlikdə baş verib və ona görə də zəlzələnin fəsadları azdır. Yeni qorxulu bir şey yoxdur, əhalinin narahatlığına heç bir əsas yoxdur".

Q. Yetimişli əlavə edib ki, bu cür güclü təkanların evlərdə çatların yaranması, zəif tikililərə ziyan dəyməsi normal haldır: "Zəlzələ elə də ciddi ziyan vurmayıb. Bəzi ərazilərdə zəif tikilmiş tövlələr uçub, evlərin divarlarında çat yaranıb. lakin böyük zərər olmayıb".

❑ NƏRGİZ


### Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

**Bir həftə sonra, avqustun 9-da Sank-Peterburqda Türkiyə və Rusiya prezidentləri - Rəcəb Tayyib Ərdoğan və Vladimir Putin bir araya gələcəklər. Görüşün önəmi, hətta tarixi əhəmiyyəti haqda kifayət qədər yazmışıq. Yalnız iki vacib detalı vurğulayaq.**

# İki liderin tarixi görüşünü pozmaq üçün xain cəhd



# Ermənilər Ərdoğan-Putin görüşü üçün təxribat hazırlayıb - ilginc gəlişmə

## Türkiyə-Rusiya münasibətlərində istiləşmə düşmən tərəfin yuxusunu yenidən qaçırıb; prezidentlərin Sank-Peterburq görüşünün əhəmiyyətini azaltmaq üçün erməni diasporu hərəkətə keçib...

Biri odur ki, bu, iki ölkə arasında "Su 24" insidentinə görə pozulmuş münasibətlərin bərpasından sonra liderlərin ilk təması olacaq. İkincisi isə Putin Türkiyədəki 15 iyul hərbi çevriliş cəhdindən sonra Ərdoğanın canlı təmasda olacağı ilk xarici dövlət başçısı olacaq. Rusiya-Qərb və Türkiyə-Qərb (ABŞ), Türkiyə-NATO münasibətlərindəki gərginliyi ciddiyə alsaq, Peterburq görüşünün bu xüsusda ikiqat diqqət mərkəzində olacağı gözlənilir.

***

Ankara-Moskva münasibətləri normal məcraya qayıtsa da, sözsüz ki, iki ölkə arasında həlli müşkül olan məsələlər hələ qalır. Bunlar ilk növbədə Suriya (Bəşər Əsəd), PKK mövzuları və Güney Qafqazda toqquşan maraqlarla bağlı məsələlərdir. Lakin söz yox ki, iki regional supergücün yaxınlaşması bu və digər konfliktli məsələlərdə ortaq dil tapmaq üçün əlverişli platforma yaradacaq, anlaşma və etimad atmosferini gücləndirəcək.

Öz çözümünü gözləyən ortaq məsələlərdən biri Dağlıq Qarabağ ixtilafıdır. İşğalçı Ermənistanı da ən çox narahat edən Ankara ilə Moskva arasında Qarabağa dair hansısa siyasi bazarlığın mümkünlüyü sarıdandır. Ümumiyyətlə, ermənilər, onların diasporu, məlum səbəblərdən həmişə Moskva-Ankara yaxınlaşmasına qarşı çıxıblar. Təsadüfi deyil ki, "Su 24" insidentindən dərhal sonra Rusiya mediasında ən çox canfəşanlıq edən, "yanan ocağa yağ tökən", "rusdan çox rus üçün yanan" məhz Rusiyada kök salmış erməni əsilli ekspertlər, politoloqlar, "ictimai xadimlər", ermənilərin nəzarət etdikləri media qurumları oldu.

Təbii ki, onlar Türkiyə-Rusiya barışığından sonra da öz bəd əməllərindən əl çəkən deyillər. Belə ki, indi də ermənilərin Ərdoğan-Putin görüşü üçün təxribat hazırladıqları haqda məlumat yayılıb. Rusdilli vesti.az saytının xəbərinə görə, iki ölkə arasında istiləşmənin ardınca reallaşacaq Sankt-Peterburq görüşü üçün Rusiya erməni diasporasının iştirakı ilə belə bir provokasiya planlaşdırılır.

Məlumata görə, həmin gün Peterburqda Ərdoğanın gəlişinə təşkil olunacaq etiraz mitinqində "Su 24" təyyarəsinin həlak olan pilotu Oleq Peşkovun xatirəsini yad eləmək bəhanəsi Ərdoğan əleyhinə, Türkiyə əleyhinə şüar və tələblər səslənəcək. O da bildirilir ki, mitinq əslidə öncədən planlaşdırılsa da, Ərdoğanın səfərə gələcəyi bəlli olandan sonra ona korrektələr edilib.

**"Aksiya iştirakçıları vurulan təyyarəyə və pilotun ölümünə cavabdeh olan, bu insidentə görə düz-əməlli üzr istəməyən, təzminat ödəyən türkiyəli qonağın səfəri əleyhinə çıxacaqlar. Hesab edərək ki, Kremlin Türkiyə rəhbərliyi ilə barışması həddən-ziyadə tələsik və yanlış addım olub, etirazçılar Türkiyə kurortları və mallarını boykot etməyə çağıracaq, kürdlərin və Türkiyə solçularının Ərdoğanın diktatura rejiminə qarşı mübarizəsinə, onun hakimiyyətdən kənarlaşdırılmasına dəstək nümayiş etdirəcəklər"** - mitinqlə bağlı yayılan anonsda deyilir.

Maraqlıdır ki, anonsda ermənilərin mitinqdə iştirakı haqda bir şey deyilmir, amma nədənsə anons sosial şəbəkələrdə ən fəal şəkildə məhz erməni diaspor təşkilatlarının səhifələrində yayılmaqdadır. Əslində burada təəccüblü bir şey də yoxdur. Məsələ ondadır ki, ötən ilin dekabrında da ermənilər analoji mitinqə "saxta genosid", "Arsaxın müstəqilliyi" ilə bağlı plakatlarla gəlmişdilər, ancaq elə ki, onların şəhər rəhbərliyi ilə problemləri çıxdı, bəyan elədilər ki, mitinqə heç bir aidiyyətləri yoxdur, sadəcə, müşahidə eləməyə gəlibmişlər.

"Hərçənd budəfəki aksiya Sankt-Peterburq rəhbərliyi ilə razılaşdırılıb, heç də pis olmaz ki, şəhər hökuməti aksiyaya erməni marağını da diqqətdə saxlasın. Axı çoxdan bəlli həqiqətdir ki, harada ermənilər var, orada həmişə təxribatlar var" - sayt xəbərdarlıq edib.

❑ **Siyasət şöbəsi**

# Qərb liderlərinin Ərdoğanı dəstəkləməməsinin sirri

## **Ekspert:** "Ərdoğan həbs olunsaydı, yaxud öldürülsəydi, hakimiyyəti ələ keçirənlər Qərblə sıx münasibətlər quracaqdılar"

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan 15 iyulda hərbi çevrilişə cəhd olan zaman dünya dövlətlərinin rəhbərlərinin dərhal demokratiyaya dəstək nümayiş etdirməməsindən, demokratiyaya dəstək üçün anında ona telefon açmamalarından, Türkiyəyə gəlməmələrindən gileylənib.**

Türkiyənin ATV telekanalına müsahibəsində Ərdoğan deyib ki, 15 iyul gecəsi onunla ilk əlaqə saxlayan Qətər əmiri olub. Putin, Obama və Avropa ölkələrinin bəzi liderləri ikinci gün zəng edib. Bir çox dövlət başçıları isə üç gün sonra, iyul ayının 18-də vəziyyət tam aydınlaşandan sonra zəng edib. Prezidentin çıxışından belə məlum olub ki, o, hətta tək zəng yox, liderlərin özlərinin Türkiyəyə gəlişini gözləyirmiş.

Ərdoğanın narazılığının xeyli dərəcədə haqlı olduğunu deyən **"Atlas" Araşdırmalar Mərkəzini rəhbəri Elxan Şahinoğlu** "Yeni Müsavat"a bildirdi ki, həqiqətən də Avropa dövlətlərinin rəhbərləri Türkiyədəki hərbi çevriliş cəhdinə birmənalı münasibət ifadə etməyiblər: "Bu baxımdan, Ərdoğanın narazılığını anlamaq olar. Türkiyə prezidentini əsas qıcıqlandıran çevriliş cəhdinə, Gülən hərəkatına nümayiş etdirilən isti münasibətdir. Avropa ölkələrində, ABŞ-da Gülən məktəblərinə toxunulmur, onlara şərait yaradılır. Ankara nə qədər tələb etsə də Fətullah Güləni geri vermir. Əksinə, ABŞ generalı çıxıb deyir ki, bizimlə təmasda olan bütün hərbçiləri həbs ediblər. Bu, əslində dolayısı ilə həmin çevrilişə cəhd edən generallara dəstək mənası daşıyır. Hərbi çevriliş cəhdinə Qərbdən birmənalı münasibət yoxdur. Buna da Ankaranın narazılığı var".



Elxan Şahinoğlu

**Ekspertin fikrincə, Qərbin və bir sıra başqa dövlətlərin belə davranışının pərdəarxası ondan ibarətdir ki, Qərb Ərdoğanın hakimiyyətdən getməsində maraqlıdır:** "Misirdə general Sisi hərbi çevriliş etdi, çoxsaylı insanlar qətl edildi, prezident Məhəmməd Mursini həbs elədi və şəxsən özü prezident oldu. Qərb dövlətləri Sisi hakimiyyəti ilə normal münasibətlər qurdu. Türkiyədə də hərbi çevriliş baş tutsaydı və Ərdoğan həbs olunsaydı, yaxud öldürülsəydi hərbi çevrilişi həyata keçirib hakimiyyəti ələ keçirənlər Qərblə sıx münasibətlər quracaqdılar, Rusiyadan isə uzaqlaşma xətti götürüləcəkdi. Çünki o qüvvələr əsasən Qərbə bağlı qüvvələrdir. İndi Ərdoğan ABŞ-la münasibətləri soyudur, Rusiya ilə isti münasibətlər qurur. Ərdoğanın bir neçə gün sonra Rusiyaya səfəri planlaşdırılır. Ona görə də hərbi çevriliş cəhdinə Qərb dövlətlərindən birmənalı münasibət yoxdur. Qərb dövlətləri hadisələrə elə yanaşır, sanki hərbi çevrilişin baş verməsində maraqlı idilər. Barak Obama hərbi forma geyinmiş cinayətkarların insanları qətlə yetirməsinə, parlament binasını bombalamasına münasibət bildirmirsə, bu, istər-istəməz Türkiyə rəhbərliyini qıcıqlandırır. Artıq Türkiyədə Ərdoğana qatı müxalif olan partiyalar da hərbi çevriliş cəhdini pisləyir, bu işin arxasında Gülənin dayandığını qeyd edir, Türkiyə cəmiyyətində bu hadisəyə bir nifrət formalaşıb. Ancaq ABŞ bunu da nəzərə almır. Amerika əslində seçim qarşısındadır. Güləni verməsə, Türkiyəni itirə bilər. Çünki Türkiyə sürətlə Rusiyaya yaxınlaşmağa başlayıb".

❑ **Etibar SEYİDAĞA**

# Şah İsmayıllar hər il doğulurmu?



**Hüseynbala SƏLİMOV**

**Konstitusiyaya təklif olunan düzəlişlər paketi içində prezident və parlament seçkiləri ilə bağlı aşağı yaş həddinin götürülməsini nəzərdə tutan maddələr bəlkə də digərləri ilə müqayisədə bir o qədər də təlaş və ya da narahatlıq yaratmamalıdır.**

Amma bu, ilk baxışda belədir. Əslində bu maddələr də narahatlıq üçün yetərincə əsas verir.

Məsələ bundadır ki, yaş həddi dünyanın əksər ölkələrinin konstitusiyalarında var, çünki milləti təmsil etmək və yaxud da ona rəhbərlik iddiasında olan adamın müəyyən həyat təcrübəsi və bilikləri olmalıdır.

Doğrusu, düşünürdük ki, Konstitusiya Məhkəməsi ən azı bu məqama diqqət yetirəcək və hansısa axımlı formada bu təklifin məqbul olmadığını əsaslandıracaq. Amma belə olmadı. Konstitusiya Məhkəməsi ən qısa müddətdə bütün maddələrin, o cümlədən də yaş həddi ilə bağlı maddələrin Ali Qanuna zidd olmadığını elan etdi...

Bəlkə də diqqətli oxucu deyəcək ki, nə olsun, Şah İsmayıl 14 yaşında şahlığa başlayıb. Düzdür. Üstəlik, tək Şah İsmayılla bağlı deyil, elə digər şahlarla bağlı da belə olduğu bildirilir. Bunları nəinki tarix kitablarından, o cümlədən də müxtəlif filmlərdən biz də bilirik...

Amma sözün düzünü desək, belə məqamlara həmişə şübhə ilə yanaşmışıq. Hələ məlum deyil ki, ölkəni o vaxt kim idarə edirdi? 14 yaşlı Şah İsmayıl, yoxsa saray əyanları?..

Həm də belə hal yüz ildə bir dəfə ola bilər və nəzərə almaq lazımdır ki, Şah İsmayıllar, İsgəndərlər hər il doğulmurlar...

Təbii ki, mən də şübhə etmirəm ki, bütün digər maddələr kimi elə bu maddə də "qəbul olunacaq". Bizə isə yalnız təəssüf etmək qalacaq. Gəl ki, təəssüf etməyə dəyərmi?..

Bir dəfə metroda, qatarda gözüm şüşə pəncərədəki əkslərə sataşdı. Elə gülməli görünürdük ki, bu əkslərdə!..

İndi mənə elə gəlir ki, bu ölkədə də hər şey həmin pəncərədəki əkslər kimidir - həm gülməli, həm də ağlamalı...

Əvvəldə dedim ki, bütün bunlar, yəni təkliflər paketi çox yaxın bir vaxtda təsdiqlənəcək. Ölkədə buna mane olmaq iqtidarında olan heç kim və heç nə yoxdur. Cəmiyyət tamam etinasızdır. Müxalifətə gəldikdə isə sizə bir "sirr" açacam. Əgər hər hansı yazının başlığında iki söz - müxalifət və ya Minsk Qrupu sözləri varsa, heç kim bunları oxumur...

Bu, mənim uzun müddətli müşahidələrimin nəticəsidir - necə deyərlər, acı da olsa, çox təəssüf ki, bir faktdır...

Bəlkə də etinasız olmayan, ölkədəki məsələlərlə azacıq da olsa, maraqlananlar soruşacaqlar ki, bütün bunlara nə ehtiyac var? Nə demək olar? Bircə onu deyə bilərəm ki, hakimiyyət getdikcə heç kimə inanmır, etibar etmir. Səbəbi də budur ki, böyük hakimiyyət həm də böyük qorxu deməkdir...

Mən böyük hakimiyyət mənsubları haqqında tarixi faktları oxumağı və dinləməyi sevirəm. Sizə bir detal deyəcəm. Rusiyada ən despotik hakimiyyət çar İ.Qroznının vaxtında olub. İ.Qroznıy bu ölkənin tarixində ən qəddar və amansız çarlardan biri hesab olunur. Amma indi bəlli olur ki, hamının qorxduğu bu adam özü də yaman qorxu keçirirmiş və hamıdan, hər şeydən qorxurmuş. Hətta məlum olur ki, İngiltərə kralına yazdığı məktublarda o, bərk qorxduğunu və kraldan onu himayə etməsini xahiş edirmiş...

Bəli, hakimiyyət belə məsələdir. Bir daha deyirəm ki, böyük hakimiyyət həm də böyük qorxu deməkdir...

Üstəlik, bir məqam da var. İstənilən hakimiyyət öz qarşısında maneə görmürsə, daim artmağa və genişlənməyə cəhd edir.

Təcrübədə bütün referendumlar, səsvermələr həmişə əks prosesə - hakimiyyətin məhdudlaşdırılmasına xidmət edib. Elə mahiyyətcə Ali Qanun - konstitusiya özü də hakimiyyətin məhdudlaşmasına xidmət etməlidir, çünki konstituonalizm bir prinsip kimi həm də məhdud və nəzarət olunan hakimiyyət deməkdir...

Amma Azərbaycanda hər şey tərsinədir. 1995-ci ildə qəbul olunan konstitusiya yetərincə avtoritar idi və hakimiyyətə böyük səlahiyyətlər verirdi. Bu, kifayət etmədi. Sonra qəbul olunan iki düzəlişlər də bir məqsəd güdürdü - hakimiyyəti bir az da gücləndirmək və onun səlahiyyətlərini bir az da artırmaq. Təsadüfi deyil ki, indiki düzəliş paketi də buna xidmət edir. Elə bu səbəbdən təəssüflənməkdən və köks ötürməkdən savayı bir yol qalmır...

Sonda bir məsələni də deyim. Bu kontekstdə fikirləşəndə və xüsusən də ölkədəki son olayları düşünəndə yadıma "Sonuncü imperator" filmi düşür. Bəli, bu dünyada hər şeyin bir əvvəli olduğu kimi, bir sonu da olur. Üstəlik, tarixi çək-çevir edəndə görürsən ki, böyük hakimiyyət heç də böyük xoşbəxtlik gətirmir...

YENİ MÜSAVAT
N 167 (6488) 2 avqust 2016

# Seymur Həzi ilə Nigar Yaqublunun nikahına əngəl törədildi

## Gənclərin izdivacının rəsmiləşdirilməsi bu gün baş tutacaq

**Keçmiş siyasi məhbus, tanınmış yazar Tofiq Yaqublunun qızı Nigar Yaqublu avqustun 1-də hazırda həbsdə olan yazar Seymur Həzi ilə ailə quracaqdı. Lakin 17 saylı cəzaçəkmə müəssisəsində saat 12:00-da başlayan nikah baş tutmayıb. Buna səbəb Ədliyyə Nazirliyinin əməkdaşlarının nikah bağlamaqdan imtina etməsi olub. Əvvəlcə səbəb kimi tərəflərin gecikməsi göstərilib.**

"Yeni Müsavat"a açıqlamasında nikahla bağlı yaşanan problemə münasibət bildirən ASAN Xidmətin mətbuat katibi Anar Hüseynov bildirdi ki, prosesə Ədliyyə Nazirliyi cavabdehlik daşıyır: "ASAN Xidmət mərkəzinin işi dövlət qurumları tərəfindən göstərilən xidmətlərin işini təşkil etməkdir. Lakin xidmətlərin göstərilməsi aidiyyətin qurumların işidir. Bu məsələ ilə bağlı Ədliyyə Nazirliyinə müraciət edin".

**Nigar Yaqublu** özü bu barədə AzadlıqRadiosuna danışıb. Bildirib ki, nikahın qeydiyyatından imtina edilməsi ilə bağlı onlara heç bir rəsmi əsas göstərilməyib: "Sabunçu rayonunda yerləşən 4 saylı ASAN Xidmətdə idik. İddia edirlər ki, Ədliyyə Nazirliyi səyyar xidmətini dayandırıb və biz həbsxanaya girə bilmirik. Ədliyyə Nazirliyindən isə onlara yalnız şifahi xəbərdarlıq gəlib, heç bir yazılı rəsmi sənədləri yoxdur. Bu baxımdan, bizə rəsmi cavab verə bilmirlər".

**Seymur Həzi ilə sevgi tarixçəsindən danışan N.Yaqublu bildirdi ki, iki il öncə avqustun 1-də evlilik təklifi alıb:** "O zaman mənim başım Nərgizin nişanına qarışmışdı, həm də o dönəmdə evlilik düşünmürdüm, ona görə də bu təklifə "yox" demişdim. Lakin həmin ayda Seymur həbs olundu. Həbsdə olsa da diqqət və qayğısını əksik etmədi. Tez-tez zəng edib maraqlanırdı. Bir sözlə, o qayğıların mənə böyük təsiri oldu və bu qərara gəldim. Həbsxanada olduğu zaman da evlilik təklifi etdi. Hətta görüşməli idik. Lakin məni tanıdıqdan sonra həbsxanada görüşdürməkdən imtina etdilər və görüşlərimiz alınmadı. Daha sonra mən ona zəng edib dedim ki, sənədləri hazırla. Bu şəkildə evlilik təklifinə də "hə" demiş oldum. Nikahımız olsaydı, rəsmi həyat yoldaşı kimi hər həftə gedib görüşə biləcəkdim. "Sağ olsun"lar, bizi ondan da məhrum elədilər".



**Məsələ ilə əlaqədar Ədliyyə Nazirliyinin Penitensiar Xidmətin İctimaiyyətlə Əlaqələr Şöbəsinin rəhbəri Mehman Sadıqov açıqlama verərək bildirib ki, ASAN və Penitensiar Xidmətə təqdim olunan məktuba əsasən nikah mərasimi avqustun 2-nə nəzərdə tutulub:** "Nikaha girmək istəyən tərəflərin arzuları əsasında tarix sabah üçün təyin olunub. Ona görə də Ədliyyə Nazirliyinin Penitensiar Xidməti bu şəxslərin nikaha daxil olması üçün sabah hər cür şəraiti yaradacaq. ASAN Xidmətin nümayəndəsi də nikah mərasimində iştirak edəcək".

**Nigar Yaqublunun atası, Müsavat Partiyası başqanın müavini Tofiq Yaqublu "Yeni Müsavat"a açıqlamasında bildirib ki, nikah zamanı yaradılan problem əsassızdır:** "Vaxtında müraciət ediblər, bütün lazımi sənədləri təqdim ediblər, nikah üçün lazım olan testlərdən keçiblər. Gənclər özü nikahı məhz avqustun 1-nə təyin ediblər. Burada yanlışlıq ola bilməz. Hətta Seymura həbsxanada demişdilər ki, sizin nikahın qeydiyyatı ayın 3-nə keçirilir. Sonra Nigar ASAN-a zəng vurub dəqiqləşdirdi, onlar da dedilər ki, ayın 1-də olacaq, heç bir problem yoxdur. Görünür, yuxarıda kimlərsə istəmir ki, bizim işimiz rahat keçsin. Bir gün sonra olar, eybi yox".

**Gənclərin nikahına münasibətinə gəlincə, Tofiq Yaqublu bildirdi ki, bu, onların öz qərarı olub:** "Mən o zaman xəbər tutdum ki, artıq gənclər qərar verib. Müəyyən problemlər oldu və bu nikah bir qədər gecikdi. Sonra bunu rəsmiləşdirmək qərarına gəldik. Belə bir problemin yaranacağını da gözləmirdik".

Xatırladaq ki, Seymur Həzi 2014-cü il avqustun 30-da həbs edilib. O, Cinayət Məcəlləsinin 221.3-cü (Xuliqanlıq, silah qismində istifadə edilən əşyaları tətbiq etməklə törədildikdə) maddəsi ilə ittiham olunur. Jurnalist bu ittihamı rədd edərək "Azadlıq" qəzetində hakimiyyəti tənqid edən məqalələr yazdığına və "Azərbaycan saatı" verilişində həm aparıcı,həm də redaktor kimi fəaliyyət göstərdiyinə görə həbs olunduğunu bildirib. "Amnesty İnternational" təşkilatı da Seymur Həzini "vicdan məhbusu" kimi tanıyıb.

❑ **Nərgiz LİFTİYEVA**

# Onlar da məhbuslarla evlənirlər

## Türmə divarları arxasında baş tutan nikahlar

**Tanınmış siyasi fəal Nigar Yaqublu ilə siyasi məhbus, hazırda məhbəs həyatı yaşayan Seymur Həzinin nikah mərasimi hazırda mediada ən çox yazılan, ictimaiyyətin isə ən çox sevindiyi xəbərlərdəndir. Xüsusən müxalif camedə sevinclə qarşılanan, müsbət emosiya doğuran bu xəbərin ürək sıxan yeganə tərəfi isə S.Həzinin hələ də məhbəs həyatı yaşamasıdır.**

"Yeni Müsavat" isə gündəmdə müzakirələrə səbəb olan bu nikahın timsalında türmədə baş tutan nikahlar barədə yazır. Öncə Azərbaycandan başlayaq. Ölkə həbsxanalarında nikaha girən gənc ailəyə hər bir şərait yaradılır. Məhkumlara cəzaçəkmə müəssisəsinin ərazisində dörd saatadək qısamüddətli və bir gündən üç günədək uzunmüddətli görüşlər verilir.

Cəza növlərinə görə görüş vaxtları dəyişir. Məhkumlar bütün qaydalara riayət etdikdə onlara əlavə görüşlər verilməsi də təmin olunur. Məsələn, ağır cinayətlərə görə ilk dəfə məhkum olunanlar il ərzində qısamüddətli 24 görüş və uzunmüddətli 3 görüş almaq hüququna malikdirlər.

Məhkumlar cəzanın icrası qaydalarını pozmadıqda və əməyə vicdanla yanaşdıqda, cəza müddətinin ən azı üçdə birini çəkdikdən sonra onların saxlanılması şəraiti yaxşılaşdırıla bilər. Bu halda məhkumlar əlavə olaraq il ərzində qısamüddətli on iki görüş və uzunmüddətli üç görüş almaq hüququna yiyələnirlər.

Ciddi rejimli cəzaçəkmə müəssisələrində xüsusilə ağır cinayətlər törətməyə görə ilk dəfə müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslər il ərzində qısamüddətli on iki görüş və uzunmüddətli iki görüş almaq hüququna malikdirlər. Xüsusi rejimli cəzaçəkmə müəssisələrində isə bu görüşlərin sayı azalaraq altı görüş və ikiyə düşür. Məhkumlar cəzanın icrası qaydalarını pozmadıqda və əməyə vicdanla yanaşdıqda isə cəza müddətinin ən azı yarısını çəkdikdən sonra onların saxlanılması şəraiti yaxşılaşdırıla bilər.

Ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslərin saxlanılması şərtləri isə tamam fərqlidir. Belə ki, bu məhkumlar il ərzində qısamüddətli altı görüş və uzunmüddətli iki görüş almaq hüququna malikdirlər.

Məhkumlar cəzanın icrası qaydalarını pozmadıqda və əməyə vicdanla yanaşdıqda, təyin olunmuş cəzadan ən azı on il keçdikdən sonra onların saxlanılması şəraiti yaxşılaşdırıla bilər. Bu halda məhkumlar əlavə olaraq ərzaq məhsulları və ən zəruri mallar əldə etmək üçün ayda iyirmi beş manatadək miqdarda pul xərcləyə bilərlər.

Görüşlərə gəldikdə isə il ərzində qısa olaraq iki görüş və uzunmüddətli bir görüş almaq hüququna malikdirlər...

2014-cü ilin sentyabrında Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin 11 saylı cəzaçəkmə müəssisəsində nikah mərasimi keçirilib. 11 saylı cəzaçəkmə müəssisəsində saxlanılan Masallı rayon sakini Məmmədov Rüfət Kamal oğlu ilə 4 saylı cəzaçəkmə müəssisəsində saxlanılan Astara rayon sakini Ağayeva Fərzanə Allahverdi qızının müraciətləri əsasında onların nikah mərasiminə



Penitensiar Xidmət tərəfindən şərait yaradılıb. Bakı şəhəri Binəqədi rayon qeydiyyat şöbəsinin rəisi Tavat İsmayılova tərəfindən qeydə alınan nikah mərasimində Penitensiar Xidmətin məsul əməkdaşları və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak ediblər.

İzmirin Buca bölgəsindəki Qapalı-Açıq Cəza Qurumunda dəfələrlə belə nikah mərasimi gerçəkləşdirilib. Bu cür tədbirlər adətən 8 Mart dünya qadınlar günündə baş tutur. Ötən il biri qadın olmaqla 11 məhkum türmədə nikaha girib. 2013-cü ildə isə 82 cütlüyün nikahı məhz cəza evində baş tutub. İzmir şəhər baş prokuroru Emin Özler bildirib ki, türmədə gerçəkləşən nikahlar öz romantikliyi və xüsusi sədaqəti ilə fərqlənir. Belə ki, insanlar burda sevdiklərinə olan sevgilərini xüsusi sübut etmək üçün nikaha daxil olur.

### "Azadlıqda belə kişilər yoxdur" deyib evlənənlər...

Rusiyada da vəziyyət bundan fərqli deyil. Bu ölkənin həbsxanalarında da nikah mərasimləri həftədə ancaq bir dəfə keçirilir. Doğrudur, burda elə dəbdəbəli mərasimlərdən söhbət gedə bilməz. Çox sadə, səs-küysüz, təfərrüatsız. Mərasim görüş otağında keçirilir. Türmədə buna "uşaq otağı" deyirlər. Bu isə o qədər də böyük otaq sayılmaz - eni 2, uzunluğu 5 metr olan türmə otaqlarından gedir söhbət. Otağın divarları adətən çəhrayı rəngə boyanır ki, bu da məsələyə bir az bayram əhval-ruhiyyəsi qatır. Təyin edilmiş vaxtda VVAQ işçiləri həbsxanaya gəlirlər, bəylə gəlin isə növbə ilə nikah otağına gətirilir. Onlara bəy kostyumu, gəlinlik paltarı geyinməyə icazə verilir. Amma musiqi çalınmasına icazə yoxdur, mərasim maksimum ciddi keçirilir. Hər iki tərəfdən ancaq yaxın qohumlar iştirak edir ki, onların da sayı 3 nəfərdən çox olmamalıdır. Dostların girişinə isə müəyyən limitlə icazə verilir. Nikah şahidi olaraq türmənin rəisi təyin edilir. Mərasimi foto və videokameranın yaddaşına köçürməyə də icazə var. Üzüklərin dəyişdirilməsi proseduru da baş verir. Amma əgər məhkum kişidirsə, onun içəri üzük aparmasına icazə yoxdur, onun üzüyünü də qadın gedəndə özü ilə aparır. Ta ki, azadlığa çıxacağı günə qədər özündə saxlayır. Təbii bu məqamda hər hansı alkoqollu içki ilə mərasimi qutlamaqdan söhbət belə gedə bilməz. Yeni evlilərə ancaq və ancaq alkoqolsuz şampan içməyə icazə verilir. Bu cür mərasimlər zamanı dəfələrlə yeni evlilərin qohumları içəri meyvə şirəsi qutusunun içində alkoqol salmağa çalışsalar da, bunu dərhal aşkar edib, üzə çıxarıblar. Ümumilikdə isə nikah mərasimi cəmi 3 dəqiqə çəkir.

Rusiya türmələrində daha çox kişi məhbusların evlənmə hekayələri geniş yayılıb. Psixoloqlar hesab edir ki, burada məqsəd qadınların öz sədaqətini nümayiş etdirmə cəhdidir. Yəni, onlar sevdikləri kişini gözləyəcəklərini qanun qarşısında təsdiqləməyə çalışırlar. Və ən maraqlı məqam. Türmədəki sevdiyi ilə evlənən qadınların "dəşdan keçən" arqumentləri isə aşağıdakı kimidir: "Azadlıqda belə kişilər yoxdur"...

1996-cı ilin 3 oktyabr günündə isə ABŞ tarixində qəribə bir hadisə baş verib. Belə ki, ölüm hökmünə məhkum olunmuş serial qatilin toy mərasimi təntənəli surətdə qeyd edilib. Sen Kventin həbsxanasına gəlmiş keşiş Dorin Lioy adlı xanımla Rikardo Ramires adlı cani arasında nikah bağlayıb. Onu da qeyd edim ki, Dorin Lioy filologiya üzrə bakalavr elmi dərəcəsinə malikdir. Onun qatı cinayətkara qarşı sevgisi hələ 1985-ci ilə təsadüf edir. O vaxtlar törətdiyi çoxsaylı qətl hadisələrinə görə ölüm hökmünə məhkum olunmuş Rikardo Ramires çoxları kimi Dorin Lioyun da qəlbini fəth edə bilmişdi. Təkcə o faktı qeyd etmək kifayətdir ki, Rikardo Ramiresi indiki həyat yoldaşından əlavə 40 qadın da sevirmiş. Lakin tale təkcə Dorin Lioyun üzünə güldü...

Xoşbəxt cütlük nikah mərasimindən sonra qol-qola girib, həbsxananın qapılarından eşiyə çıxıb. Onları burada çoxsaylı jurnalist ordusu gözləyib. Sevinci yerə-göyə sığmayan gəlin fikirlərini belə səsləndirib: "Mən tamamilə xoşbəxtəm, çünki həyatımdakı ən böyük arzum yerinə yetdi." Müxbirlərdən birinin verdiyi, "xanım, siz nə üçün özünüzə qızıl, bəyə isə platin üzük almışsınız" sualı gözlənilməz şəkildə cavablandırılıb: "Ona görə ki, şeytanlar qızıl taxmırlar!"

Rikardo Ramires həbsxanaya yerləşdirildikdən sonra çoxsaylı pərəstişkar məktubu almağa başlayıb. Psixoloqlar bu amili belə bir faktla izah edirlər: **"Kütləvi informasiya vasitələrində bu cani seksual manyak kimi xarakterizə edilirdi, onun intim təcavüzləri çox vaxt şişirdilmiş şəkildə və xırdalıqlarına qədər göstərilirdi. Qadınlar həqiqi ləzzəti yaşamaq üçün ömürlərində heç olmasa bircə dəfə belələri ilə sevişmək arzusunda olurlar. Odur ki, onların bu adama qarşı marağı hədsiz dərəcədə böyükdür".** Bir faktı demək kifayətdir ki, Dorin Lioy bakirə olduğu halda, Rikardo Ramires kimi manyaka könlünü verib. Doğrudur, o, hələ də bakirəliyini qoruyub saxlayır. Belə ki, ABŞ qanunvericiliyinə görə, dustaq həyat yoldaşı ilə görüşə bilər. Lakin bu, barələrində ölüm hökmü çıxarılmış dustaqlara aid deyil. Buna belə, Dorin Lioy Rikardo Ramiresi ömrü boyu sevəcəyini etiraf edir.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 167 (6488) 2 avqust 2016

# Hərbi zavoddakı partlayışla əlaqəli Bakıda toplantı keçirildi




# Nazir Yavər Camalovun istintaqda dindirildiyi xəbərləri yayıldı

## Müdafiə sənayesi naziri və onun icra başçısı olan qardaşı Mərdan Camalov istintaqçılar üçün nə kimi ipucları verə bilər; MSN susur, partlayışın səbəbinin müəyyən edilməsi yubanır

**Müdafiə Sənayesi Nazirliyinin (MSN) tabeliyində olan və Şirvanda yerləşən hərbi təyinatlı "Araz" zavodundakı partlayışın nəticələri tam aradan qaldırılmayıb. 2 nəfərin ölməsi, 26 nəfərin yaralanması ilə nəticələnən partlayışdan sonra zavodun fəaliyyəti iflic olub. Şahidlərin sözlərinə görə, "Araz" zavodunun tərkibindəki döyüş sursatlarının utilizasiya mərkəzi döyüş baş vermiş ərazini xatırladır. Mərkəzin inzibati binalarının bir çoxu dağılıb, dağılmayan binaların fasadları partlayışdan sonra qəlpə "yağışı"nın təsiri altında dağınıq vəziyyətə gəlib, pəncərələr çərçivəsindən qopub.**

### ANAMA partlayışdan sonra mərmi başlıqları yığır

Hazırda mərkəzin ərazisi də daxil olmaqla zavodda və təxminən 2 kilometrlik ərazidə ANAMA mütəxəssisləri dəhşətli partlayışdan sonra ətrafa səpələnən döyüş sursatlarının başlıqlarını, siqnal raketlərinin patronlarını toplamaqla məşğuldurlar. Aldığımız məlumata görə, təmizləmə prosesi bir neçə ay sürə bilər. Bu da təsadüfi deyil. Partlayış zamanı 20-25 kiloqram ağırlığında olan mərmi başlıqları bir neçə yüz metr hündürlüyə qalxaraq yüksək sürətlə yerə çırpılıb. Bir çox mərmi başlıqları 1 metrə qədər torpağın dərinliyinə girib. Mütəxəssislər minaxtaranlarla həmin mərmi başlıqlarını axtarıb tapır, qazıyıb çıxarır və təhlükəsiz ərazilərə aparırlar.

### Partlayışı araşdıran Dövlət Komissiyası növbəti dəfə toplaşdı

Xəbər verildiyi kimi, prezident İlham Əliyevin sərəncamı ilə "Araz" zavodunda baş vermiş partlayışla əlaqədar Dövlət Komissiyası yaradılıb. Baş nazirin 1-ci müavini Yaqub Eyyubovun sədrlik etdiyi həmin komissiya avqustun 1-də növbəti dəfə toplaşıb. Şirvan İcra Hakimiyyətinin başçısı Mərdan Camalovun da qatıldığı komissiya hadisənin baş verməsi səbəblərini və şəraitini araşdırmalı, onun nəticələrinin aradan qaldırılması üçün təxirəsalınmaz tədbirlər müəyyənləşdirib həyata keçirməlidir.

Komissiyanın iclasında hansı qərarlar qəbul edilməsini öyrənmək üçün Nazirlər Kabineti ilə əlaqə saxladıq. Qurumdan suallarımızı Y.Eyyubovun köməkçisinə yönəltsələr də, suallarımıza cavab ala bilmədik. Şirvan İcra Hakimiyyəti ilə əlaqə saxlayıb komissiya üzvü olan Mərdan Camalova partlayışdan sonra yaranan sualları ünvanlamaq istədik. İcra başçısı Bakıda Dövlət Komissiyasının iclasında olduğundan 1-ci müavini Samid Abıyevlə əlaqə yarada bildik. S.Abıyev bildirdi ki, Dövlət Komissiyası iclası keçirilsə də, hələ ki komissiyanın işi haqda heç bir məlumat verilməyib. S.Abıyev zavodun fəaliyyətinin bərpası ilə bağlı suala "bu haqda heç nə deyə bilmərəm, işlərin bərpası üçün tədbirlər görülür" cavabını verib. Əlavə edib ki, zavodun ətrafında hazırda ANAMA təmizləmə işləri aparır.

### Partlayışda yanmış qadının iş yeri niyə dəyişdirilib?

Bu arada redaksiyamıza partlayış zamanı faciəvi şəkildə dünyasını dəyişmiş 2 övlad anası İlhamə Əsgər qızı Nuriyeva haqda məlumat daxil olub. Həmin məlumata görə, İ.Nuriyeva partlamamış, vaxtı ötmüş sursatların utilizasiya mərkəzinin yerin altındakı bunkerində çalışırmış. Olay baş verən gün onun iş yeri mərkəzin yerin üzərində yerləşən sexinə dəyişdirilib. Günortadan sonra sexdə baş verən partlayışda İ.Nuriyeva və Ağamir Allahyar oğlu Məmmədov dünyalarını dəyişiblər.

### Sex rəisi partlayışdan az əvvəl zavoddan qaçıb?

Ötən sayımızda hərbi zavoddakı müəmmalı partlayışdan sonra xəstəxanaya gətirilən yaralı işçilərin oradakı sexin rəisi Salamat Hüseynovun adını çəkməklə baş verənlərdə onu günahlandırmaları haqda məlumatların olduğunu yazmışdıq. Qeyd etmişdik ki, bu məlumatları yoxlamaq, müvafiq qiymət vermək prokurorluq orqanının işidir. Redaksiyamıza daxil olan digər bir məlumatda S.Hüseynovun partlayışdan az əvvəl zavoddan qaçdığı bildirilir. Qeyd olunur ki, S.Hüseynov partlayışdan əvvəl zavod qarşısındakı yolla qaçarkən zavodun mühafizəçiləri onu saxlayıb hara getdiyini, niyə qaçdığını xəbər alıblar. Həmçinin qeyd olunur ki, partlayışdan sonra bu məqam istintaqçılar tərəfindən araşdırılır. S.Hüseynovun istintaqçılara partlayışa görə şokda olduğu səbəbindən zavoddan qaçdığını söyləməsi də gələn məlumatlar sırasındadır. Onun partlayışdan az əvvəl partlayışın baş verəcəyindən xəbər tutaraq qaçması da maraq doğurur. Belə nəticəyə gəlmək olar ki, sex rəisi partlayışın baş verəcəyini bilib və işçilərdən əvvəl qaçıb. Hər halda, istintaq bu məqamlara aydınlıq gətirməlidir.

### Müdafiə Sənayesi Nazirliyinin "qaynar xətti" partlayışdan sonra "donub"

Şirvan şəhərində bir il fərqlə 2 hərbi zavodda baş verən partlayışların baş verməsəbəbləri nədənsə ölkə ictimaiyyətinin diqqətinə çatdırılmır. Müdafiə Sənayesi Nazirliyi (MSN) də öz tabeliyindəki zavodlarda baş vermiş bu dəhşətli olayların araşdırılmasında maraqlı görünmür. 2015-ci il iyulun 6-da Şirvandakı hərbi təyinatlı "Telemexanika" zavodunda baş verən, 1 nəfərin ölümü, 19 nəfərin yaralanması ilə nəticələnən güclü partlayışdan sonra tezliklə olayın hansı səbəbdən meydana gəlməsinin açıqlanacağı gözlənilirdi. Şirvan Şəhər Prokurorluğunda başlanan cinayət işi 1 il 20 gün ərzində partlayışdan sonra yaranan suallara cavab vermədi. "Telemexanika" zavodunda 2015-ci ilin iyulunda baş verən olayın səbəbi gizli qaldığı bir vaxtda miqyasına və ölənlərin sayına görə daha dəhşətli partlayış oldu. 26 iyul 2016-cı ildə "Araz" zavodunda 2 nəfərin ölümü, 26 nəfərin yaralanması ilə bağlı nəticələnən olay meydana gəldi. Bu olaydan 1 həftə ötməsinə baxmayaraq MSN rəsmiləri bilavasitə partlayışın səbəbləri haqda məlumat verməyə tələsmirlər. Ötən gün MSN-in 012 539 24 53 nömrəli telefonuna, 012 510 63 47 qaynar xətt nömrəsinə bir neçə dəfə zəng etsək də, dəstəyi qaldıran olmadı. "Araz" zavodunun 012 418 96 75 nömrəli telefonuna isə cavab verən olmadı.

### Partlayış "Araz" zavodundakı yeyintinin ört-basdır edilməsi cəhdidir?

**"Araz" zavodundakı partlayışda iki versiya var, təhlükəsizlik və ya yeyintinin ört-basdır edilməsi cəhdi".**

**Bunu Azərbaycan müdafiə nazirinin keçmiş müavini, polkovnik İsa Sadıqov AzadlıqRadiosu-na deyib.**

**Onun fikrincə, zavodda bu, ikinci partlayış olduğundan yeyinti məsələsi ilə bağlı versiyaya daha çox inanır:** "Yeyintini partlayışla silmək olar. Nəzərə alsaq ki, bu, artıq ikinci partlayışdır, deməli, ikinci versiyanın yaşama hüququ daha güclüdür. Ötənilki partlayışın səbəbləri barədə heç bir məlumat verilmədi. Bilinmədi, nədən olub, niyə olub? Kimi tutdular, kimi işdən azad elədilər, məsuliyyət kimin üzərində qaldı? Bu dəfə də komissiya yaradılsa belə, həqiqət barədə ictimaiyyətə məlumat veriləcəyinə inanmıram".

Özəl mənbələrdən musavat.com-a daxil olmuş məlumata görə, "Araz" zavodunda baş vermiş partlayışla bağlı istintaq tədbirlərinin miqyası genişləndirilib. Belə ki, mənbəmiz deyir ki, müdafiə sənayesi naziri Yavər Camalov istintaqda dindirilib. Həmçinin onun hakimiyyətin siyasi rəhbərliyi tərəfinfən ciddi danlandığı barədə məlumatlar yayılıb.

İstintaqa cəlb olunanlar sırasında adı keçən bir başqa məmur isə Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı Mərdan Camalovdur. Son 1 ildə onun rəhbərlik etdiyi rayonda iki hərbi zavodda partlayışın baş verməsəbəblərini araşdırılarkən, başçının ifadəsinin alınması istintaqçılar üçün müəyyən ipucları verə bilər...

Xatırladaq ki, Yavər və Mərdan Camalovlar qardaşdırlar. Onların hər ikisi Şirvan *(keçmiş Əli Bayramlı)* rayonunda anadan olub. Camalov qardaşlarının ciddi biznes imperiyasının olduğu barədə dəfələrlə yazılıb. Yavər Camalov iqtidarda ən varlı, imkanlı nazirlərdən sayılır.

İyulun 26-da baş vermiş partlayışdan sonra MSN-in yaydığı rəsmi məlumatlardan birində bildirilirdi ki, utilizasiya olunması üçün Müdafiə Nazirliyi tərəfindən zavoda təhvil verilən 1500 ton məmulatdan qalan 146 ton sursatda hələlik naməlum səbəbdən partlayış əmələ gəlib.

Hazırda iş üzrə araşdırmalar davam etdirilir. "Araz" zavodundakı partlayış faktına görə Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində Cinayət Məcəlləsinin 223.2 (partlayış təhlükəli obyektlərdə təhlükəsizlik qaydalarını pozma ağır nəticələrə səbəb olduqda) və 314.2-ci (səhlənkarlıq ağır nəticələrə səbəb olduqda) maddələri ilə cinayət işi başlanıb. Ötən il iyulun 6-da Şirvanda "Telemexanika" zavodunda baş verən partlayışla bağlı Şirvan Şəhər Prokurorluğunda Cinayət Məcəlləsinin 223.2-ci (partlayış təhlükəli obyektlərdə təhlükəsizlik qaydalarını pozma ağır nəticələrə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanmışdı. Zavodundakı sexlərin birində baş vermiş partlayış nəticəsində 1959-cu il təvəllüdlü Raziyyə Süleymanova aldığı yanıq xəsarətlərindən hadisə yerində ölmüş, sexdə işləyən digər 19 şəxs müxtəlif dərəcəli bədən xəsarətləri almışdılar. Hadisənin başvermə səbəblərinin müəyyənləşdirilməsi məqsədilə müvafiq ekspertizalar təyin edilmişdi. Bu cinayət işinin başlanması haqda məlumat verilsə də, nəticəsi haqda xəbərlər gizli saxlanılır.

❑ E.MƏMMƏDƏLİYEV



# Dünyanın ən yaxşı iki futbolçusu - Messi və Qara

**Samir SARI**

**Gözləmədiyim halda Roma Papası I Fransisk sözümə qüvvət verdi. Yəni bu dəstək birbaşa, üzbəüz söhbətdə yox, qiyabi şəkildə oldu.**

Məsələ belədir, təxminən 5 il öncə yazmışdım ki, mənə görə, Messi dünyanın bütün zamanlarının ən yaxşı futbolçusudur, hətta 20-ci əsrin futbol kralı ünvanını almış Peledən də üstündür.

Dünən Roma papası da elə deyib. Papa haqlıdır. Messi oynadığı oyunla çoxdan sübut edib ki, Peledən də, Maradonadan da yaxşıdır. Pele direşir, amma Maradona etiraf edir ki, elədir. Messinin bircə minusu var ki, dünya çempionu ola bilməyib, o da şans məsələsidir, həm də şəxsi şanssızlıq məsələsi deyil, ortada Argentinanın şanssızlığı var.

Amma bu yazıda söhbət futbolçuların dəyərləndirilməsindən, ümumilikdə futbol məsələlərindən getmir. Futbol adi oyundur, əsas məsələ yerlibazlıq kimi dünyanı başına almış, oxumuş adamlar demişkən, subyektiv tendensiyanın ali mənsəbli ruhanilərə belə sirayət etməsidir.

Məsələ ondadır ki, Roma Papası I Fransisk argentinalıdır. Bildiyiniz kimi, Messi də argentinalıdır. Deməli ki, papanın Messi barədə dedikləri nə qədər haqlı olsa da, o, burada yerlibazlıq edir. Papa braziliyalı olsa, yəqin ki, Messinin Peledən üstün olduğunu bilə-bilə bunu dilinə gətirməzdi. Ən uzağı, belə deyərdi: "Hərəsi öz dövrünün ən böyük futbolçusudur".

Hələ ortada həmvətənliklə yanaşı ayrı bir xətt də var. Bu da soydaşlıqdır. Messi də italyandır, I Fransisk də.

Messinin ulu babası Ancelo Argentinaya İtaliyanın Ankona şəhərindən köçüb. Özü də Messi metis-filan deyil, anası Selia Mariya Kuçittini də təmiz qanlı italyan qızıdır. Messinin atasının adı isə Xorxedir.

Roma papası I Fransiskin də əsl adı Xorxedir. Onun tam adı belədir: Xorxe Mariya Berqolio. O da italyandır. Atası İtaliyadan köçüb Argentinaya yerləşib. (Ümumiyyətlə, Argentina əhalisinin 60 faizi əslən italiyalıdır).

İndi işə baxın, I Fransisk Messinin həm atasıyla (Xorxe), həm də anasıyla (Mariya) adaşdır, eləcə də vətəndaş və soydaşdır.

Ölkəmizin Pelesevər, eləcə də Ronaldosevər kəsimi bur məqamdan yapışa və Roma papasının Messiyə dair fikirlərinin obyektivliyini şübhə altına ala bilərlər.

Məncə, o boyda papa yerlibazlıq edərək özünü Messinin papası kimi aparıb, ona görə onu dünyanın ən yaxşı futbolçusu elan edib.

Əvvəllər çox deyirdik ki, mədəni dünyada yerlibazlıq söhbət yoxdur, bu, daha çox geridəqalmış ölkələrə xas mərəzdir. Guya ki, yalnız şərq hökmdarları öz kəndçilərini irəli çəkib nazir qoyur, yaxud gömrük naziri öz kəndində doğulmuş 4-5 yüz oğlanı gömrükdə işə düzəldir, daha nə bilim, nə.

Heç demə, tərifli qərbdə də belə şeylər var. Düzdür, onlar öz çobanlarını dağdan endirib, boğazlarına qalstuk bağlayıb, gətirib, məsələn, təhsil sistemində pedaqoq-məmurlara çevirmirlər, amma yerə gələndə öz eloğlularını yanlarında işə götürürlər. Tutaq ki, əslən lionlu olan bir fransız nazir bir tuluzalı kadrla lionlu kadrın arasında seçim etməli olsa, mütləq lionlunu seçir və bəyan edir ki, bu seçimdə əsas diqqət kadrın peşəkarlığına verilib. Yəni ki, həmyerliliyin məsələyə dəxli yoxdur. Amma araşdıranda məlum olur ki, tuluzalı kadr lionlu həmkarından daha peşəkardır.

Bizdə, əlbəttə, yerlibazlığı o qədər incə-incə, xəfif-xəfif, altdan-altdan eləmirlər. Bizdə bir nazirlikdə, komitədə, müəssisədə yer boşalanda və o yerə iddialı olan gəncəbasarlı və muğanlı kadr rəqabətə başlamaq istəyəndə, səlahiyyət yiyəsi olan rəhbər şəxs gətirib ora öz kəndçisini qoyur, "təhsili yoxdur", "bundan qabaq heç yerdə işləməyib" və s. iradlar tutanlara da deyir: "Buranın yiyəsi mən deyiləm? Öz komandamı yığıb işləməliyəm dəə". Vəssalam. Di gedin.

İndi Messinin Peledən üstün olduğunu bəyan edən I Fransiskin Vatikandakı fəaliyyətini araşdırası olsaq, ortaya çıxacaq ki, yaxın ətrafında argentinalı italyanlar çoxdur.

İtaliyanın paytaxtı Romanın göbəyində yerləşən Vatikanın boz-boz kardinallarının basa-basa gedib uzaq Argentinadan bir italyanı tapıb gətirib özlərinə papa seçməsinin özü də əslində yerlibazlıq hadisəsidir.

Əgər belədirsə, onda, məncə, dünyanın ən yaxşı futbolçusu Qara Qarayevdir. Yaxşı oldumu?



# Türkiyə və ABŞ arasında "İncirlik"lə bağlı incikliyin pərdəarxası

## Çevrilişin "beyin mərkəzi"nin yerləşdiyi bazanın taleyi necə olacaq? **Elxan Şahinoğlu:** "Ankara "İncirlik" hərbi bazasını qapatsa, bu, İŞİD-ə qarşı mübarizəni zəiflədəcək, İŞİD isə Türkiyənin də düşmənidir..."

**Türkiyə hakimiyyəti Adana vilayətində yerləşən və ABŞ ordusu ilə NATO-nun istifadəsində olan İncirlik hərbi hava bazasını bağlayıb. "CNN İnternational"ın məlumatına görə, bazaya giriş-çıxışlar dayandırılıb.**

Qeyd edək ki, Türkiyədəki 15 iyul dövlət çevrilişinə cəhd zamanı "İncirlik" hərbi bazasından da istifadə edildiyinə dair ittihamların qarşılığında hələ ki qarşı tərəfdən ciddi dəlil-sübutlara malik təkzib gəlməyib. Türkiyədə qiyamçıların "beyin mərkəzi"nin məhz "İncirlik" hərbi-hava bazasının olduğuna dair sensasion məlumatlar yayılıb. Bildirildiyinə görə, hərbi çevrilişə cəhddən bir gün əvvəl Fətullah Gülənin tərəfdarları olan generallar orada gizli yığıncaq keçiriblər. Bu yığıncaqda adı açıqlanmayan amerikalı general-leytenant da iştirak edib.

Ötən bazar günü "İncirlik" hərbi bazası ətrafında xüsusi əməliyyat keçirilib. Türkiyənin bəzi mətbu orqanları bunun ölkədə ikinci dəfə dövlət çevrilişinə cəhdlə bağlı ola biləcəyi ehtimalını irəli sürüb. Lakin Türkiyənin Avropa İttifaqı məsələləri üzrə naziri Ömər Çelik bütün bunları təkzib edib. Nazirin sözlərinə görə, hərbi baza ətrafında baş verənlər "təhlükəsizliyinin standart yoxlanılması"ndan başqa bir şey deyil.

Xatırladaq ki, bu ilin əvvəlində də "İncirlik" ətrafında mübahisəli vəziyyət yaranmışdı. Türkiyə mətbuatı Türkiyə prezidentinin məsləhətçisinə istinadən yazmışdı ki, ABŞ PYD-ni terror təşkilatı olaraq qəbul etməyəcəyi halda, hava bazası Birləşmiş Ştatların hərbi təyyarələri üçün bağlana bilər. Türkiyə prezidentinin məsləhətçisi Şeref Malkoç bildirmişdi ki, İslam coğrafiyası və Osmanlı imperiyasının parçalanmasını hədəfə alan Birinci Dünya müharibəsi, əslində hələ də davam edir. Malkoç növbəti mərhələnin kürdləri bölüb-parçalamaq olduğunu söyləmişdi: **"Ondan sonra bəlkə də Türkiyəni parçalamaq istəyəcəklər. Həmin ölkələr arasında Rusiya, İran - təəssüf ki, dost və müttəfiq saydığımız ölkələr də var. PYD-YPG-ni terror təşkilatı olaraq qəbul etməyən ABŞ-a qarşı görüləcək tədbirlər arasında İncirlik hava bazasının Amerika təyyarələri üçün bağlanılması da ola bilər".**

Son olayların ardınca "İncirlik" yenidən diqqət mərkəzinə gəlib. Əsasən ABŞ, Türkiyə, Böyük Britaniya, Səudiyyə Ərəbistanının hərbi hava qüvvələri tərəfindən istifadə edilən baza mühüm strateji əhəmiyyətə malikdir. Xatırladaq ki, 1951-ci ildə inşasına başlanan "İncirlik" hərbi bazası, dekabr 1954-cü ildə Türk Silahlı Qüvvətləri (TSK) və Amerika Hava Qüvvələrinin xidmətində ortaq istifadəyə açılıb. Hərbi baza zaman-zaman bölgədəki hərbi əməliyyatlar və antiterror əməliyyatları zamanı öz rolunu oynayıb. Bu sıraya Livan böhranı, İraq ətrafında baş verənlər, daha sonra Orta Şərqin bir sıra ölkələrində cərəyan edən toqquşmalar zamanı operativ müşahidə və müdaxiləleri əlavə etmək olar.

"İncirlik" hərbi bazası İŞİD-ə qarşı əməliyyatlarda da mühüm strateji məkan olaraq öz sözünü deyib. Baza humanitar fəlakətlər yarandığı zaman da əhəmiyyətinə görə seçilib. Habelə 18 oktyabr 2005-ci ildə Pakistan zəlzələsinin qurbanlarına yardım göstərilməsi baxımından önəmli rol oynayıb. 2006-cı ildəki İsrail-Livan qarşıdurmaları zamanı Livanda yaşayan və döyüş səbəbi ilə qaçan 1700-dən çox Amerika vətəndaşına humanitar yardım göstərilməsi üçün bazanın fəaliyyətindən istifadə olunub.

Bir neçə il əvvəl "İncirlik" bazası ərazisinə bir qrup erməninin iddiaları ilə bağlı iş üzrə Kaliforniya məhkəməsi Türkiyənin xeyrinə qərar çıxarmışdı. Üç ilə yaxın davam edən prosesdə amerikalı ermənilər məğlub olmuşdu. 2010-cu ilin dekabrında ABŞ-da yaşayan bir qrup erməni Türkiyə hökumətinə qarşı iddia irəli sürmüşdü. İddiaçılar onların "ulu babaları tərəfindən" itirilən əmlak üçün Türkiyə hökumətindən 100 milyon ABŞ dolları həcmində kompensasiya tələb edirdi. İddiaya görə, guya Adanada, hazırda Amerika hərbi bazası yerləşən "İncirlik" ərazisinin də daxil olduğu 49,5 hektar torpaq ərazisi onların babalarına məxsus olub.

**Zaman-zaman müxtəlif bəhanələrlə gündəmə gələn NATO-nun bölgədəki ən böyük bazasının bundan sonrakı taleyi haqda müxtəlif fikirlər var. "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu şübhə etmir ki, Türkiyədə 15 iyul hərbi çevrilişini planlaşdıran şəbəkə "İncirlik" hərbi bazasından istifadə edib:** "Təsadüfi deyil ki, hərbi bazanın türkiyəli komandanı da çevriliş iştirakçılarından biri olduğundan həbs edilib. Ümumiyyətlə, hərbi çevriliş cəhdinin əsas hərəkətverici qüvvəsi məhz Türkiyə Hərbi Hava Qüvvələri olub. Buna görə də Türkiyə hakimiyyəti həm hərbi hava qüvvələrinin şəxsi heyətinə göz gəzdirmək, həm də onların istifadə etdikləri hərbi bazalarda yoxlama aparmaq məcburiyyətindədir. Buna baxmayaraq, Türkiyə hakimiyyətinin "İncirlik" hərbi bazasını qapadacağını düşünmürəm. Ola bilsin, çevrilişə cəhddə iştirak edən başqa hərbi bazalar bağlansın, digərləri şəhər mərkəzlərindən kənara köçürülsün. Ancaq eyni addımın "İncirlik" hərbi bazasına qarşı atılacağını proqnozlaşdırmıram".

**E.Şahinoğlu xatırlatdı ki, bu bazadan NATO qüvvələri və ABŞ hərbçiləri istifadə edirlər və bazadan istifadə ilə bağlı Türkiyənin öhdəliyi var:** ""Soyuq müharibə" illərində istifadə edilən bu baza illər uzunu ABŞ-ın işinə yarayıb. İndinin özündə də ABŞ və digər Qərb dövlətləri məhz bu bazanın imkanlarından istifadə edərək Suriyada və İraqda İŞİD mövqelərinə zərbələr endirirlər. Belə vəziyyətdə Ankara "İncirlik" hərbi bazasını qapatsa, bu, İŞİD-ə qarşı mübarizəni zəifləndəcək, İŞİD isə Türkiyənin də düşmənidir. Ancaq bu o, demək deyil ki, Ankara "İncirlik" üzərində nəzarətini artırmayacaq. Gülən şəbəkəsinə bağlı hərbçilərin "İncirlikdən" istifadə etmələri təsadüfi deyildi. Bununla onlar göstərmək istəyirdilər ki, çevrilişin arxasında Qərbdəki müəyyən qüvvələr də dayanır. İndinin özündə də Türkiyə rəsmiləri və cəmiyyəti ABŞ-ın mövqeyindən şübhəlidir".

**Politoloq hesab edir ki, əgər Vaşinqton "İncirlik" hərbi bazası ilə bağlı Ankara ilə münasibətlərdə problem yaşamaq istəmirsə, Fətullah Gülən şəbəkəsinə qarşı mübarizədə Türkiyə hökuməti ilə əməkdaşlıq etməlidir:** "Yox, Vaşinqton FETÖ terrorçu təşkilatının liderini Türkiyəyə təhvil verməsə, bu, gələcəkdə həm Türkiyə-Amerika strateji münasibətlərinə mənfi təsir edəcək, həm də Ankara ABŞ-ın "İnmcirlik"dən qeyd-şərtsiz istifadəsinə imkan verməyəcək. Bir Gülənə görə bu qədər itkiyə getməyə dəyərmi? Ona görə də Vaşinqtonun iki seçimi var: Amerika ya Güləni Türkiyəyə ekstradisiya haqqında düşünməlidir, ya da ən pis halda terrorçubaşını üçüncü ölkələrdən birinə ötürməlidir ki, Türkiyə ilə münasibətləri tamamən korlanmasın".

Yeri gəlmişkən, iyulun əvvəlində Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğluna istinadən belə bir xəbər yayılmışdı ki, Türkiyə "İncirlik" hərbi bazasının qapısını Rusiyaya aça bilər. Deyilirdi ki, M.Çavuşoğlu Rusiya xarici işlər naziri Sergey Lavrovla Soçidə keçirdiyi görüşün detalları haqda danışarkən bildirib ki, Ankara İŞİD-ə qarşı mübarizədə "İncirliy"i rus təyyarələrinin istifadəsinə verməyə hazırdır. Türkiyəli politoloq Ömür Çelikdönmez bunun ABŞ-a mesaj olduğunu demişdi və bildirmişdi ki, ABŞ-ın nə deməsindən asılı olmayaraq, Türkiyənin "İncirlik" hərbi bazasını istədiyi ölkə üçün açmaq hüququna malikdir. Məhz çevriliş olayları bundan iki həftə sonraya təsadüf etdi. Görünən budur ki, F.Gülənin ekstredisiyası baş verməzsə, "İncirlik"in statusu da gündəmə gələ bilər.

❑ **Cavid TURAN**

YENİ MÜSAVAT
N 167 (6488) 2 avqust 2016

**Sentyabrın 26-da konstitusiyaya dəyişikliklər edilməsi üçün referendum keçiriləcək. Müxalifət düşərgəsi dəyişikliklərə qarşı olsa da, bəri başdan etiraf edirlər ki, hakimiyyətin istəyi reallaşacaq. Beləliklə, bir daha sübut olunur ki, hakimiyyət konstitusiya dəyişikliyi və digər istədiyi layihəni asanlıqla həyata keçirə bilir.**

# Razi Nurullayevdən iqtidar və müxalifətə ismarış

## "Birinci zopanı yeməyi üzərimə götürməyə hazır olduğumu bəyan edirəm, xalqın önündə gedəcəm və..."



Bəs bu, iqtidarın güclü olmasından, müxalifət və cəmiyyətin zəifliyindən, yoxsa beynəlxalq reaksiyanın olmamasından irəli gəlir? Nədən indiyə qədər iqtidarın istədiyi heç bir layihə və planın reallaşmaması baş verməyib?

**Yeni AXCP-nin sədri Razi Nurullayev** bildirdi ki, Azərbaycan iqtidarı nəinki konstitusiyanı dəyişə bilir, qarşısına ciddi bir maneə olmadan seçkini də istədiyi formada keçirir, qanunları da istədiyi formada qəbul edir və dəyişiklik aparır, o cümlədən ictimai rəyi nəzərə alaraq addım atmalı olduğu məsələlərdə belə təkbaşına qərar verir: "Səbəb isə məlumdur: müxalifət çox zəifdir. Müxalifət çox zəiflədilib. Müxalifətin hakimiyyətin davranışını və siyasətini dəyişmək üçün gücü və resursu yox dərəcəsindədir. Bunun da bir neçə səbəbi var. Xalq müxalifət və iqtidardan uzaq düşüb. Xalq bu gün nə iqtidarın, nə də müxalifətin yanındadır. Çünki zaman-zaman aldadılıb, kimlərinsə siyasi ömrünü uzatmaq üçün istifadə edilib, onilliklər boyu ümid edib və o ümidlər sındırılıb, yerlə-yeksan edilib, talan edilib, nəhayət, məhv olub. Bu gün baxsaq, normal münasibətləri olan siyasətçilər yox dərəcəsindədir. Hər kəs bir-birinə şübhə ilə baxır, bir-birinə yalan danışır, siyasətində kimlərəsə bağlıdır, bəziləri isə tapşırıqlar yerinə yetirir. Belə olan halda xalqın da inamı qırılır".

**R.Nurullayevə görə, indi də konstitusiya dəyişikliyinə mane olmaq üçün mitinq məsələsi ortaya atılacaq:** "Bəlkə də kimlərsə 1000 nəfər yığıb siyasi şou göstərəcək. Amma mahiyyət dəyişməyəcək. Əslində elə bu şounun göstərilməsi ziyanlıdır. Xalqı arxayın salırıq. O düşünür ki, mitinq edirlər və xalqı ayağa qaldıracaqlar. Nə baş verir? Mitinq "mən ölüm-sən öl" taktikası ilə az sayda təşkil olunur və sonra da xalq günahlandırılır ki, dəstək vermədilər. Əgər siyasi partiya altmış, yetmiş min üzvünün olduğunu deyirsə və on min, iyirmi min adamı etiraz mitinqinə çıxara bilmirsə, o zaman xalq mitinqə dəstək verməyəcək. Öz üzvünü çıxara bilmədiyin mitinqə xalq qoşulmaz".

**R.Nurullayev vurğuladı ki, hakimiyyətin istənilən layihəni asanlıqla həyata keçirə bilməsi həm də iqtidarın əlində gücün olmasından irəli gəlir:** "İqtidar güclü deyil, iqtidarın əlində gücü, dəyənəyi var. Bu dəyənəkdən də qorxanlar çoxdur. Belə görünür ki, dəyənəkdən qorxmamaq mərhələsinə çatmamışıq və hadisələri də hələ ki qabaqlamaq istəməzdim. Xalq ayılanda və zopadan qorxmayanda görəcəyik. Təbii ki, o zaman birinci zopanı yeməyi üzərimə götürməyə hazır olduğumu bəyan edirəm. Xalqın önündə gedəcəyəm və liderliyi də ən ağır məqamda bütün təhlükə və riskləri ilə üzərimə götürəcəyəm".

**Beynəlxalq reaksiya məsələsinə gəldikdə isə həmsöhbətimiz bildirdi ki, bu, daha çox daxili müqavimət faktorundan asılıdır:** "Onlar onsuz da narahatlıqlarını dilə gətirəcəklər və məsələ bundan o yana getməyəcək. Onlar nə edə bilər ki? Nəzəri cəhətdən qanuni şəkildə xalqın və zəhmətkeşlərin tələbi ilə referendum keçirilir və Konstitusiya dəyişdirilir. Öncəki seçkilərdə nəticələrə nə təsir oldu ki, indi nə ola. Konstitusiya dəyişdiriləcək. YAP bunu qarşısına məqsəd qoyub və edəcək. Beynəlxalq təşkilatlardan isə umu-küsü etməyə dəyməz. Biz burada nə müqavimət təşkil edə bildik ki, onlar da bizə dəstək dursun?"

❑ **E.SEYİDAĞA**

# Amerika cəmiyyətində "Dəlisov Tramp"a rəğbətin səbəbi nədir?

## Seçki texnoloqunun maraqlı arqumentləri var...



**ABŞ prezidentliyi uğrunda mübarizə günbəgün şiddətlənir. Demokratların namizədi Hillari Klintondan fərqli olaraq, əksər ekspertlər Donald Trampı Amerika prezidentliyinə layiq bilmir, onu hətta "dəlisov" adlandırırlar. Elə Tramp özü də çılğın çıxışları ilə bu sözü haradasa haqq edir.**

Belə olan təqdirdə sual ortaya çıxır ki, "azadlıqlar ölkəsi" adlandırılan Amerikanın cəmiyyətində nədən Trampa böyük dəstək var?

Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan **Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzinin rəhbəri Anar Məmmədli** bildirdi ki, Amerika cəmiyyətində mühafizəkar kəsim arasında miqrantların, xaricdən gələn insanların ölkədə yerləşməsi, onların iş həyatı kimi məsələlər daim müzakirə olunur: "Ancaq bunu Amerikada ümumi bir cəmiyyətin problemi kimi xarakterizə etmək olmaz. Eyni məsələ Avropa ölkələrində də var. Bu baxımdan, hesab edirəm ki, belə müzakirələrin olması və bunun siyasi gündəmə daşınması təbii bir haldır. Amerikada bu cür elektoratı təmsil edən çoxlu sayda siyasətçilər olub. Əlbəttə ki, liberal kəsim üçün belə məsələlər qəbuledilməzdir. Göründüyü kimi, Demokrat Partiyası və digər müstəqil namizədlər bu kimi məsələlərin əleyhinə çıxırlar. Trampın özünə gəldikdə isə o, elektoratı təmsil edən siyasi liderlərdəndir. Bunu zaman göstərəcək ki, Amerika cəmiyyəti nə dərəcədə Tramp və onun platformasını qəbul edəcək. Açığı, mənim gözləntilərim Trampla bağlı böyük deyil".

**Ekspert Trampın kifayət qədər populist çıxışlar etməsinə diqqət yönəltdi:** "O, əsaslandırılmamış və xeyli dərəcədə publikaya oynayan görüntü yaradır. Bu baxımdan, hesab edirəm ki, seçkilərdə demokratların şansı daha çoxdur. Demokratlar Partiyasının ətrafında daha geniş koalisiyanın qurulduğu görünür. Bugünlərdə keçirilən demokratların konqresindən də göründü ki, Klintonun tərəfdarları Amerika cəmiyyətinin böyük bir kəsimini təşkil edir. Hər halda, hesab edirəm ki, bu cür debatlar demokratik məcrada gedəcək, ədalətli seçki yarışı olacaq. Məncə, bu məsələlərdə daha çox demokratiya qalib gələcək, nəinki gerilikçi yanaşmalar, mühafizəkar baxışlar. Bütün hallarda bu, Amerika cəmiyyəti üçün xarakterik bir haldır ki, belə müzakirələr orada daima olur. Yuxarıda da qeyd etdiyim kimi, eyni şeyi Avropada görmək mümkündür. Misal üçün, bu, günlərdə Merkel çox tənqid olunur ki, nə üçün o, xaricdən gələn miqrantların ölkəyə axınının qarşısını almadı. Hətta bu gün Bavariyanın maliyyə naziri çıxış edərək bildirdi ki, Merkel Suriya qaçqınlarının Almaniyaya yerləşməsi ilə bağlı tarixi yanlışlığa yol verib. Yəni hara ki, insanlar işsizlikdən, zülmdən qaçıb axışırlar, həmin ölkələrdə bu kimi problemlər yaşanır. Uzun illərdir Amerikada da bu məsələlər müzakirə olunur. Bildirilir ki, Amerikanın cənub sərhədləri Meksikadan və digər yerlərdən gələn qanunsuz miqrantlara bağlanmalıdır və sairə. Son illər də müsəlmanlarla bağlı məsələlər müzakirədədir. Ancaq demokratik kəsim bu məsələlərə daha soyuqqanlı yanaşır. Bu baxımdan, hesab edirəm ki, Klintonun mövqeyi daha demokratik və əsaslandırılmışdır. Ona görə də cəmiyyətdə kifayət qədər təqdir toplayır".

**A.Məmmədli bildirdi ki, Tramp seçilərsə, müsəlmanların aqibəti barəsində də danışıb:** "Amerikada belə bir şey var ki, prezidentin hətta həddindən artıq sağçı mövqeyə malik olması o demək deyil ki, o, istədiyi normativ aktı çox rahatlıqla keçirə biləcək. Burada Konqres, Nümayəndələr Palatası, Senat var. Onların da Amerika cəmiyyətində, ictimai-siyasi proseslərdə çox ciddi iştirakı var. Yəni düşünmürəm ki, hətta Tramp seçilsə belə, bu, Amerikada demokratiyanın sonu olacaq. Amerika cəmiyyəti kifayət qədər bu cür məsələləri tənzimləmək, daxili problemləri çözmək, prezidentin belə qərarlarını yeri gələndə dəyişdirmək imkanına malikdir. Tarixdə bu cür hallar çox olub. Amerika cəmiyyəti kifayət qədər fərqli, demokratik cəmiyyətdir. Bu cəmiyyəti digər ölkələrlə müqayisə etmək olmaz. Bəli, bu cəmiyyətdə xalq tərəfindən seçilmişlərin hakimiyyətə gəlmə şansları tanınır. Ancaq eyni zamanda hakimiyyətin idarəçiliyində xalqın da müxtəlif təbəqələrinin iştirak etmək imkanları da tanınır. Bu baxımdan, Trampın hakimiyyətə gəlməsi Amerika cəmiyyəti üçün qəbuledilməz bir hal ola bilər. Çünki bu, Amerikanın illər boyu yürütdüyü siyasətdən geri çəkilməsi kimi görünər".

❑ **Əli RAİS**

# Tramp Qarabağı tanıya bilər?



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**ABŞ-da prezident seçkilərinin sonuncu, həlledici mərhələsi başlayıb. Bu mərhələ noyabrın 8-də səsvermə günü ilə yekunlaşacaq. Mərhələnin ən mühüm yeniliyi isə respublikaçıların namizədi, milyarder Donald Trampın sabiq dövlət müşaviri, demokratların tək namizədi Hillari Klintonu ilk dəfə olaraq reytinqdə üstələməsidir.**

Siyasi texnoloqlar və ekspertlər bu səbəbdən indi təlaşda və məyus kimidirlər. Hər necə olmasa, Tramp peşəkar siyasətçidən daha çox, populistin biridir. Bəzən ağzının danışığını da heç bilmir. Verdiyi vədlərin əksəriyyəti isə reallaşması ya mümkünsüz, ya da riskli olan məsələlərdir.

Respublikaçıların dəlisov namizədi bu xüsusda hamını təəccübləndirən açıqlamalar verməkdə davam edir. Misal üçün, bu arada o, Krımı Rusiyanın tərkib hissəsi kimi tanıya biləcəyini istisna eləməyib. ABŞ-ın dünyanın 1 nömrəli supergücü olduğunu nəzərə alsaq, bunun özü artıq indidən Azərbaycanın köklü milli maraqları üçün yeni təhdid sayıla bilər. Ən azı ona görə ki, belə mövqe təkcə Rusiyanın deyil, Krımın ilhaqına dövlət səviyyəsində haqq qazandırmış işğalçı Ermənistanın mövqeyi ilə də səsləşir.

Eyni zamanda belə mövqe Krımın işğalına görə Moskvaya iki ildən çoxdur sanksiyalar tətbiq edən Qərb dünyasına meydan oxumaq, ABŞ-ın özünün isə milli maraqlarına qarşı getməkdir. Yada salaq ki, Tramp həm də islamofob və gizli xristian təəssübkeşidir. Bu da ermənilərin, Qarabağ separatçılarının başqa yandan karına gələ bilər. Hətta Trapm Allah eləməmiş, prezident olarsa, qorx ki, Krımı Rusiya ərazisi sayacağı kimi, Dağlıq Qarabağı da Ermənistanın bir hissəsi elan eləsin.

Belə bir impulsiv, böyük siyasətdən səthi baş çıxaran, daha doğrusu, heç çıxarmayan, qlobal siyasətə də biznes maraqları prizmasından baxan primitiv birisinin dünyanın 1 nömrəli dövlətinin sükanı arxasına keçməsi, daha betəri, nüvə çamadanına sahiblənməsi sözsüz ki, ABŞ-a da, bütövlükdə Qərbə və bəşəriyyətə yaxşı bir şey vəd eləmir. Yalnız iki işğalçı ölkə - Rusiya və Ermənistan Trampın prezident olmasına sevinərdi.

Ən qəribəsi də həmişə modern, ayıq cəmiyyət kimi tanınan ABŞ toplumunda Trampa bu boyda rəğbətin bəslənməsidir. Ümid edək ki, səsvermə günü demokratik dəyərlər qalib gələcək, nəinki bu dəyərləri təhlükəli şəkildə təftiş edən Trampın irreal və qorxulu vədləri.

İstənilən halda Bakı ABŞ-dakı seçkilərdən dolayı fors-major vəziyyətlərə hazır olmalı, ilk növbədə özünün milli maraqlarını qoruya biləcək ehtiyat planlara malik olmalıdır. Əlbəttə ki, ABŞ demokratik seçki və demokratik idarəçilik ənənəsi olan, cəmiyyətin dövlətin idarəçiliyində yaxından iştirak etdiyi, ən əsası, hakimiyyət bölgüsü olan fövqəl hüquqi dövlətdir. Yəni bu ölkədə prezidentin hər dediyi söz heç də "Quran ayəsi" sayılmır, əksinə, ölkənin maraqları diktə edərsə, həmin söz iqnor edilə, hətta prezident impiçmentlə kürsüsündən götürülə də bilər - necə ki, Amerika tarixində belə hallar olub.

Amma yenə şər deməsən, xeyir gəlməz. Keşkə, noyabrın 8-də Amerika elektoratı şərin iqtidar olmasına elə bəri başdan mane ola. Hərgah, bu, heç də o anlama gəlmir ki, Hillari Klinton Azərbaycan maraqlarına tam cavab verir. Unutmayaq ki, bədnam Sürix protokollarının əsas müəlliflərindən biri o vaxt dövlət katibi işləyən Klinton olub. Sadəcə, iki pisdən daha yaxşısı məsələsi...

Azərbaycanın maraqlarının ABŞ kimi bir dövlət tərəfindən də ciddiyə alınmasının ən etibarlı yolu, deməli, həm də Qarabağın qaytarılmasının ən güclü qarantı isə - iqtisadi və demokratik cəhətdən güclü dövlətə çevrilməyimizdir.

YENİ MÜSAVAT
N 167 (6488) 2 avqust 2016



# Yetimlə canişinin əhvalatı

Zamin HACI
zaminhaci@gmail.com

**Yapistlərin payızda konstitusiyamıza edəcəyi dəyişiklərdən biri mülkiyyət hüququnun faktiki ləğv olunmasıdır. İndiyə qədər dövlətin hansısa fısqırıq ehtiyac üzündən kompensasiya ödəyib vətəndaşın torpağını, evini əlindən almaq haqqı nəzərdə tutulurdu. Ona görə fısqırıq yazdım ki, adətən belə ehtiyaclar boş-boş şeylərdən yaranırdı, örnək üçün, kiminsə qəfil ağlına gəlirdi filan yerdə daş parkı salınmalı, oyuncaq ağaclar əkilməlidir. Vəssalam. Buldozerləri töküb evləri camaatın başına uçururdular, sonra salamat qalanlara beş-on manat verib başqa ərazilərə qovurdular. İndi isə dövlət kompensasiya vermədən də evləri uçurdub, torpaqları işğal eləmək hüququ alacaq.**

Yaxşı eləyirlər, əslində bu camaatın nazıyla hələ çox oynadılar. Masazırda bir-iki sot yeri olan adam tanıyıram, az qalırdı gözümüzü çıxartsın. Tarix göstərib ki, Azərbaycan xalqına heç bir topraq-zad vermək olmaz, yoxsa son pulunu da xərcləyib o torpağın içində axmaq bir dizaynda, pəncərəsi tülkü deşiyinə oxşayan daxmalar tikəcək. Özü də yarışma şəklində tikəcək. Əgər qonşu 1 mərtəbə (qat) ev tiksə, bu 2 qatlı edəcək. Qonşu bunu görüb 3-ə qaldıracaq, bu da acığa 4 qat edəcək və sairə. İkisi də tikə-tikə, uzada-uzada çərləyib öləcəklər, heç o binalarda adam kimi yaşamağa çatdırmayacaqlar.

Uzun sözün qısası, mülkiyyət hüququmuz payızda tamamilə cəhənnəmə vasil olur. Belə hallarda həmişə adamın yadına 18-ci əsrin Almaniyası düşür. O vaxtlar Prussiya kralı İkinci Fridrix idi. Fridrix alman tarixinə Prussiyanı azı iki dəfə böyütmüş, bir çox savaşlar aparmış, mütləq monarxiyanın qatı tərəfdarı, Volterin dostu kimi düşmüşdür. Bu qüdrətli adam 1745-ci ildə Potsdam şəhərindəki malikanəsini genişləndirmək istəyir, qonşuluqdakı balaca torpaq sahəsini də sarayına qatmaq fikrinə düşür. İnsafən, kralın pis məqsədi də yox imiş, həmin torpaq sarayın ərazisinə paz kimi giribmiş. Torpağın yiyəsi bir dəyirmançı olur, onu Fridrixə verməkdən qəti imtina edir. Kral torpağı zorla almaq istəyəndə dəyirmançı məhkəməyə üz tutur. Məhkəmə qərar çıxarır: kral haqsızdır, torpaq dəyirmançıya məxsusdur, əlindən almaq olmaz.

İndiki dövrdə, 21-ci əsrdə dərəbəylikdə yaşayan bizimki kimi toplumlar üçün bu əhvalat nağıla bənzəyir, ancaq Avropada, Almaniyada adi qaydadır. Almaniyanı Almaniya eləyən elə bu hüquqa hörmət, qanuna sözsüz tabeçilikdir. Kral və adi adam hər ikisi qanun qarşısında bərabərdir. "Şah qanun deyil, qanun şahdır" - bizdə el arasında populyar olan, ancaq heç kimin əməl eləmədiyi məşhur afyorizmdə deyilən kimi.

Mən həmişə bu "Dəyirmançı və kral" əhvalatına həsəd aparırdım, fikirləşirdim görəsən biz haçan belə günlər görəcəyik. Sən demə, görmüşük, sadəcə diqqətimizdən yayınıb! Həmin faktı mən Manaf Süleymanovun "Eşitdiklərim, oxuduqlarım, gördüklərim" adlı Bakı tarixi haqda gözəl kitabından tapmışam. Yazım siz də oxuyun.

Demək, Bakıda neft bumu zamanı - 19-cu əsrin sonu, 20-ci əsrin əvvəlində Qarabəy adlı əla vəkil varmış. Bu vəkil qanunları əzbər bilməsi, maraqlı çıxışları ilə məşhur imiş. O qədər güclü vəkil imiş ki, hətta bəzən tərəflərdən biri o birinin vəkilinin Qarabəy olduğunu biləndə təslim olub iclasdan qabaq iddiadan əl çəkirmiş. Həmin vaxt Rusiya imperiyasının Qafqazda canişini vəzifəsini Vorontsov-Daşkov soyadlı bir qoca general daşıyırdı. 1905-1916-cı illərdə Qafqaz canişini olan Vorontsovun müsəlmanlara, türklərə nifrəti vardı, ermənipərəstliyi ilə tanınırdı. Hüdudsuz səlahiyyət yiyəsi olan bu adam - o vaxtın canişini, hesab elə indi bütün Qafqazın prezidenti tiplində vəzifə idi - Bakıda və ətrafında çoxlu neft mədənləri, malikanələr də almışdı. Balaxanıda Yetim Hacı Yusif adlı şəxsin sahəsini isə tam qanunsuz hasarlayıb özününkü eləmişdi.

Yetim Hacı Yusif torpağını geri qalmaq üçün neçə vəkilin yanına gedirsə, hamısı qarşı tərəfin Vorontsov olduğunu eşidəndə qorxudan qaçır. Yalnız Qarabəy müdafiəyə razı olur. Gedir Peterburqdan komissiya gətirir. Onları faytona mindirib sahəyə aparır, yolda isə qarşısına çıxan təsadüfi adamlara həmin sahəni göstərib yiyəsini soruşurmuş. Hamı deyir torpaq Yetim Yusifindir, komissiya da bunu eşidir, Peterburqa qayıdıb qərar çıxarır: ərazi Vorontsovdan alınıb Yetim Yusifə verilməlidir!

Yüz il bundan qabaq Bakıda qanun var imiş. Geri gedirik, deyəsən. Alman hesabı ilə götürsək, lap geri, 1600-cü illərə doğru. Hərçənd kim bilir, onlarda bəlkə 1200-cü illərdə də bizdəki kimi qanunsuzluq olmayıb.




# İrəvanda qiyam yatırıldı, Sərkisyan qurtuldumu?

## Erməni etirazçı prezident sarayı qarşısında özünü yandırdı; silahlı üsyanın ardınca hadisələr daha gərgin müstəviyə adlaya bilər

**İyulun 17-dən etibarən Ermənistan polisinin patrul-mühafizə polkunun Erebuni rayonunda yerləşən binasını zəbt edən silahlı qrup 31 iyul axşam radələrində təslim olmağa qərar verdi və binanı boşaltdı. Terrorçu dəstənin rəhbərlərindən biri Varujan Avetisyan "biz təslim olmaq qərarı verdik" deyib. Ancaq o əlavə edib ki, silahlı dəstə iki həftəlik davranışları ilə Ermənistanda xalq hərəkatına təkan verib.**

Ermənistan Milli Təhlükəsizlik Xidmətinin yaydığı açıqlamaya görə, antiterror əməliyyatı başa çatıb, nəticədə 20 terrorçu saxlanılıb. Patrul-mühafizə alayının binası isə tamamilə təmizlənib. Qeyd edək ki, bundan öncə həbsdə olan müxalifətçi Jirayr Səfilyan iddia edirdi ki, İrəvandakı silahlılarla bağlı məsələnin nizamlanması üçün o polis alayını ələ keçirmiş silahlı qrupla və prezident Serj Sərkisyan ayrı-ayrılıqda görüşlər keçirməlidir. Polis binasını ələ keçirmiş silahlılar məhz Səfilyanın azadlığa buraxılmasını tələb edirdilər, ancaq bu, baş vermədi. Ona görə də proseslərin bundan sonra hansı məcrada davam edəcəyi maraqlıdır. İrəvanın mərkəzində keçirilən izdihamlı aksiyaların davam edib-etməyəcəyi də bəlli deyil. Səfilyan yaranmış vəziyyətin nizamlanmasında orta məxrəcə gəlmək üçün prezidentlə görüşməsinin vacib olduğunu qeyd etmişdi. O, "prezident Serj Sərkisyan mövqeyini dəyişməyib və yalnız bir fikirdə israrlıdır: mənimlə görüşmək üçün əvvəlcə silahlı qrup təslim olmalıdır. Mən əvvəlcə uşaqlarla (silahlı qrupun üzvləri-red.), daha sonra Sərkisyanla görüşməliyəm, bunun nəticəsində onlar silahı yerə qoya bilərlər. Amma mən prezidentlə görüşməyincə polis binasını azad etməyəcəklər" - demişdi. Ancaq görünən budur ki, proseslər fərqli istiqamətdə cərəyan etdi və Səfilyanın da səsi kəsilib. Eyni zamanda Sərkisyanı terrorçu elan edib ondan hakimiyyəti təhvil verməyi tələb edən radikal müxalifətçilərdən də soraq yoxdur. Sanki Ermənistanda qurbağa gölünə daş atılıb. Ancaq bu, tufanqabağı sakitlik də ola bilər. Çünki Sərkisyan oyun oynasa da, nəticədə qanın tökülməsinə, bir neçə nəfərin ölümünə bais oldu. İşğalçı ölkədə proseslərin bundan sonra hansı axarda davam edəcəyi barədə ekspertlərin fikirlərini öyrəndik.

**Politoloq Arzu Nağıyev şübhə etmir ki, Ermənistan paytaxtındakı proseslər müəyyən bir ssenari ilə baş verib:** "Əgər diqqətlə izləsək görərik ki, məhz Qərbin, daha doğrusu, ABŞ-ın Ermənistanda bu mitinqlərlə bağlı insan haqlarının qorunmasının vacibliyini əks etdirən bəyanatından sonra artıq müəyyən sakitlik bərqərar oldu. Yəni bir daha Ermənistan göstərməyə çalışdı ki, guya bu, beynəlxalq səviyyəli siyasi bir prosesdir və reaksiyalar da artıq var. Əvvəlcədən də bunun siyasi bir şou olması məlum idi. Qondarma müxalifət lideri Səfilyana azadlıq tələbi ilə başlanan proseslər Qarabağ münaqişəsinin həllində heç bir güzəştə getməyəcəkləri ilə bağlı siyasi bəyanatlarla sona çatdı. Bu isə Serj Sərkisyanın nəyin bahasına olursa-olsun, hakimiyyətdə qalması və bununla da status-kvonun saxlanması demək idi".

**Politoloqun sözlərinə görə, bu gün Sərkisyanın hakimiyyətdən getməsi Azərbaycan üçün də sərfəli deyil:** "Təsəvvür edin ki, o halda hakimiyyəti ələ keçirəcək qüvvələrlə prosesləri yenidən başlamaq lazım gələcək. Bəlkə də Sərkisyan getməyə razılıq verirdi, lakin Rusiya bunu istəmir. Diqqət etdinizsə, son proseslərdə Rusiya heç bir bəyanatla çıxış etmədi. Hətta generalitet İrəvana gəldi və eyni dəst-xətlə mitinqləri yatırmaq haqda təlimatlar verdi. Əsas məqamlardan biri də ondan ibarətdir ki, Qərb öz kəşfiyyatını həyata keçirdi və güclərin hansı səviyyədə paylandığını aydınlaşdırdı".

**Arzu Nağıyev: "Sərkisyanın hakimiyyətdən getməsi Azərbaycan üçün də sərfəli deyil"**
**Üzeyir Cəfərov: "Bir müddət sonra "qiyamçılar" müxtəlif adlarla həbsdən buraxılacaq"**

**A.Nağıyev Azərbaycanın fürsət düşmüşkən, işğal altındakı torpaqları hərbi yolla azad etmək haqqından istifadə etməli barədə fikirlərə də münasibət bildirdi:** "Bu gün ATƏT-in Minsk Qrupu artıq öz sözünü deməlidir. Çünki Azərbaycan artıq öz şərtlərini irəli sürən və beynəlxalq qanunlara söykənən bir dövlət kimi çıxış edir. Məhz buna görə də danışıqların davam etdirilməsi, Madrid və ya digər prinsiplərlə torpaqların azad edilməsi üstün variant kimi götürülməlidir. Eyni zamanda regiondakı digər oyunçular arasında, daha doğrusu, Rusiya və Türkiyə gərginliyinin zəifləməsi də mühüm hadisədir və bundan Azərbaycan yararlana bilər. Bir sözlə, bu gün Azərbaycanın şansı hərtərəfli çoxdur və zənnimcə, bundan da məharətlə istifadə edilə bilər".

**Hərbi ekspert, ehtiyatda olan polkovnik-leytenant Üzeyir Cəfərov isə "Yeni Müsavat"a dedi ki, baş verənlər erməni siyasi və hərbi rəhbərliyi ilə razılaşdırılmış hərəkətlər idi:** "Sonda da guya təslim oldular. Halbuki onlara qarşı heç bir ciddi tədbir görülmədi. Bundan sonra da heç bir ciddi cəza olası deyil. Görün iş nə yerdədir ki, Səfilyan deyir mən tərəfdarlarıma prezidentlə görüşənə qədər alayı tərk etməməklə bağlı göstəriş vermişəm. Təsəvvür edin ki, həbsdə olan adam prezidentlə görüş tələb edir. Bu, Sərkisyanın növbəti hiylələrindən biri idi. İstəyir ki, bu yolla həm Qarabağ danışıqlarında vaxt udsun, həm də beynəlxalq təşkilatlara təzyiq göstərsin".

**Hərbi ekspertin sözlərinə görə, əslində Qarabağ məsələsinin həlli İrəvanın iradəsindən kənarda olan məsələdir:** "Bu məsələdə həlledici söz sahibi olan Rusiya isə problemin həllində maraqlı görünmür. Bir müddət sonra "qiyamçılar" da müxtəlif adlarla həbsdən buraxılacaq, onların "köhnə xidmətləri" nəzərə alınacaq. Əslində Ermənistanın müstəqil dövlət olmadığı bir daha sübut olundu. Karapetyan soyadlı keçmiş döyüşçülərdən biri deyirdi ki, Ermənistanda dövlət çevrilişi edəcək. O, faktiki olaraq konstitusiya quruluşuna qarşı qiyama çağırdı. Ancaq belələrinə qarşı çox sakit reaksiyaları müşahidə etdik. Ona görə də əminliklə demək olar ki, bu qüvvələr Ermənistan daxilində planauyğun şəkildə hərəkət etdilər".

**Azərbaycanın qəfil hərbi əməliyyatlara başlaması haqda təkliflərə gəldikdə, Ü.Cəfərov qeyd etdi ki, Azərbaycan Ermənistandan fərqli olaraq heç vaxt kəmfürsət olmayıb:** "Əslində Azərbaycanın dəfələrlə imkanı olub ki, Ermənistanın daxilindəki qarışıqlıqdan istifadə etsin. Amma bu kimi addımlara getməyib. Bu kimi hərəkətlərə dünya da pis baxardı. Onsuz da haqlı olduğumuz halda bizi haqsız çıxarırlar. Şəxsən mən bunu ölkəmizə əsla rəva bilməzdim. Amma Azərbaycanın istənilən vaxt torpaqlarını azad etmək haqqı var, bu haqqı ondan kimsə ala bilməz".

Yazı çapa hazırlanarkən İrəvandan gələn xəbərlər hadisələrin tezliklə səngiməyəcəyini deməyə əsas verir. Belə ki, Ermənistanda bir etirazçı özünü prezident sarayının qarşısında yandırıb. Ölkə.az «İnterfaks» agentliyinə istinadən xəbər verir ki, İrəvanda polis alayının binasını ələ keçirmiş silahlı qrupa dəstək aksiyasının iştirakçılardan biri özünü Prezident Administrasiyasının qarşısında yandırıb. Ətrafdakılar alovu söndürə biliblər, intihara cəhd edən şəxs ağır yanıq xəsarətləri alıb.

Qeyd edək ki, polis bölməsini zəbt etmiş silahlılar təslim olsalar da, onları dəstəkləyən etirazçılar Prezident Administrasiyasının qarşısında toplaşmağa qərar veriblər. Sərkisyan odla oynadı və artıq onun sarayının qarşısında insanlar özlərinə od vurur. Bir gün bu odun erməni prezidentini yandırıb-yaxacağı da şübhə doğurmur.

❑ Cavid TURAN

**Əvəz Zeynallının “Qaynar Qazan”ına danışdıqlarınızı oxudum. Orada mənim də adımı xeyli zikr etmisiniz. Ona görə də cavab verməyə məcbur oldum.**
**İlk baxışdan görünür ki, həddindən artıq canfəşanlıq etmisiniz. Guya Xədicə, ya da Əvəz Zeynallı bilmirlər ki, “Yeni Müsavat”ın Müsavat Partiyasına heç bir dəxli yoxdur? Bunu illər öncədən yaxşı bilirlər. Sadəcə, sizinlə məzələnirlər, xarakterinizi bildikləri üçün belə bir iddia irəli sürüb, sizi heç bir əsas olmadan mənim üstümə yönləndirirlər. Onları və bu qəbildən olan “əbədi xeyirxahlarımı” mənimlə heç bir əlaqənizin olmadığına inandırmanız üçün müsahibənizdə bircə mənim var-yoxuma söyməyiniz qalıb, sağ olun ki, onu da etməmisiniz.**

**Rauf ARİFOĞLU**



# Arif Hacılıya cavab: “Mən sizinlə bağlı gözləntilərimə təslim olmuşam”

Hörmətli Arif Hacılı.

Qıraqdan baxan birisi deyər ki, Arif Hacılı kimi təcrübəli siyasətçini bu cür yerindən oynada, çoxlu izahat verdirə, qat-qarışıq arqumentlərlə çaşdıra biliblərsə, ya bu adamlar çox ciddi siyasi texnoloqlardır, ya da Arif Hacılı yaşlanıb, sayıqlığını itirib.

**Sizdən sitat:** “Mən lap 2008-ci ilə gedirəm. 2008-ci ildə İctimai Palatanın rəhbərliyi, Koordinasiya Şurası seçilərkən orada ciddi prosedur pozuntularına yol verildi - Seçki Komissiyası yaradılmadı, səslər sayılmadı, namizədlər özlərini təqdim etmədi, səhv etmirəmsə, heç səsvermə də keçirilmədən bir çox adamlar Koordinasiya Şurasının üzvü elan olundu və o cümlədən Rauf Arifoğlu Koordinasiya Şurasının üzvü elan olundu. Bu, 2008-ci il fevralın 27-də oldu...”

Oldumu bu? İctimai Palata 2010-cu ilin sonlarında yaranıb, 2008-də mən oraya necə seçilə bilərəm ki? Sizi Əvəz necə təntidibsə, ili-ayı belə səhv salmısınız...

Daha sonra davam edərək, iddia edirsiniz ki, 2008-ci ildən bu yana bizim qəzet kursunu dəyişib və o zamandan bizimlə heç bir əlaqəniz yoxdur...

**Sizdən sitat:** “2008-ci ildən bu üzə mən "Yeni Müsavat" qəzetinin kursunu Müsavat Partiyasının kursuna uyğun gəlməyən siyasi kurs hesab edirəm və bunu açıq şəkildə dəfələrlə bəyan etmişəm".

Bu da yalan. Heç bir bəyanat yoxdur. Amma bunun əksi olanlar var.

Arif Hacılı, unudursuz ki, 2010-da mən Müsavatın siyahısından deputatlığa namizəd idim, sizinlə bərabər eyni kampaniyanı aparırdıq və mən də tam təmənnasız sizin seçki kampaniyanızı “kursu sizə uyğun gəlməyən” “Yeni Müsavat” qəzetində işıqlandırırdım.

2013-cü ildə də sizin dəstəklədiyiniz namizədi dəstəkləyirdim, sizinlə bərabər, onun rəsmi vəkili idim; saytda canlı yayım, qəzetdə məqalələr, reportajlar verirdim... Hər iki seçkidə Müsavatın, müxalifətin əsas ruporu kimi çıxış edirdik. Və sizə də hər gün meydan, dəstək, yer və s. verirdim.

Sizin dəftəriniz ancaq “Qara dəftər”mi, Arif Hacılı? Bunları yazmamışsınızmı? Sizdə heç insaf və ədalət qrafası yoxmu? Yaddaşınız bu qədərmi qısalıb? 2015-ci ilə qədər bərabər olduğumuzu, mən partiyadan gedəndən sonra da isti münasibətlərimizin qaldığını, 2015 seçkilərində mənim arzuladığım dairədən Müsavatın namizəd irəli sürməyəcəyini şəxsən söyləməyinizi, yazmağınızı nə tez unutdunuz? Sizin “Qara dəftər”inizdən başqa dəftərlər də var, Arif Hacılı. Markın dəftərləri. Feys yazışmalarımız, sənin xahişlərin, mənim “ok”-eyləmim... “2008-dən bu yana münasibətlərimiz yoxdu”nu necə deyə bilərsiniz axı? Bir kitablıq yazışmalarımız var və onlar sizi amansızcasına yalanlayır. Tam əksinə, bizim sizinlə ən yaxın münasibətlərimiz məhz həmin periodlardan - 2010 - 2015 arası - start götürdü. Yaddaşınızı təzələmək üçün həmin yazışmalarımızın yalnız bir qismini özünüzə yollayıram. Görün, orada özünüzü Əvəz Zeynallının və Xədicənin “Qaynar qazan”ından qorumaq üçün söylədiyiniz yalanlara bircə dəstək cümləsi varmı?

Orası doğrudur ki, 2011-ci ildə, İP KŞ-yə seçkilər keçiriləndə siz 3 qardaş olaraq mənim seçilməmə etiraz etdiniz, əlinizdən gələni yapdınız, haqqımda təhqiramiz ifadələr işlətdiniz; Xalid adlı kərimovçuya qoşulub, komediya oynadınız. O zaman mən səsimi də çıxartmadım. Şahmat oyunu gedirdi - belə gedişləri sevirəm... Və mənim “vəzirim” Əli Kərimli sizi oradaca məğlub etdi, bütün səsləri kəsdi; mənim seçilməmə nail oldu. Onun öz hesablamaları vardı, sizin də hesablamalarınız ortadaydı. O düşünürdü ki, bundan belə mən Müsavat Partiyasına qarşı olacam, müsavatçılar mənim İP KŞ-də iştirakıma qarşı olduqları üçün; Hacılı qardaşları da əleyhimə danışmışkən... Ağlınca hesablayırdı ki, bundan belə Əli Kərimlinin xidmətində olaram, nə desə əl qaldıraram. Sizin hesablamalarınız da belə idi. Mənim qismimdə Əli Kərimlinin güclü bir dəstəyini vurursunuz; həm də, hər zamankı Rauf Arifoğlu həzmetməməkliyiniz baş qaldırmışdı...

Bu dəfə də yanıldın. Sizin əbədi həsədiniz olan Əli Kərimli də yanıldı. Mən elə ilk iclasdaca Müsavat başqanı İsa Qəmbərin təklənməsinə imkan vermədim, birmənalı olaraq, təşkilatımın və siyasi rəhbərimin yanında oldum. Hörmətsizlik edən iki nəfər vardı; susdurdum, mövqe ortaya qoydum. Əli şokda idi... Siz partiya rəhbərliyi olaraq bunu sonradan, Divanda bildiniz, mənə özünüz də şəxsən etiraf etdiniz; aramız yumşaldı, sonra düzəldi, sonra yaxınlaşdıq. Görüşəndə, öpüşməyə qədər - daha doğrusu, mənim siyasi mühitə Türkiyədən gətirdiyim tokalaşma var ya, Qurdlar kimi başları sürtmə - inkişaf etmişdi, münasibətlərimiz.

Sonra sizi həbs etdilər... Biz bərabər zindan yatmışıq, aylarla eyni otağı, çörəyi, suyu paylaşmışıq. Yadınızdamı, o zaman biz hamıdan, o cümlədən də başqanımızdan narazı idik; hamının arxasınca danışır, gileylənir, bəzən də söyürdük. O zaman bir arzumuz vardı; heç olmasa birimiz bayırda olaydıq, çətinlik çəkən ailələrimizə, içəridəki qardaşlarımıza dəstəyi özümüz təşkil edərdik.

**Bu dəfə siz - Arif Hacılı içəridə, biz bayırdaydıq. İçəridə olduğunuz periodda sizə qardaş olmağa, yükünüzü paylaşmağa çalışdıq. İqbal, Pənah, mən... Arif, siz bu qədər insafsız və vicdansız deyildiniz. Siz bunlarıdamı unutdunuz? Çətin gündə, dar ayaqda sizə, ailənizə arxa olanları bir qələmdə necə silib atarsınız, necə həmin illəri “...2008-dən sonra” deyib, ixtisar edərsiniz? Necə deyərsiniz ki, 2008-ci ildən mən o qəzetə dair sözümü demişəm, əlaqələri kəsmişəm???? O zaman 2011-15-ci illərdəki Arif Hacılı hardadır, kimdir? İndiki Arifmi, o zamankı Arifmi... Hansınız gerçəksiniz?**

**Siyasət insanlığın, kişiliyin, mərdliyin üstündə bir şeymi, ondan vacibmi? Kiminsə siyasi mövqeyi hansısa periodda sizə uyğun gəlməyəndə, yaşanmışları silib atırsınızmı? Bəs vəfa borcu?**

Siz cəza evində olanda hər işinizə qoşduq. Dünyasını dəyişənlərinizin cənazəsinə girdik, sizin olmadığınız anlarda sizi əvəz etməyə çalışdıq. Bunları minnət üçün demirəm, xatırlatma üçün də söyləmirəm, hər kəsin yaddaşında. Bunları bir siyasi liderin sifətlərini göstərmək üçün yazıram, tarix üçün yazıram. Ətrafınızın getdikcə niyə boşalmasını, insanların sizlərdən niyə üz çevirməsini anlatmaq üçün yazıram. Vəfasızsınız! Etibarsızsınız!

**Bir ştrix! Arif Hacılı portretinin kölgəsindəki gerçək simasını göstərəcək bir detal... Yadınızda, il 2015 idi, partiyaya son gəlişimdi, sizinlə danışırdıq. Siz Tofiq Yaqubludan qəzəbli idiniz; həm içəridən verdiyi açıqlamalarından, həm də “Azadlıq” qəzetinə maliyyə dəstəyi verməsindən. Mənə dediniz ki, kəs onun pulunu, aylığını vermə... Sən ona dəstək verirsən, o da sənin pulunu aparıb “Azadlıq” qəzetinə verir...**

**İnkarmı edəcəksiniz? Edəməzsiniz!**

Bəli, bunu o dedi! Zindandakı Tofiq Yaqublunun başqanı olan Arif Hacılı. “Əlaqəmiz olmayan” 2015-ci ildə...

Əvəzin “Qaynar qazan”ında bişən Arif məhz bu rakursdan özünə baxırmı heç? Baxsa, bu Arif o Arifə desin ki, “Yeni Müsavat” və Rauf Arifoğlu sənə etmədiyi yaxşılıqlar qalmayıb, tək onların biri qarşıdakına bir ömür borclu olmağa yetər. İnsanlıq deyilən bir şey var; siyasəti də insanlar və insanlıq üçün yapırlar...

Vəfa borcu var ya, sənin qrafanda olmayan, sənin tanımadığın hiss. Onunla bağlı bir məsələni də deyim.

Dünyasını dəyişən bütün yaxınlarının cənazəsinə yüzlərlə kilometr yol qət edib, getmişəm. Halalları olsun, Allah o dünyalarını versin. Amma sən 100 metr məsafəni addımlayıb, rəhmətlik dayımın taziyəsinə belə gəlmədin. Qərargahın düz böyründə, fiziki mənada 100 metrlik məsafədə idi. Üstəlik, o adam da sıradan biri deyildi, ölkənin görkəmli alimi, akademiyanın müxbir üzvü, professor, ən əsası da bütün seçkilərdə, Müsavat Partiyasının xeyrinə səs vermiş, onun təəssübkeşi olan bir ziyalı idi. Mərhumun bütün ailəsi isə mənim özüm xaric, Müsavat partiyasının üzvüdür... Etmədiniz, edəmədiniz. Siz beləsiniz, kinli, nifrinli, “Qara dəftər” sahibi...

Arif Hacılı, yenə köhnə nəğmələrinizə qayıtmısınız. İddia edirsiniz ki, “Yeni Müsavat, minval.az, musavat.com saytlarının qurulmasında, böyüməsində müsavatçıların böyük əməyi olub. Qismən doğrudur - "Yeni Müsavat" hissəsi. Oxucu qismində, tərəfdar qismində dəstək olublar. Lakin sizin indi başqanı olduğunuz partiyanın qurulmasında, böyüməsində və inkişaf etməsində mənim və “Yeni Müsavat”ın, yeni müsavatçıların rolu, xidməti daha böyük olar, sanıram. Üstəlik, biz bu gün də 10-dan yuxarı Müsavat Partiyası üzvünü iş və yüksək maaşla təmin etməkdəyik. Və bu proses 25 ildir ki, davam edir.

Mənim gənc yaşlarımda iki böyük layihəm olub. “Yeni Müsavat” qəzeti və Müsavat Partiyası. 1989-dan-1991-ci ilə qədər “Yeni Müsavat” adlı partiyanın rəhbərliyində olmuşam. 1991-ci ildə məhz mənim təşəbbüsüm və Nəsib Nəsiblinin dəstəyi ilə Müsavat Partiyası layihəsinə İsa Qəmbəri dəvət etdik. AXC rəhbərliyindən 5, AMDP “Yeni Müsavat”dan 5 nəfər olmaqla, komissiya yaratdıq, Elçibəyin və Ankaradakı Azərbaycan Milli Mərkəzinin (Kültür dərnəyinin) dəstəyi ilə Bərpa Bürosunun siyahısını hazırladıq. Sizin və başqalarının bu təşkilata namizədlikləri mənim də bərabərsəviyyəli üzvü olduğum həmin komissiyada müzakirə olunur və təsdiqlənirdi...

Sonra biz iqtidar olduq, siz və başqaları hakimiyyətə gəldiniz, mən qəzetdə qaldım. Sonra bizi devirdilər, siz və başqaları qaçdınız, gizləndiniz *(Səhv etmirəmsə, siz Azərbaycanı və həbsdəki başqanı buraxıb, Leninqrada qaçmışdınız)*, İsa Qəmbər zindanda, biz meydanda və qəzetdə qaldıq. Siz mənə deyirsiniz ya, İlham Əliyevə təslim oldun, amma siz hələ 23 il əvvəl Surət Hüseynov Bakıya gəlmədən, ona təslim olmuşdunuz. Xalqın və prezidentin sizə verdiyi mövqeyi buraxaraq, qaçmışdınız!

Meydan boş idi, amma biz dirəndik, təşkilatı toparladıq, böyütdük; ara sakitləşən kimi siz də döndünüz, istedadlı təşkilatçı kimi, sizi qabağa çəkdik. Və böyük bir mücadiləyə partiyamızı hazırladıq...

Biz bir də həbsxanada görüşdük. Aclıq aksiyası başladacaqdıq *(sizin təşəbbüsünüz deyildi)*, bizi təkadamlıqdan alıb birləşdirdilər. Səsiniz qısılmışdı, pıçıltı ilə danışırdınız. Pənahdan sordum ki, bu niyə pıçıldayır, hanı bunun səsi... Dedi, qoy iki-üç gün keçsin...

İndi deyirsiniz ki, İlham Əliyevə təslim oldum. Hər müsahibənizdə mütləq mənimlə bağlı qəşəng suallar verən Əvəz Zeynallı deyir ki, bu söz çox ağır oldu...

Lakin siz yenə də təkrar edirsiniz. Tərcümeyi-halında bir neçə dəfə biabırçı təslimiyyət yaşamış *(“Darıxıram” mərhələsi ilə mən də razı deyiləm)* Arif Hacılı məni də özünə oxşatmaq istəmiş....

Arif, mən sizə daim yaxşılıq, İlham Əliyevə daim pislik etmişəm. Sizdən ancaq pozitiv şeylər yazmış, tribuna, maddi dəstək vermiş, İlham Əliyev və iqtidarına isə daim tənqid, olar-olmaz şeylər yazmışam. Onun hakimiyyətdən getməsi üçün ciddi fəaliyyətlər göstərmişəm.

Lakin bunca xidmətlərin müqabilində xoşunuza gəlməyən bir yazı, qardaşımın, yaxud da qəzet əməkdaşlarının bir statusu, laykı ilə mənə düşmən kəsilmisiniz. İlham Əliyevsə mənimlə işləməyi, ona etdiklərimi unutmağı seçdi. İsa Qəmbər demişkən, barışdı mənimlə. İndi ağıllı müşahidəçilər yaxşı görür, kimin böyük olduğunu, kimin əsil dövlət adamı olduğunu, kimin böyük siyasətçi olduğunu. Siz İlham Əliyev yox, heç Əli Kərimli qədər də siyasətçi olammamısınız! Sizi bir jurnalist salır “Qaynar”a və həm bişirir, həm bitirir...

**Mən əslində sizlərlə bağlı bütün gözləntilərimə təslim olmuşam. Bunca qara niyyətli, kinli, nifrin dolu, həsədçi, becəriksiz, heç bir perspektivi qalmayan, mənim ikinci böyük layihəmi batıran, darmadağın edən adamlarla daha bir yerdə olmaq istəməmişəm. Minlərlə müsavatçının haqqını yeyən, onları aldadan, onlara böhtan atan, canını qoyduğu partiyasından onları qovan, şərləyən, onların sayəsində “lider” olub, özünü siyasətçi sayan uğursuz macərapərəstlərdən digər layihəmi - “Yeni Müsavat”ı ayırmışam. Ki, onu da batırmayasınız. Çünki sizdən heç nə olası deyil! İmkanım olsaydı, daşımağa gücüm yetsəydi, Müsavat Partiyasını da əlinizdən geri alıb, yenidən toparlardım. Təəssüf ki, buna nə həvəsim, nə də fiziki imkanlarım yoxdur.**

**P.S.** *Bu yazının birinci şəxsin təkindəki xitabla daha sərt variantını Arif Hacılının özünə yolladım. Ümid edirəm ki, fərqi müqayisə edib, bütün yapdıqlarına rəğmən, ona necə dözümlü davrandığımı idrak edəcəkdir.*

YENİ MÜSAVAT
N 167 (6488) 2 avqust 2016



# "Türkiyə rəhbərliyi ABŞ-la bağlı böyük riskə getməməlidir"

## Ekspertlərə görə, Ankara Amerikaya münasibətdə ölçülü-biçili siyasət yürütməlidir...

**Dünən Türkiyədə NATO-nun istifadəsində olan "İncirlik" hərbi-hava bazası ölkənin güc strukturlarının əməkdaşları tərəfindən mühasirəyə alınıb. Hərbi obyektin giriş-çıxışı yerli vaxtla 23.00-da bloklanıb və aviabaza güc strukturlarının 7 minədək əməkdaşı tərəfindən mühasirəyə alınıb. Bazanın bütün giriş və çıxışları nəzarətə götürülüb.**

Türkiyənin Avropa məsələləri üzrə naziri Ömər Çelik twitter səhifəsində bildirib ki, aviabazada təhlükəsizlik sistemlərinin yoxlanışı həyata keçirilib: "Biz təhlükəsizlik sistemlərinin ümumi yoxlanışını həyata keçirdik. Heç bir problem müəyyən edilməyib".

"Haber Turk" aviabazanın bloklanmasını ABŞ Silahlı Qüvvələrinin Qərargah Rəisləri Komitəsinin rəhbəri Cozef Danfordun Türkiyəyə səfəri ilə əlaqələndirib.

ABŞ-ın İncirlikdəki hərbi aviabazası ilə bağlı belə bir addımın atılmasının Türkiyə-ABŞ münasibətlərində son günlər yaşanan soyuqluğu bir qədər də artıracağı iddia edilir. Bu hadisənin münasibətlərin qırılmasına qədər gediləcəyi ehtimalını yaradıb-yaratmadığı sualı ortaya çıxır. Münasibətlər qırıla bilərmi? Bundan daha çox itirən hansı tərəf olar?

Politoloq Qabil Hüseynli hesab edir ki, Türkiyənin İncirlik bazası ilə bağlı atdığı addım riskli addımdır. Bu hərbi aviabazanın təhlükəsizliyinə ABŞ-ın özü birbaşa cavabdehdir. Bu baza təkcə qurudan deyil, həm də kosmosdan çox ciddi surətdə qorunur. 7 min polisin oraya cəlb edilib təhlükəsizlik tədbirləri adı altında aviabazanın mühasirəyə alınması o qədər də diplomatik və ağıllı addım deyil: "Türkiyənin siyasi rəhbərliyi ABŞ-la bağlı çox böyük risklərə gedir. ABŞ-la münasibətlərin qırılması daha çox Türkiyənin zərərinə ola bilər. Belə görünür, rəsmi Ankara Fətullah Gülənin təhvil verilməsi üçün ABŞ-la münasibətlərin gərginləşməsinə belə getməyi göz altına alıb. Bir tərəfdən də Türkiyədə edam cəzasını bərpa etməyə çalışırlar. Unutmaq lazım deyil ki, ölüm cəzası mövcud olan ölkələrə demokratik ölkələr heç kimi, hətta qatili belə, ekstradisiya etmir. Belə çıxır ki, gərginlik davam edəcək. İki ölkə arasında gərginliyin Türkiyə daxilindən və xaricdən müəyyən qüvvələr tərəfindən körüklənməsi müşahidə edilir. Bu, durum Türkiyə dövlətinin gələcəyi üçün həyəcanlanmağa əsaslar yaradır. Təsəvvür edin ki, elə bir durum yaranıb Britaniya guya öz vətəndaşlarının təhlükəsizliyini təmin etmək üçün Türkiyədə hərbi əməliyyat hazırlanmasından danışmağa başlayıb. ABŞ-la konfliktin dərinləşməsinin çox fəsadları ola bilər. Qərb İran kimi ikinci teokratik bir dövlətin yaranmasından əndişələnir - baxmayaraq ki, buna yetərli əsas yoxdur. Lakin Qərbə bəhanə də vermək olmaz. ABŞ-la münasibətlərdə gərginlik qalxdıqca başqa NATO ölkələri ilə də Türkiyə arasında soyuq küləklər əsməkdədir. Belə bir vəziyyətdə Ankara ölçülü-biçili siyasət yürütməlidir, təhdidedici bəyanatlar verməməlidir.

**"Sivilizasiyalar və konfliktlər" analitik Mərkəzinin rəhbəri Əhəd Məmmədli bildirdi ki, Vaşinqtonla Ankara arasında münasibətlərdə soyuqluq əvvəldən müşahidə edilirdi və baş tutmamış qiyam cəhdindən sonra münasibətlər daha da gərginləşib:** "İncirlik aviabazasının hansı səbəbdən olsa belə, mühasirəyə alınması Türkiyənin Amerikaya qarşı atdığı bir deməşdir. Yəni Türkiyə bildirir ki, qiyamın arxasında kim(lər)in durduğunu bilir və ABŞ-la baş-başa gəlməyin perspektivi yoxdur. Amerika vaxtilə Türkiyəni Stalinin təcavüzündən qorumuş bir ölkədir. Bu gün də ABŞ-ın Türkiyə ilə strateji müttəfiqlik əlaqələri qalır. Kimlərsə bu əlaqələri pozmaq və Türkiyənin NATO-dan uzaqlaşdırılmasına və Türkiyənin müdafiəsiz qalmasına, Türkiyənin Rusiyanın və Çinin nəzarəti altına düşməsinə nail olmaq istəyir. Ankara fərqində olmalıdır ki, Rusiyanın özü bu gün ABŞ-la imdaddiləyici vəziyyətdədir".

Gülən verilməyənə qədər bu məsələnin sonuna qədər gedib çıxa bilər. Gülənin verilməsi isə hələlik inandırıcı görünmür. Ən uzağı, ABŞ-dan Kanadaya ekstradisiya edilə bilər. Bu da çözüm kimi Türkiyə tərəfindən baxıla bilməz. Üstəgəl, PYD və PKK-ya Suriya və İraqda ABŞ-ın dəstəyini də Türkiyə amerikalılara xatırladır. Bununla belə, düşünmürəm ki, münasibətlər qırılacaq. Çünki regionda Türkiyə Amerikaya, dünyada da Amerika Türkiyəyə lazımdır. NATO-suz Türkiyə dünya və region gücləri tərəfindən daha böyük basqıya məruz qalacaq. İranın Qərblə barışdığı bir dövrdə Türkiyənin Qərblə dalaşması qardaş ölkənin maraqlarına cavab vermir. Onu da deyim ki, Türkiyə-Rusiya münasibətləri düzələ bilər, iqtisadi baxımdan yaxşılaşa bilər, amma siyasi baxımdan müttəfiqlik inandırıcı deyil. Çünki istər Krım, istər Qafqaz, istərsə də Suriya problemlərinə baxışlar bu iki ölkə arasında diametral fərqlənir".

❑ **Etibar SEYİDAĞA**

# Manat üçün şad xəbər

## FED uçot dərəcəsini artırmaqda maraqlı deyil

**Məlum olduğu kimi, ABŞ-ın Federal Ehtiyat Bankı son iclasında da uçot dərəcələrinin artırılmamasına qərar verdi və bununla da Azərbaycan manatı da daxil olmaqla, əksər neft ölkələri müvəqqəti də olsa azad nəfəs almış oldu. Lakin görünür, FED, ümumiyyətlə, bu il faizləri artırmaq fikrində deyil.**

Çünki ötən gün Nyu-York ştatının Federal Ehtiyat Bankının rəhbəri Uilyam Dadli Federal Ehtiyatlar Sistemini bu ilin sonunadək uçot dərəcəsini artırmamağa çağırıb. U. Dadli bu addımın çox ciddi fəsadlarının olacağına işarə edib: "FED uçot dərəcəsinin artırılmasına olduqca ehtiyatlı yanaşmalıdır. Hələlik pul-kredit siyasətinin tam sərtləşdirilməsindən imtina etmək olduqca tezdir. Lakin bu addımın neqativ təsirləri müsbət təsirlərdən çox olacaq".

**U. Dadli uçot dərəcəsinin artırılmasına mane olan bir sıra amillərin olduğunu bildirib:** "Söhbət həmçinin xarici bazarlarda baş verənlərdən gedir ki, bunun ABŞ iqtisadiyyatına da təsiri var".

Qeyd edək ki, U. Dadli toplantılarda səsvermə hüququna malikdir, FED rəhbəri Canet Yellenlə çox yaxın münasibətlərdədir və tənzimləyici tərəfindən verilən qərarlara təsir edə biləcək şəxslərdəndir.



Onun bu cür çıxış etməsi ekspertlər tərəfindən bu il FED-in uçot dərəcələrini artırmaq istəməməsi kimi qiymətləndirilir. Çünki dolların dünya valyuta bazarında həddindən artıq möhkəmlənməsi ABŞ-ın ixrac potensialının azalmasına səbəb olacaq ki, bu da hegemon ölkənin iqtisadiyyatına zərər vura bilər. FED adətən qərar qəbul edərkən, Birləşmiş Ştatların iqtisadi göstəricilərini və dünya bazarındakı vəziyyəti nəzərə alır.

Bəs görəsən, FED rəhbərinin bu çağırışı hansı zərurətdən doğur? Bu il uçot dərəcələri artırılmazsa, bu, manata olan təzyiqləri azalda bilərmi?

**"Yeni Müsavat"a açıqlamasında bu sualları cavablandıran iqtisadçı ekspert Vüqar Bayramov bildirdi ki, FED rəhbərinin ilin sonuna qədər uçot dərəcələrini artırmamaqla bağlı bu çağırışı dünya bazarında dolların kəskin möhkəmlənməsinə ehtiyatlanması ilə bağlıdır:** "ABŞ-ın makroiqtisadi göstəricilərinin proqnozlaşdırılan həddə olmadığını nəzərə alsaq, bunun da Federal Rezerv Bankının qərarlarına təsir göstərəcəyi şübhəsizdir. FED ABŞ-ın iqtisadi durumunu nəzərə alaraq qərar qəbul edir. Bu baxımdan, uçot dərəcələrinin artırılmaması birbaşa ABŞ-da mövcud iqtisadi vəziyyətdən doğur".

**V. Bayramovun sözlərinə görə, indiki halda dolların möhkəmlənməsi heç də ABŞ üçün arzuolunan deyil:** "Uçot dərəcələrinin artırılması ilə bağlı qərar qəbul edilsəydi, bu, nəticə etibarilə dolların möhkəmlənməsinə gətirib çıxara bilərdi. Bu da Birləşmiş Ştatların ixrac qabiliyyətinin aşağı düşməsinə, işsizlik probleminin və idxaldan asılılığın artmasına səbəb ola bilərdi. FED də məhz bu aspektdən dolların uçot dərəcəsinin dəyişdirilməməsinin tərəfdarıdır. Qlobal bazarda dolların kəskin bahalaşması gözlənilmir. Məzənnədə müəyyən azalmaların olacağı güman edilir. Qlobal maliyyə bazarında dollar avroya nisbətən məzənnə itirə bilər. Lakin dolların kəskin ucuzlaşması heç bir halda gündəmdə deyil".

**Ekspert onu da qeyd etdi ki, Azərbaycan üçün FED tərəfindən uçot dərəcəsinin artırılması arzuolunan deyil:** "Çünki uçot dərəcələri artırılsa, bu, manata təzyiqləri artıracaqdı. Təkcə Azərbaycanda deyil, bütün neft ölkələrində dolların möhkəmlənməsi fonunda milli valyutalara təzyiq artacaqdı. Bu baxımdan, neftin dünya bazarındakı qiymətində ucuzlaşma müşahidə oluna bilərdi. FED-in qərarı Azərbaycanın milli valyutasına və neftin qiymətinə təzyiqləri artırır.

Hazırda ölkəmizdə dollara tələb yüksək olaraq qalır. Bu da Azərbaycanın valyuta bazarında dollar məzənnəsinin möhkəmlənməsinin davam edəcəyini proqnozlaşdırmağa əsas verir. Amma bütün hallarda FED-in uçot dərəcəsini artırmaması manata daha güclü təzyiqi azaldır, neftin qiymətində baş verəcək azalmaların qarşısını almış olur. Yəni bu qərar manata müsbət təsir edə bilər, lakin bütün hallarda dollara olan tələbatı azaltmayacaq".

❑ **Nərgiz LİFTİYEVA**



# Suriyada Rusiya helikopteri vuruldu; 5 nəfər həlak oldu

**Rusiyanın Suriyada vurulmuş "Mi-8" helikopterinin göyərtəsində olan 5 nəfərin hamısı həlak olub.**

"Report" xəbər verir ki, bu barədə Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov məlumat verib.

"Helikopter humanitar missiya həyata keçirirdi. Müdafiə Nazirliyindən aldığımız xəbərə görə, göyərtədə olanların hamısı həlak olub", - deyə D.Peskov bildirib.

O, İŞİD-in təhdidlərinə baxmayaraq, Rusiyanın terrorizmə qarşı mübarizəni davam etdirəcəyini də əlavə edib.

YENİ MÜSAVAT
N 167 (6488) 2 avqust 2016

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Sərkisyanın "Pirr qələbəsi", prezidentlərin dəyişməyən görüş yeri - Peterburq

## Azərbaycan və Ermənistan prezidentlərinin ardınca bu dəfə Türkiyə və Rusiya liderləri Neva sahillərində bir araya gələcək; İrəvandakı son qanlı olaylar "hərb, yoxsa sülh" dilemmasına təsir edəcəkmi?..

**Ermənistanda hakimiyyətlə radikal müxalifət qüvvələri arasında iki həftə sürən silahlı qarşıdurma Sərkisyan rejiminin nisbi qələbəsi ilə yekunlaşdı. Ona görə "nisbi" ki, silahlılar təslim olsa da, bu hadisələrə gətirən siyasi motivlər, radikal qüvvələrə ictimai dəstək yerində qalır. Deməli, bənzər hadisələr istənilən an təkrarlana bilər. Ayrı sözlə, buna hakimiyyətin "Pirr qələbəsi" də demək olar.**

Nəzərə alsaq ki, Dağlıq Qarabağa dair sülh danışıqları 4 günlük aprel müharibəsindən sonra həssas bir mərhələyə daxil olub və tezliklə danışıqlar prosesində konkretlik gəlməlidir, konkretlik də rəsmi İrəvanın ərazi məsələsində nəhayət, pozitiv yanaşmasını tələb edir, o zaman bu ehtimal daha da güclənmiş sayıla bilər. Hər halda, polis binasını zəbt edənlərin, radikalların həbsdəki lideri Jirayr Səfilyanın tələblərindən biri hakimiyyətin Qarabağa dair heç bir güzəştə getməməsi ilə bağlı idi.

Silahlılar təslim olsa da, bu tələb aktuallığını itirməyib. Çünki erməni toplumunun da böyük hissəsi radikal müxalifətin bu mövqeyini müdafiə edir. Şübhə yox ki, Sərkisyan rejimi cəmiyyətdəki bu ovqatı bilir. Bəzi təhlilçilərə görə, İrəvanda iki həftəlik qarşıdurma bu mənada hakim qüvvətə lazım ola bilərdi. Yeni Sərkisyan iqtidarı bununla vasitəçi dövlətlərə göstərmək istəyirdi ki, o, Qarabağ məsələsində güzəştə getmək istəsə də, cəmiyyət bunun əleyhinədir, bu üzdən ona xaricdən təzyiqlər edilməsin.

***

Beləcə, işğalçı ölkədə nisbi sakitlik bərpa olsa da, qarışıqlıq ehtimalı aradan qalxmayıb. Bunu prosesləri diqqətlə izləyən Qərb diplomatları və institutları da qeyd eləməyə başlayıb. Məsələn, ABŞ-ın Ermənistandakı səfirliyi polis binasının azad edilməsi əməliyyatından sonra İrəvanı nə qədər ki, daha çox sayda adam yaralanmayıb və ölməyib, daxili siyasi böhranı dinc yolla həll eləməyə çağırıb. Bu barədə səfirliyin twitter səhifəsində yerləşdirilmiş məlumatda deyilir.

Öz növbəsində **Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) prezidenti Pedro Aqramunt** özünün twitter səhifəsində İrəvandakı olaylarla bağlı dərin təəssüfünü bildirərək yazıb: **"Ölkədəki böhranı dialoq yolu ilə, Avropa Şurasının standartlarına hörmət əsasında həll eləmək lazımdır".**

Bəs İrəvandakı qanlı hadisələrin ardınca Qarabağ danışıqları hansı axarda gedəcək, həmin hadisələrin diktəsi ilə sülh prosesinə hansısa korrektələr mümkünmü? Konkret olaraq, Rusiya "Lavrov planı" deyilən bir planı həyata keçməsi üçün öz təşəbbüskarlığını davam etdirəcəkmi?




Hələlik bunu söyləmək çətindir. Bir şey dəqiqdir ki, Ermənistandakı məlum olaylar yeni kövrək sülh prosesinə təsirsiz ötüşməyəcək. Serj Sərkisyan daxili durumu əsas götürərək özünü daha radikal aparmağa çalışacaq. Bu ay isə - ehtimal ki, Parisdə - Azərbaycan və Ermənistan prezidentlərinin növbəti görüşü planlaşdırılır. Öncəki saylarımızda vurğuladığımız kimi, apreldə ciddi zərbə alan Ermənistanın başçısı bu görüşə daha güclü mövqe ilə getməyə səy edəcək.

***

Rəsmi İrəvanın əsas hədəfi isə budur ki, Qarabağ probleminin həlli mərhələli yox, paket variantda getsin. Yəni ərazilər boşaldılmazdan öncə Dağlıq Qarabağın statusu bəlli oldu. Bu statusu da erməni tərəfi referendum yolu ilə müstəqillik verilməsində görür - hansına ki, Azərbaycan təbii ki, heç vaxt razı olmayacaq. 22 illik atəşkəs dövrü artıq buna şəkk-şübhə saxlamayıb. Nəinki saxlamayıb, üstəlik, ilk dəfə olaraq atəşkəsin ən geniş miqyasda pozulmasına - aprel döyüşlərinə gətirib.

Bu mənada işğalçı tərəfi daha radikal mövqeyə kökləyən İrəvan olaylarının müharibə ehtimalını artırdığını söyləmək mümkündür. Ona görə ki, status-kvonun aprel-dən əvvəlki kimi qalması artıq mümkün deyil və bu, gec-tez vəziyyətin daha böyük miqyasda partlamasına gətir bilər.

Söz yox ki, Ermənistan özbaşına deyil. İstər sülh, istərsə də və ələlxüsus müharibə məsələsində satellit Ermənistan Rusiyanın izni olmadan heç bir addım atmağa cürət eləməz. Demək, bundan sonrakı proseslərdə də çox şey Moskvanın münaqişəyə yanaşmasından asılı olacaq. Ümid edək ki, bir həftə sonra - avqustun 9-da Sankt-Peterburqda baş tutacaq Ərdoğan-Putin görüşü Qarabağ məsələsinin həllinə də pozitiv işıq salacaq, konfliktin həllinin dalandan çıxarmağa stimul verəcək.

Azərbaycan, Rusiya və Ermənistan prezidentlərinin iyundakı Peterburq görüşündə bəzi məlumatlara görə, mərhələli həll planını işə salmaq haqda prinsipial razılıq əldə edilib. İndi də Peterburqda Türkiyə və Rusiya prezidentləri bir araya gələcək. Bəllidir ki, hər iki ölkənin Qarabağ məsələsinə mühüm təsir imkanları və rıçaqları var. Rusiya Ermənistan, qardaş ölkə isə Azərbaycan üzərində mühüm söz sahibliyinə və təsirə malikdir. O zaman niyə də bölgənin iki super dövləti bu potensialı qarşılıqlı dividentlər naminə işə salmasın?

***

Xatırladaq ki, aprel döyüşlərindən sonra Azərbaycan və Ermənistan prezidentləri iki dəfə - Vyanada və Rusiyanın "ikinci paytaxtı"nda bir araya gəliblər. Üçüncü görüşün Parisdə olacağı bildirilir. Lakin bu arada İrəvanda yaşanan məlum dramatik olaylar görüşə ATƏT-in Minsk Qrupu həmsədrləri səviyyəsində hazırlıq işlərini ləngitdi. Yəqin ki, bundan sonra hazırlıq sürətlənəcək.

Prezidentlərin növbəti görüşü isə Rusiyanın moderatorluq elədiyi yeni sülh təşəbbüsünün mahiyyətinə xeyli dərəcədə aydınlıq gətirməlidir. Böyük ehtimalla, məhz üçüncü görüşdən sonra Qarabağ münaqişəsi zonasında status-kvonun indiki kimi qalıb-qalmayacağı, başqa sözlə, hərbə, yoxsa sülh yoluna üstünlük veriləcəyi aydınlaşacaq.



# "Ermənistanda baş verənlər təkcə onun daxili işi deyil"

**Bahar Muradova:** "Danışıqlarda aktivlik müşahidə olunan kimi bu ölkədə kataklizmlər ortaya çıxır..."

**"Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində fəallığın müşahidə edilməsi təsadüfi xarakter daşımır. Aprel hadisələri zamanı Azərbaycan Ordusunun Ermənistanın təxribatçı hərəkətlərinə layiqli cavab verməsi həm bu ölkəyə, həm də dünya ictimaiyyətinə mesaj verdi. Bir daha aydın oldu ki, bu münaqişənin "dondurulmuş" vəziyyətdə saxlanması cəhdləri sülhə, təhlükəsizliyə xidmət etmir, əksinə, vəziyyətin daha da gərginləşməsinə səbəb olur".**

Bu fikirləri Milli Məclis sədrinin müavini, ATƏT-in Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri, YAP İdarə Heyətinin üzvü Bahar Muradova deyib. Onun sözlərinə görə, münaqişənin həlli istiqamətində fəallıq və müəyyən müsbət dəyişikliklər olsa da, Azərbaycan öz qətiyyətli mövqeyini davam etdirir və son məqsəd işğal edilmiş torpaqlarımızın azad olunmasıdır: "Münaqişənin həlli prosesi zəruri olan ilkin addımın atılmasından başlayır ki, bu da Ermənistan silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan ərazilərindən çıxmasıdır. Hazırda münaqişənin həlli istiqamətində fəallıq müşahidə edilir, amma bu da faktdır ki, nə zaman çevik danışıqlar və aktivlik müşahidə olunursa, tərəflər arasında mövqelərin yaxınlaşması baş verirsə, onda Ermənistanda ciddi kataklizmlər ortaya çıxır. Əlbəttə, hazırda Ermənistanda baş verən proseslər bu ölkənin daxili işidir, amma baş verənlər təkcə bu ölkənin daxilində mövcud olan situasiya ilə əlaqədar deyil, bunun Qarabağ məsələsi ilə də əlaqəsi var. Bütövlükdə, Ermənistanda daxili siyasi sabitliyin pozulması Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqları arxa plana ata, hazırkı fəallığın azalmasına səbəb ola bilər".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi



# Xırdalanda dəhşət - atalığı 6 yaşlı qızı döyüb öldürdü

## Qətlin şok təfərrüatları - ana və onun sevgilisi körpənin meyitini basdırıb cinayəti gizlətmək istəyiblər

**Xırdalanda dəhşətli qətl hadisəsi baş verib - 6 yaşlı Ramilə Abdulxalıqova döyülərək öldürülüb. Körpənin hansı səbəbdən döyülərək öldürülməsi və bir çox tükürpədici məqamlar ortaya çıxıb. Musavat.com-un əməkdaşları 6 yaşlı Ramilə Abdulxalıqovanın ölümünün təfərrüatlarını öyrənmək üçün hadisənin baş verdiyi ünvana yollanıblar. Qətli törədən şəxsi 10 ildən artıq tanıyan və hadisənin təfərrüatları barədə məlumatlı olan qonşular dəhşətli hadisə ilə bağlı bir çox məlumatlar veriblər.**

6 yaşlı R.Abdulxalıqovanın ölümü ilə bağlı yayılan ilk məlumatda qeyd edilir ki, onun meyiti küçədə tapılıb. Uşağın anası Samirə Narıyeva hadisənin başvermə səbəbi kimi avtomobil qəzasını göstərib. Lakin hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən aparılan araşdırma zamanı məlum olub ki, uşaq avtomobil vurması nəticəsində yox, döyülərək, bədən xəsarətləri yetirilərək qətlə yetirilib.

Ananın etirafından sonra hadisəni törədən Elnur Hacıyev tutulub. E.Hacıyev ilk ifadəsində törətdiyi cinayət əməlini etiraf edib. Onun əvvəllər də məhkumluq həyatı yaşadığı yayılan məlumatlar arasındadır.

Əvvəlcə onu bildirək ki, hadisə iyulun 29-da gecə saatlarında E.Hacıyevin Xırdalan şəhərində yerləşən fərdi yaşayış evində baş verib.

Əldə etdiyimiz məlumata görə, 35 yaşlı E.Hacıyev rəsmi nikahda olduğu həyat yoldaşından təxminən 7-8 ay əvvəl boşanıb. İki övladı olan Elnur boşandıqdan sonra hadisə baş verən ünvanda qız övladlarından biri ilə yaşamağa başlayıb. Bir müddət sonra isə Samirə Narıyeva 6 yaşlı qızı Ramilə ilə bu mənzilə köçüb.

Qonşular deyir ki, ana və övladı bu mənzilə köçdükdən sonra Elnur onları kirayənişin kimi təqdim edib.

**"Samirə də həyat yoldaşından boşanıb. Onun 6 yaşlı qızı və bir də 9 yaşlı oğlan övladı var idi. Oğlan atası ilə qalırdı. Samirənin "Sahil" metro stansiyasının yaxınlığında mənzili var idi. Elə o mənzili də satıb pulunu Elnura xərcləyib. Samirə kafelərdə işləyirdi. Nə işlədiyini, necə pul qazandığını deyə bilmərəm, amma uşağına baxırdı, elə evin xərclərini də o ödəyirdi"**, - ilk həmsöhbətimiz olan qonşu deyir.

E.Hacıyevin mənzilinin qapısını dəfələrlə döysək də açan olmadı. Lakin evdə kiminsə olduğu məlum idi. Həyətdə yanan işıqlar, pəncərədə pərdə arxasından bizə kiminsə boylandığını görməyimiz belə deməyə əsas verirdi.

Qonşuların əksəriyyəti ya hadisənin şokundan, ya da nədənsə ehtiyat etdiklərindən qapıları üzümüzə açmadı. Verilən cavab isə belə idi: "Bizim xəbərimiz yoxdur. Elə bir hadisə eşitməmişik". Qonşuların bu cavabı təəccüblü idi; yaşadıqları məhəllədə 2 gün əvvəl baş verən dəhşətli qətldən necə xəbərdar olmamaq olar?!





Mənzilin yerləşdiyi məhəllədə yalnız fərdi yaşayış evləri olduğundan küçədə az sayda sakin görmək mümkün olurdu. Ayaq saxlayan qonşuların bəziləri isə hadisə barədə məlumatlı olduqlarını deyərək qətlin baş verdiyi mənzili bizə göstərməklə kifayətləndilər.

Elnuru 10 ildən çoxdur tanıyan və adının açıqlanmasını istəməyən qonşu əvvəlcə sakinlərin nədən bu qədər susqun olmasının səbəbini danışır. O deyir ki, Elnur içki aludəçisi olub. O, məhəllədə qonşularla səbəbsiz yerə mübahisə edən, dava-dalaşa meylli insan kimi tanınıb. Bu səbəbdən də onun qonşularla münasibətləri yaxşı olmayıb və onun bu xasiyyəti indi də qonşuları danışmamağa vadar edir.

**"Elnur içəndə özündə olmurdu. Ya evdə dava salardı, ya da məhəllədə kimi görsə, ona söz atardı. 10 ildən çoxdur ki, bu məhəllədə yaşayır. Həyat yoldaşı da bu səbəbdən ayrıldı. İkinci sinifdə oxuyan qızı ilə qalırdı. Samirənin də 6 yaşlı qızı burda yaşayırdı. Elnur hadisəni törədərkən içkili olub. Uşağı əvvəllər də döyürdü. Elnurun anası Almaz xanım da burada yaşayır. İndi evdə olmalıdır. Ancaq sizə qapını açan deyil"** - deyə, həmin qonşu bildirir.

Hadisənin necə baş verməsi haqda danışan qonşular deyir ki, qətl iyulun 29-da gecə saat 12-də hadisə baş verib. İyulun 30-da Samirə Narıyeva polis əməkdaşları ilə birlikdə mənzilə gəlib. Daha sonra isə hadisə yerinə rayon prokurorluğunun da əməkdaşları gəlib. Elnur elə yaşadığı mənzildə saxlanılıb, o, əməlini etiraf edib və polis idarəsinə aparılıb.

### "Uşağı öldürüb basdırıblar"

Qonşulardan biri hadisənin üstünün ilkin xəbərlərdə yazıldığı kimi açılmadığını deyir. Onun iddiasına görə, Elnur və Samirə hadisədən sonra uşağın meyitini basdıraraq cinayət əməlini gizlətməyə çalışıblar. Lakin işin üstü bu zaman açılıb.

Samirə Narıyeva əslən Şəkinin Kiş kəndindəndir. Elnur Hacıyev isə Şamaxı rayonunda anadan olub. Elnurun anası da həyat yoldaşından boşanıb. O, rayonda yaşasa da arabir oğlunun evinə gəlirmiş. Məhəllə sakinləri Samirə Narıyevanın qohumlarından heç kimi tanımadıqlarını, evə gələn kimisə görmədiklərini deyirlər.

Qonşuların sözlərinə görə, Elnur Hacıyev heç bir yerdə işləməyib və gündəlik içki pulunu da Samirə Narıyevadan alırmış: **"Elnurun əvvəllər məhkumluq həyatı yaşadığını yazırlar. Amma 10 ildir onu tanıyırıq. Bu müddətdə həbsxanada olmayıb. Amma bir neçə dəfə xuliqanlıq əməli törədib. Onu da pul verib "yoluna" qoyublar. Həmin pulları da Samirə evini sataraq ödəyib. Elnur qonşulara deyirdi ki, Samirə onun evində kirayə yaşayır. Ancaq hamı bilirdi ki, onlar arasında münasibət var idi. Uşağın boğularaq öldürüldüyü deyilir. Başqa qonşular da deyir ki, başından xəsarət alıb. Amma dəqiq olan budur ki, hadisə evdə olub".**

### Qətlə yetirilən uşağın anası da saxlanılıb

Əldə etdiyimiz digər məlumata görə, hazırda qətlə yetirilən uşağın anası Samirə Narıyeva da saxlanılıb. O, ilkin ifadəsində polis əməkdaşlarını aldatmağa cəhd edib.

Faktla bağlı Abşeron Rayon Prokurorluğunda cinayət işi başlanıb, istintaq gedir.

❑ **İlkin MURADOV**
**Məğrur MƏRD**

# Ərəblər Azərbaycanın daşınmaz əmlak bazarında canlanma yarada bilər

## "Onlar əsasən Şəkidə və Qəbələdə evlər alırlar, orada torpaq alıb ev tikməklə məşğuldurlar"

**Bu yay ölkəmizdə turistlərin sayının artdığı müşahidə edilir. Onların əksəriyyəti də İrandan və ərəb ölkələrindən gələn turistlərdir. Adətən istirahət məkanı olaraq Türkiyəni seçən ərəblər bu il orada baş verən hadisələr fonunda müsəlman ölkəsi olaraq Azərbaycanı seçiblər. Ərəb turistlər arasında apardığımız sorğudan məlum oldu ki, onlar ölkəmizin təbiətini çox sevirlər. Məlumata görə, artıq ərəblər bölgələrdə daşınmaz əmlak bazarına da maraq göstərir və hətta mənzillər alırlar. Bu prosesə təkan verən başqa bir amil də baş verən iki devalvasiyadan sonra manatın ucuzlaşmasıdır. Valyutanın ucuz olması turist üçün həddsiz dərəcədə önəmlidir. Bu mənada mənzillərin də ucuz olduğunu nəzərə alsaq, Azərbaycanın daşınmaz əmlak bazarına ərəblərin cəlb olunması bu sahədə canlanma yarada bilər.**



**İqtisadçı ekspert Natiq Cəfərli** də "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, ərəblərin ölkəmizə maraq göstərməsinin bir neçə səbəbi var: "Ərəb turistlərin ölkəmizə gəlməsində müşahidə olunan artım hökumətin viza rejimini sadələşdirməsindən sonra baş verdi. Digər bir səbəb isə odur ki, son iki devalvasiyadan sonra manatın ucuzlaşması və əcnəbi turistlərin gətirdikləri valyuta ilə daha çox manat əldə etmələridir. Lakin mənim fikrimcə, əsas səbəblər bunlar deyil. Əsas səbəb ərəblərin Azərbaycanda daha rahat hərəkət edə bilmələridir. Çünki ölkələrində çox ciddi qadağalar var. O qadağalardan qaçmaq üçün Azərbaycana üstünlük verirlər. Azərbaycan müsəlman ölkəsi olsa da, burada digər ölkələrdə kimi təhlükə hiss etmirlər. Burada rahat geyinə bilirlər, rahat əylənə bilirlər. Əvvəllər daha çox Türkiyədə dincəlirdilər, lakin Türkiyədə yaranan problemlər, əvvəlcə terror olayları, sonra hərbi çevriliş cəhdi oraya gedən turistlərin də fikrini dəyişdi. Alternativ olaraq ərəblər daha çox Azərbaycana üstünlük verirlər".

**Ekspertin sözlərinə görə, ölkəmizə turistlərin gəlməsi iqtisadi baxımdan çox faydalıdır:** "Turizmin inkişafı həm də xidmət sektorunun inkişafına və biznesin gəlirlərinin artmasına səbəb olacaq. Ancaq Azərbaycan turizmi o səviyyədə inkişaf etməyib ki, turistlərin sayı kəskin artsın. Sadəcə biz heç zaman ölkəmizdə ərəblərin kütləvi gəlişini görməmişik deyə, indi çox nəzərə çarpır. Lakin bu axın o səviyyədə deyil ki, iqtisadiyyatda hansısa ciddi dəyişikliklərə gətirib çıxarsın".

**Ərəblərin Azərbaycanda daşınmaz əmlak almasına gəlincə, N.Cəfərli bildirdi ki, bu barədə məlumatlar var, lakin proses kütləvi xarakter daşımır:** "Məlumata görə, ərəblər əsasən Şəkidə və Qəbələdə evlər alırlar, orada torpaq alıb ev tikməklə məşğuldurlar. Lakin bununla bağlı əlimizdə dəqiq rəqəmlər yoxdur. Belə bir tendensiya varsa, müsbət haldır və ən azından bölgələrdə daşınmaz əmlak bazarına, əmək bazarına müsbət təsir edər və iş yerlərinin artmasına gətirib çıxarar.

Burada problem odur ki, bizim qanunvericilik xarici şəxslərə mülkiyyət hüququnun verilməsi ilə bağlı məhdudiyyət tətbiq edir. Digər tərəfdən, mülkiyyət hüququnun toxunulmazlığı ilə bağlı problemlər var. Ərəblər daha çox Türkiyəyə meyl edir. Türkiyədə daşınmaz əmlak həm də yatırımdır. İstanbulda hər il daşınmaz əmlakın qiyməti orta hesabla 8-12 faiz artır, investor bu il aldığı mənzili 3-4 il sonra daha baha qiymətə sata bilir. Yeni mənzil həm də yatırım obyekti kimi nəzərdə tutulur. Bizim bu sahədə Türkiyə ilə rəqabətə girə biləcəyimizi düşünmürəm. Ancaq ən azından kiçik partiyalarla olsa da, belə tendensiya olacaqsa, regionların inkişafına, orada iç yerlərinin yaranmasına müsbət təsir göstərəcək".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 167 (6488) 2 avqust 2016

# Bank sisteminin etimad problemi

## Bağlanan bankların sayı artacaq; **Əkrəm Həsənov:** "Sahibləri bankı müflis edir və buna görə cəzalanmır"

**Ölkənin bank sistemi ciddi böhrandan çıxa bilmir. Əksər ekspertlər artıq bank sisteminin çökdüyü qənaətindədirlər. Həmçinin bildirilir ki, bağlanmayan bankların da vəziyyəti yaxşı deyil. İlin sonuna qədər bankların bağlanmasının davam edəcəyi də vurğulanır.**

**İqtisadçı alim Fikrət Yusifov** musavat.com-a bildirib ki, bank sistemindəki islahatlar getdikcə dərinləşir: "Bu, labüd idi. Çünki iqtisadiyyatın qeyri-neft sektorunun inkişafı istiqamətində hökumətin son bir ilə qədər gördüyü təxirəsalınmaz tədbirlər bank islahatlarının da eyni sürətlə aparılmasını zəruri edir. Real sektorun maliyyələşdirilməsində banklar öz sözünü deməyi bacarmalıdırlar. Bunun üçün də onların müasir dövrün tələblərinə uyğun yenidən qurulması böyük əhəmiyyət kəsb edən bir məsələdir".

**Ekspertin sözlərinə görə, yeni iqtisadi mühitdə banklar bazarı daha yaxından hiss edən, onun tələblərini hər kəsdən tez müəyyən etməyi bacaran bir struktur kimi fəaliyyət göstərməyə borcludurlar:** "Dünya təcrübəsi göstərir ki, məhz bu prinsipləri öz fəaliyyətinin əsasına qoyan bank sistemi olan ölkələrdə iqtisadiyyatın sürətli inkişafı təmin edilə bilmişdi. Bir sözlə, iqtisadiyyatın yüksəlişi, məhz bank sektoru tərəfindən fasiləsiz pul və kapital dövriyyəsinin təmin edilməsindən, ayrı-ayrı sahələrin, dövlətin və əhalinin kreditləşməsinin yüksək səviyyədə təşkil edilə bilməsindən asılıdır. Real olan budur ki, banklar əhalinin və müəssisələrin sərbəst vəsaitlərini, habelə digər sərfəli mənbələrdən vəsaitləri cəlb edib, onları müxtəlif sahələr arasında yenidən bölüşdürməklə, bütövlükdə ölkə iqtisadiyyatının inkişafını təmin etmək kimi önəmli bir vəzifəni yerinə yetirməlidirlər".

**F.Yusifov qeyd edib ki, bankların iqtisadiyyatın inkişafında mühüm rolunu nəzərə alan hökumət iqtisadiyyatın real sektorunda aparılan sürətli islahatlarla eyni vaxtda bank islahatlarına da xüsusi yer verdi:** "Bu ilin fevral ayının əvvəllərində Maliyyə Bazarlarına Nəzarət Palatası yaradıldı və banklarda olan bütün əmanətlər üç il müddətinə tam sığortalandı. Bugünlərdə isə ölkə başçısı fərmanla Maliyyə Stabilliyi Şurası yaratdı. Bu qərar dünyanı bürümüş iqtisadi və maliyyə böhranı şəraitində ölkədə maliyyə sabitliyinin tam bərqərar olması və bank sektorunda islahatların səmərəli aparıla bilməsi məqsədilə qəbul edildi. Baş nazirin rəhbərliyi altında fəaliyyət göstərəcək bu şuraya ölkənin əsas iqtisadi və maliyyə qurumlarının rəhbərləri daxildir. Şuranın əsas məqsədi ölkədə maliyyə sabitliyi yaratmaq yolunda bütün aidiyyəti qurumların fəaliyyətini tam koordinasiya etməkdən ibarətdir. Deməli, bundan sonra ölkənin maliyyə sabitliyinin təmin olunmasına yönəlik addımlar ayrıca götürülmüş bir qurumun deyil, bütöv bir peşəkar komandanın razılaşdırılmış qərarı əsasında atılacaq. Bank sisteminin yenidən qurulması aparılan iqtisadi islahatların səmərəliliyini təmin etməyə hesablanıb. Əslində bütün başqa islahatlar kimi bank islahatları da ağrısız olmur. Lakin bu gün başqa bir seçim etmək də mümkün deyil. Bank islahatları tezliklə aparılmalı və bunun nəticəsi olaraq ölkədə müasir tələblərə cavab verən güclü banklar yaradılmalıdır. İslahatlar nəticə etibarilə bankların üzünü əsaslı şəkildə ölkənin iqtisadiyyatına çevirməyi nəzərdə tutur. Banklar nəhayət ki, girov xəstəliyindən yaxa qurtarmalıdırlar. Onlar kredit verərkən, ilk növbədə bütün səylərini təqdim olunmuş layihənin reallığını yüksək peşəkarlıqla araşdırmağa sərf etməlidirlər. Bunun üçün də bankların müvafiq strukturlarında çalışan mütəxəsislərin yüksək peşə hazırlığı aparılmalıdır".




**Ekspert Əkrəm Həsənov 2016-cı ilin II rübü üzrə hesabatların təhlili əsasında bankların təsnifatını verib. O bildirib ki, əksər banklar hesabatlarını gizlədir:** "İkinci rübün bitməsindən 1 ay ötür. Qanunvericiliyə əsasən, banklar saytlarında rübün maliyyə nəticələrini əks etdirən hesabatlarını dərc etməli idi. Lakin dərc etməmə üzrə bu dəfə rekord vurulub: 33 bankdan cəmi 8-i hesabatı açıqlayıb. Xatırladıram ki, hesabatlarını daim gizlədən 4 bank da bu ay bağlandı və məhz bunun nəticəsində 33 bank qaldı. Buna görə də hesabatı gizlədən banka qətiyyən etibar etmək, orada pul saxlamaq olmaz. Düzdür, hesabatı açıqlayan banka da etimad şərtidir, çünki Maliyyə Bazarlarına Nəzarət Palatasının məlumatına görə, bəzi banklar hesabatları təhrif edilmiş şəkildə təqdim edir. Altı bank hesabatını ilk dəfə açıqlamayıb. Səkkiz bank isə hesabatını açıqlayıb".

**Ə.Həsənov bağlanmış bankların ləğvi məsələsinin də aktual olduğuna diqqət çəkib:** "Bankın ləğvedicisi bankın vəsaitini asanlıqla mənimsəyir. Tutaq ki, bağlanan bankın 100 milyon manat ekvivalentində borcu qalıb, bunun 45 milyonu sığortalanmış əmanətlər, 30 milyonu sığortalanmamış əmanətlər, 20 milyonu sahibkarların bank hesablarındakı vəsaitlər, 4 milyonu digər banklara borcu, 1 milyon işçilərinin əmək haqqı, habelə dövlətə vergi borcudur. Bankın özünün isə cəmi 70 milyon manat əmlakı var, 60 milyon ona borcluları tərəfindən ödənilməli olan kreditlərdir, 10 milyonu isə daşınmaz əmlakı, avtomobilləri və digər daşınar əmlakıdır. Bankın bütün borclarını ödəməsinə 30 milyon çatmır. Bank sahiblərinin və menecerlərinin fəaliyyəti nəticəsində zərər yaranıb, amma fakitiki mənimsənilib. Yəni bankın kreditorlarından kimsə pulunu qismən və bəlkə də hətta tam ala bilməyəcək. Bankın ləğvedicisinin vəzifəsi ondan ibarətdir ki, banka olan kreditləri yığsın, əmlakını isə satsın ki, əldə edilən 70 milyon manatı kreditorlar arasında bölüşdürsün. Bu necə olmalıdır və reallıqda necə olur? Sığortalanmış əmanətləri Əmanətlərin Sığortalanması Fondu uzağı 6 ay ərzində əmanətçilərə qaytarmalıdır. Bundan sonra ləğvedici ilk növbədə fondun ödədiyi həmin 45 milyon manatı fonda qaytarmalıdır. Tutaq ki, 60 milyon manatlıq kreditlərdən ləğvedici 45 milyonunu qaytara bildi. 10 milyon manatlıq əmlakı isə 5 milyona satdı. Deməli, nəticədə 70 milyon əvəzinə cəmi 50 milyon əldə edildi. Bu 50 milyondan da 45-i Əmanətlərin Sığortalanması Fonduna qaytarılacaq. Yerdə qalan cəmi 5 milyondan 3 milyon manatı ləğvedicinin bu işdəki xərcinə çıxılacaq: əmək haqqı, inzibati xərclər və sair. Təbii, şişirtmələr də olacaq. 1 milyon manatı ləğvedici ilə dil tapa bilən hansısa banka qaytarılacaq. Qalan 1 milyona isə bankın işçilərinin maaşı və dövlətin vergisi ödəniləcək. Beləliklə, aşağıdakı şəxslərə 1 qəpik belə qaytarılmayacaq: 30 milyon sığortalanmamış əmanətlərin sahibləri, bank hesablarındakı 20 milyon vəsaitin sahibi olan sahibkarlar və 3 milyon vəsaitin sahibi olan banklar. Halbuki arada itən 20 milyon manat da ortada olsaydı və ləğvedici xərclərini şişirtməsəydi, bu 53 milyon manatın sahibləri də qismən də olsa pulunu geri ala bilərdi. Bəs həmin 20 milyon hara gedib? 10 milyon manatlıq əmlakın 5 milyona satılmasının izaha ehtiyacı yoxdur, məncə, ləğvedici, sadəcə, əmlakı bilərəkdən ucuz satıb. Kreditlərə gəldikdə isə qeyd edildiyi kimi, banka olan kreditlər 65 milyon təşkil edirdi, amma ləğvedici cəmi 50 milyon qaytara bilib. Ləğvedici bəzi borcalanlarla iş birliyinə daxil olub rüşvət alaraq krediti tam geri almayıb. Məsələn, krediti restrukturizasiya edərək bir hissəni guya bağışlayıb. Yaxud da bilərəkdən məhkəmə prosesində zəif çıxış edərək qismən məğlub olub. Yaxud məhkəmə qərarından sonra borc alanı sonadək təqib etməyib və guya müflis olması ilə barışıb. Və ya kredit üzrə girov əmlakı bilərəkdən xeyli ucuz qiymətə satıb və sair. Borcu qaytarmaq çətindir, amma borcu bilərəkdən almaqdan yayınmaq və buna qanuni don geyindirmək çətin deyil".

**Ekspert ləğvedilmə mexanizmindən çıxan nəticəni də bölüşüb:** "Bankın sahibləri və menecerləri 30 milyon manatı mənimsəyərək bankı müflis edir və buna görə cəzalanmır, müştərilər 30 milyon manatı itirir. Bank nəzarəti orqanının təyin etdiyi ləğvedici olan-qalan əmlakı da talan edir və müştərilər əlavə olaraq da 23 milyon itirir. Belə banklara və bank nəzarətinə necə etimad etmək olar?"

❑ **RÖYA**

# Bakıda binaların faciə mənbəyi - "dam qapısı"

## **FHN sözçüsü:** "Bəzi tikinti şirkətləri bu yerləri qapadıb, mansardları qeyri-qanuni formada satırlar"



**Bakıda binaların damına çıxış üçün nəzərdə tutulan qapılar həm də faciə mənbəyidir. Ölkədə intiharların sayının artdığı dönəmdə, eyni zamanda binaların üzərinə çıxıb, orada şelfi çəkdirən gənclərin videogörüntüləri yayılanda bu mövzu cəmiyyətdə xeyli aktuallaşmışdı. Həmin vaxt mənzil-kommunal istismar idarələri qınanıldı ki, onlar binaların istismar təhlükəsizliyinə düzgün nəzarət edə bilmirlər. Nəticədə əksər 5 və 9 mərtəbəli binaların damına çıxış qapısına kilidlər vuruldu.**



Musavat.com-un əməkdaşı müşahidə edib ki, hazırda da əksər binaların dam örtüyünə açılan qapılar kilidlidir. Sakinlərlə söhbətimiz zamanı bildirdilər ki, buna mənzil-kommunal istismar idarələrinin əməkdaşları nəzarət edirlər. Qapıların da açarları onlardadır. Lakin bəzi binalarda sözügedən qapıların açarının sonuncu mərtəbədə yaşayan sakinlərə də verildiyinin şahidi olduq. Onlar da adətən antenalara və binanın üzərində qoyulan digər əşyalara nəzarət edirlər. Açarı olan sakin evdə olmadığı ərəfədə isə binaların üzərinə çıxmaq mümkün deyil. Bunu intiharın və antena oğrularının qarşısının alınması üçün müsbət hal hesab edib, alqışlayanlar az deyil.

Lakin məsələnin başqa tərəfi də var. Belə ki, ötən il Binəqədi rayonunda yerləşən 16 mərtəbəli binada baş vermiş dəhşətli yanğınla bağlı keçirilən məhkəmə prosesində də binaların damına açılan qapılar müzakirə olundu. Orada bildirildi ki, bu qapılar açıq olsaydı, yuxarı mərtəbədə yaşayan sakinlər binanın üzərinə qalxar, yanğından və tüstüdən xilas ola bilərdilər. Həmin binada xəsarət alan, dünyasını dəyişən sakinlərin əksəriyyəti yuxarı mərtəbədə qalanlar olublar. Eyni zamanda bəhs etdiyimiz yanğın zamanı özünü binadan atan Yaşar Nəcəfzadə də yuxarı qalxar, aşağı düşə bilmədiyi üçün özünü yerə atmışdı.

Məsələ ilə bağlı Bakıda yerləşən çoxmərtəbəli binalarda olub, dama çıxış qapılarını yoxladıq. Məlum oldu ki, Bakıda əksər binaların heç damına çıxış üçün qapı da yoxdur. Yeni inşa olunan binaların sahibləri bu yeri də satıblar və sakinlər tərəfindən orada əşyaların qoyulması üçün xüsusi yer düzəldilib. Elə binalar var ki, hətta bu yer sakinlər tərəfindən otaq kimi də istifadə olunur. Əksəriyyəti bir girişdən ibarət olan bu binalarda hər hansı bir hadisə baş verərsə, yuxarı mərtəbədə yaşayan sakinlərin canlarını xilas etmələri üçün heç bir vasitə və imkan yoxdur.

**Mövzu ilə bağlı rəsmi məlumat almaq üçün Fövqəladə Hallar Nazirliyinin (FHN) mətbuat xidmətinin rəhbəri Oqtay Bayramov əlaqə saxladıq. O. Bayramov musavat.com-a bildirdi ki, bu məsələ ilə məşğul olunur:** "Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi binaların istismara qəbulu üçün rəy verərkən, bu hala xüsusi diqqət edirlər. Bu çıxışlar insanların təhlükəsizliyi baxımından lazımlıdır. Ancaq çox təəssüf ki, bəzi tikinti şirkətləri, mənzil-tikinti kooperativləri bu yerləri qapadıb, mansardları qeyri-qanuni formada satırlar. Bütün bunlar qeyd etdiyim kimi qanunvericiliyə, hüquqi normalara ziddir. Adını qeyd etdiyimiz agentlik bu işlərə ciddi nəzarət edir. Bəllidir ki, ölkədə bəzi binalar standartlara cavab vermədiyi üçün hələ də istismara qəbul edilməyib. Bunun bir səbəbi də odur ki, həmin binalarda qeyd etdiyimiz standartlar pozulub. Binalar istismara qəbul olunan zaman həmin çıxışlara xüsusi nəzarət olunur".

❑ **Əli RAİS**

**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 167 (6488) 2 avqust 2016

# İş adamını öldürən dəstəyə hökm oxundu



**Bakı Ağır Cinayətlər Məhkəməsində iş adamını qətlə yetirməkdə təqsirləndirilən 17 nəfərlik dini ekstremist dəstənin üzvləri - Nurəddin Xəlilov, Müşfiq Mikayılov, Rəşad Həşimli, Əhməd Kərimov, Çoşqun Kərimbəyli, Bahadur Məmmədov, Zaur Əliyev, Pərviz Şıxəliyev, Rəşad Səfərəliyev, Xəlil Məmmədov, Şakir Məmmədov, Rafiq Bəyimov, Ceyhun Abdullayev, İlqar Musayev, Rzayev Anar, Niyaməddin Xəlilov, Fəxri Şirinzadənin cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.**

"Report"un məlumatına görə, hakim Zeynal Ağayevin sədrliyi ilə keçirilən prosesdə hökm oxunub.

N.Xəlilov ömürlük, M.Müşviqov, H.Rəşad, Ə.Kərimov, C.Kərimbəyli, B.Məmmədov,F.Şirinzadə 20 il, Z.Əliyev, R.Bəyimov 18 il, P.Şixəliyev, R.Səfərəliyev, S.Məmmədov, N.Xəlilov 16, X.Məmmədov 15 il, C.Abdullayev 14 il, İ.Musayev 13 il 6 ay, A.Rzayev 14 il müddətinə azadlıqdan məhrum ediliblər.

Xatırladaq ki, ötən prosesdə dövlət ittihamçısı çıxış edib. Prokuror Nurəddin Xəlilovun ömürlük, Rəşad Həşimli, Müşfiq Mikayılov, Əhməd Kərimov, Coşqun Kərimbəyli və Bahadur Məmmədovun 20 il, Fəxri Şirinzadə, Rufiz Bəyimov və Zaur Əliyevin 18 il, Pərviz Şıxaliyev, Rəşad Səfərəliyev, Xəlil Məmmədov, Samir Məmmədov və Niyaməddin Xəlilovun 16 il, Anar Rzayev, İlqar Musayev və Ceyhun Abdullayevin isə 15 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib.

Qeyd edək ki, 2015-ci il noyabrın 24-də Qəbələ şəhər sakini Vahid Vahabovun yaşadığı evdə meyiti tapılıb və faktla bağlı rayon prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb. Araşdırmalarla müəyyən edilib ki, V.Vahabovun qonşusu Coşqun Kərimbəyli onun imkanlı şəxs olduğu barədə yaxın dostları, radikal ekstremist yönümlü dini təriqət üzvləri olan əvvəllər məhkum edilən Nurəddin Xəlilov, Müşfiq Mikayılov, Rəşad Həşimli və Əhməd Kərimova məlumat verib. Onlar Vahid Vahabovun yaşadığı evə basqın edərək külli miqdarda pul və qızıl- zinət əşyaları ələ keçirmək barədə qabaqcadan razılığa gəliblər. Qeyd olunan tarixdə dəstə üzvləri oğurladıqları avtomobillə Qəbələ şəhərinə gedib, təxminən saat 04:00 radələrində üzlərinə maska taxaraq Vahid Vahabovun yaşadığı mənzilə soxulub, odlu silahla onu öldürüb, həyat yoldaşına müxtəlif dərəcəli xəsarətlər yetiriblər. Aparılan əməliyyat-axtarış tədbirləri nəticəsində cinayətkar dəstənin üzvləri Nurəddin Xəlilov, Müşfiq Mikayılov, Zaur Əliyev və Pərviz Şıxəliyev həbs olunublar.

**Araşdırmalar zamanı dəstə üzvlərinin şəxsiyyətlərini təsdiqləyən rəsmi sənədləri bilərəkdən məhv etmələri də məlum olub.**

**Mütəşəkkil dəstənin ümumilikdə 17 üzvü həbs edilib.**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

*** Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
*** Cinsi marağın** və **cinsi aktların** azalması
*** Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
*** Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
*** Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
*** Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
*** Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
*** Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
*** Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
*** Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
*** Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
*** Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** ***(enurez)***
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
*** Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
*** Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
*** Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
*** Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
*** Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



**Elan**

**Qəbələ rayonunun Vəndam kəndində gözəl bir meyvə bağı satılır. 60 sot sahəsi var, 86 ağac, qoz, şabalıd, qızıl əhmədi alması, fındıq, hamısı bar verir. Bağ dağ ətəyindədir, kvadratdır, qazı, işığı, suyu var. Çox gözəl bağdır. Xeyir iş səbəbindən çox münasib qiymətə satılır.**
**Əlaqə telefonu: (070) 335-90-15.**



## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34




## Maşallah Əhmədov 100 min dollarlıq dələduzluqla üzləşdiyini iddia edir

**Hazırda ev dustaqlığında olan tanınmış futbolçu Maşallah Əhmədov dələduzluqla üzləşdiyini iddia edir. "Report"un xəbərinə görə, M.Əhmədov hüquq-mühafizə orqanlarına müraciət edərək 2008-ci ildə Sabunçu rayonu ərazisində Ucar rayon sakini 57 yaşlı Qoşun Rəhimovun ondan 100 min ABŞ dollar aldığını, lakin indiyədək qaytarmadığını bildirib.**

Faktla bağlı araşdırma aparılır.

Qeyd edək ki, M.Əhmədov ötən il dekabrın 14-də Binəqədi Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən saxlanılıb. İlkin məlumata görə, bizneslə məşğul olan "Neftçi"nin keçmiş futbolçusu Bakıda bir neçə nəfərə 150 min manatdan artıq dəyərdə xaricdən daş plitə gətirəcəyini vəd edib. Lakin M.Əhmədov sözünə əməl etməyib, həmin şəxslərin pulunu da qaytarmayıb.

Dekabrın 16-da Binəqədi Rayon Məhkəməsində M.Əhmədov barəsində üç ay müddətinə həbs-qətimkan tədbiri seçilib. Daha sonra o, ev dustaqlığına buraxılıb.

Xatırladaq ki, Azərbaycan futbolunun ən güclü hücumçularından olan M.Əhmədov 1959-cu ildə Gəncədə anadan olub. O, 1977-ci ildən "Neftçi" klubunda oynayıb. M.Əhmədov 1995-ci ildə əsas milli komandada məşqçi, U-21-də isə baş məşqçi funksiyasını yerinə yetirib.

## Penitensiar Xidmətin 102 əməkdaşı intizam məsuliyyətinə cəlb olunub

**Bu ilin 6 ayı ərzində Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin 7 əməkdaşı ədliyyə orqanlarından xaric edilib. "Report"un xəbərinə görə, bu barədə Penitensiar Xidmətin bu ilin birinci yarımilliyi ərzindəki fəaliyyətinin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan müşavirədə xidmətin rəis müavini, ədliyyə polkovniki Oqtay Məmmədov bildirib.**

O deyib ki, vəzifədən sui-istifadə, vəzifə səlahiyyətlərini aşma və digər korrupsiya elementlərinin yaranmasına zəmin olan səbəb və şəraitin aradan qaldırılmasına yönələn konkret tədbirlər görülüb: "Pozuntulara yol verən 102 əməkdaş intizam məsuliyyətinə cəlb olunub, 3 əməkdaş tutduğu vəzifədən azad olunub, 7 əməkdaş isə ədliyyə orqanlarından xaric edilib".

## Ukraynada azərbaycanlı iş adamı yoxa çıxıb

**Ukraynada azərbaycanlı iş adamı yoxa çıxıb. Donetsk Azərbaycanlıları Konqresindən APA-ya verilən məlumata görə, əslən Sumqayıtdan olan 1970-ci il təvəllüdlü Vitali Şirin oğlu Şirinov adlı şəxs Velikaya Novoselka şəhərində qızıl-zərgərlik ticarəti ilə məşğul olur.**

"Qızıl Vitali" kimi tanınan V. Şirinov bir həftə əvvəl Dnepropetrovsk şəhərinə getmək adı ilə evindən çıxıb və geri dönməyib. Onun telefonları söndürülüb. Yerli polis axtarış elan edib. Yaxınlarının sözlərinə görə, bir müddət əvvəl V. Şirinov onlara ondan naməlum şəxslər tərəfindən yüksək məbləğdə pul tələb edilərək hədələndiyini bildirib.

## Beyləqanda banka hücum edildi

**Azərbaycanda bank filiallarından birinə basqın edilib. Hadisə "Accessbank" QSC-nin "Beyləqan" filialında qeydə alınıb. Tezis.az-ın məlumatına görə, Beyləqan rayonlararası mühafizə şöbəsinə rayonun Magistral küçəsində yerləşən "Accessbank" QSC-nin "Beyləqan" filialından "həyəcan" siqnalı daxil olub.**

Mühafizə polisinin əməkdaşları hadisə yerinə gediblər. Bu zaman bankın Beyləqan filialının pəncərəsinin şüşəsini sındıraraq hadisə yerindən qaçmaq istəyən Füzuli rayonu, Yuxarı Güzdək kənd sakini, Beyləqan rayonu ərazisində məskunlaşan Rəhim Nəbiyev saxlanılıb.

Rəhim Nəbiyev Beyləqan Rayon Polis Şöbəsinin əməkdaşlarına təhvil verilib.

**Əsrlər boyu bəşər cəmiyyətini düşündürən suallardan biri də yadplanetlilərin, daha dəqiq desək, UNO-ların mövcud olub-olmamasıdır. Ötən həftə bu məsələ yenidən dünya mətbuatının gündəminə gəldi. Səbəb isə bir-birinin ardınca ayrı-ayrı ölkələrdə UNO-larla bağlı videogörüntülərin yayılması oldu.**

# UNO-ların reallıqla əlaqəsi varmı?

## Bir daha paralel varlıqlar haqda; yadplanetlilər barədə məlumatlar qədim şumer, hind və Misir yazılı abidələrində yer alıb



İlk öncə internet resurslarında hərəkətdə olan Rusiya təyyarəsinin ətrafından uçan naməlum aparatların görüntüsü yayıldı. Məlumata görə, görüntülər təyyarənin xaricinə quraşdırılmış kameraya düşüb. Daha bir görüntü isə Səudiyyə Ərəbistanında yerləşən səhrada qeydə alındı. Yayılan videodan aydın görünür ki, səhraya uçan naməlum obyektin (UNO) qapıları açılır və yadplanetlilər yerə enir. Sonra UNO havaya qalxır. Bundan bir müddət sonra isə bir yadplanetli havaya çəkilir. Video yerli sakinlər tərəfindən lentə alınıb. Videodan bəlli olur ki, insanlar gördükləri mənzərədən heyrətlənirlər.

Görüntülər səma mütəxəssislərinin də böyük marağına səbəb olub və müxtəlif fikirlər səslənib. Əksəriyyət bunun xarici sivilizasiyanın varlığına ən yaxşı sübut olduğunu desələr də, UNO-ların varlıqlarını qəbul etməyənlər də var.

Həqiqətən Yerdən başqa sivilizasiya, yaşayış varmı? Əgər doğrudan da yadplanetlilər dünyaya səyahət edirsə, onları maraqlandıran ən çox hansı amildir?

21-ci əsrdə yaşamağımıza baxmayaraq hələ də bu suallar tam olaraq çözülməyib. Xatırladaq ki, yadplanetlilər barədə məlumatlar hələ qədim şumer, hind və Misir yazılı abidələrində yer alıb. Bəzi alimlər Qədim Misirdə 5-6 min əvvəl piramidaların inşası zamanı yadplanetlilərin köməyindən istifadə olunduğunu iddia edirlər. Piramidaların inşasında istifadə edilən daşların hər birinin 2 ton ağırlığında olması, habelə onların divarlarında astronavt şəkillərinin həkk edilməsi bu qənaətə gəlməyə zəmin yaradır.

Bəzən konus, üçbucaqlı, bumeranq və başqa formalarda da olmasına baxmayaraq, el arasında “uçan boşqab”lar adlandırılan UNO-ların müasir tarixi isə onların “ilk dəfə” 1896-cı ildə ABŞ-da müşahidə edilməsi ilə başlayır. Bu sahəni öyrənən elm isə ufologiya adlanır.

### UNO-ları Yerdə nə maraqlandırır?

Ufoloqların fikrincə, UNO-lar Yer sivilizasiyasının inkişaf səviyyəsi ilə maraqlandığı üçün Yerə səyahət edirlər. Əsasən ABS, İran, Rusiya və digər nüvə dövlətlərinin hərbi obyektlərinin üzərində tez-tez göründüyü iddia edilən bu obyektlər bununla Yerin taleyindən narahatlıq keçirdiklərini göstərməyə çalışırlar. Ufoloqların fikrincə, Yerin gələcək taleyindən narahatlıq keçirdiklərini büruzə vermək üçün UNO-ların səfərləri son zamanlar daha da intensivləşib. Yer üçün yaranan problemlərin sırası genişləndikcə - müharibələr, təbii fəlakətlər, ekoloji böhran dərinləşdikcə UNO-ların da narahatlıqları artır-bu da ufoloqların ortaq rəyidir. UNO-lar sanki insanların Yeri məhv edəcəyindən qorxurlar. Şayiələrə görə, Çernoblda baş vermiş məlum partlayış zamanı radiasiyanın fonu 3000 rentgen olub. “Uçan boşqablar” gəlib həmin obyektin üzərində dayanmaqla onu 300-ə endiriblər.

Rusiya Ufologiya Akademiyasının ilk prezidenti V.Ayaya Yer sakinlərinin ən azı 40 faizinin öz gözləri ilə naməlum uçan obyektləri gördüyünü bildirib. Onun sözlərinə görə, yer üzündəki təyyarəçilərin yarısı ömürlərində bir dəfə olsa belə, “uçan boşqab”la üzləşiblər. Bu barədə fikirlərini onlar anonim saxlanılan sorğularda etiraf ediblər. Amma çoxları gördüklərini açıb danışmağa cürət etməyiblər.

### UNO-lar Azərbaycanda da insanlarla təmasa cəhd edib?

Sağlığında ufologiya ilə məşğul olan azərbaycanlı alim Fuad Qasımov da bildirirdi ki, Azərbaycanda il ərzində UNO-lar öz səfərləri boyunca dəfələrlə insanlarla təmasa cəhd ediblər. UNO gördüyünü iddia edən şəxslərin iddialarına görə, yadplanetlilərin boyu təxminən 130-150 sm-ə çatır. Boyunları üzərindəki başları olduqca iridir, gözləri insanı vahiməyə salacaq qədər iridir, əlləri dizə qədər uzanılıdır və sairə.

Ufoloq Fuad Qasımov bəyan edirdi ki, Azərbaycanda elə ərazilər var ki, UNO-ların “xoşuna” gəlir. Bu ərazilər Abşeronda Nargin adası, Pirşağı və Novxanı qəsəbəsi, həmçinin Şamaxı ərazisidir. Onun sözlərinə görə, UNO-ları burada tez-tez görmək olar: **“UNO-lar öz ətraflarında gözəgörünməz sahə yaratmaqla qravitasiya rejimində işləyirlər. Onların bazası haradasa suyun (Xəzər istisna deyil), ya da torpağın altındadır”.**

### “Heç bir elmi konfranslarda bu barədə müzakirələr olmur, çünki... ”

Qeyd etdiyimiz kimi, bir çox mütəxəssislər UNO-ların varlıqlarını qəbul etmirlər. **Şamaxı Astrofizika Rəsədxanasının aparıcı elmi işçisi Nazim Qaraməmmədov** mövzu ilə əlaqədar “Yeni Müsavat”a açıqlama verib.

O, yadplanetlərin varlığının mümkünsüz olduğunu bildirir: “Mən hesab edirəm ki, onlar yoxdur. Günəş sistemində 8 planet daxildir və yalnız Yerdə həyat var. Bir də var ulduzların ətrafında planetar sistemlər. Bizə ən yaxın ulduza qədər olan məsafə 4,126 işıq ilidir. Yəni işığın bir ili işığın 300 min km saniyə sürətlə qət etdiyi məsafədir. Yəni Günəş sistemində bizdən başqa həyat yoxdursa, gələn varsa əgər UNO-ların gəlişi doğrudursa, onda başqa ulduzların ətrafında hardasa bizimki kimi yaşayış ola bilər və başqa planetdə belə bir şey varsa, dəqiq bilmirik. Bəzi ulduzların ətrafında olan planetar sistemlər onlarda həyat varsa, onların texnologiyası bizdən yüksək səviyyədə inkişaf edibsə, onların uçub gəlmək məsələsi real ola bilər. Əgər ən yaxın ulduzun ətrafında olan ulduzdan bizdə uçub gəlmək üçün kosmik sürətlə hərəkət edən gəmi düzəltsək, o, təxminən 300 ilə gəlib çatar. 300 il də bir insanın yaşaması üçün mümkünsüzdür. Hələlik indiyə qədər heç kim heç bir yerdə, heç bir halda real uçan UNO-nu görməyib. Heç bir elmi sinpoziumda, konfranslarda və yaxud elmi cəmiyyətlərdə bu barədə müzakirələr olmur. Çünki bu çox qeyri-ciddi bir məsələdir.

Tutaq ki, gəlirsə, bəs bunların missiyası nədən ibarətdir? Gəlmək üçün qarşıya məqsəd qoyulmalıdır. Tutaq ki, biz gəmi düzəltmişik, uçub getmişik başqa bir ulduzun ətrafında olan planetə və tutaq ki, gördük ki, orda bizə bənzər canlılar var, heç bir əlaqə yaratmadan çıxıb gəlirik. Bunun bir mənası, məntiqi oldumu? Təbii ki, yoxdur. Ona görə də onların uçub gəlməsi real deyil. Bu, daha çox jurnalistlərin uydurmasıdır. Biz küləklə havaya qalxmış sellofan parçasının və yaxud parıltılı bir şeyin UNO olduğunu hesab edirik. Yəni səmada görüb aydınlaşdıra bilmədiyimizi UNO adlandırırıq".

### “Montajdan, texnikadan istifadə edib fokslar çıxarırlar”

**Tanınmış astroloq Firudin Qurbansoy isə məsələyə bu cür mövqe bildirdi:** “Bu mövzu ətrafında internet resurslarında xeyli material var ki, montaj olunub, texnikadan istifadə edib, fokslar çıxardırlar. Amma UNO-ların olması təbii ki, var. Allah deyib ki, dünyalar var. Yer kürəsindən kənara çıxmaq barəsində Qurani-Kərimdə də yazılıb. İnsanlar Yer kürəsindən kənara çıxa bilir və yaxud kənardan Yer kürəsinə gələ bilirlər. Burda nə təəccüblü bir şey var? Milyardlarla sonsuz sayda planet var. Onların arasında azı yüz min planet var ki, orda bizdən də şüurlu məxluqlar yaşayır. Ola bilsin ki, onların texnikası bizdən hələ 10-100 min il əvvəl yaranıb, inkişaf edib və bizdən qat-qat yüksək inkişaf edib. Mən onların varlığına inanıram. Onlar bizimlə əlaqəyə girmək istəyirlər. Hesab edirəm ki, onların dünyaya gəlib-getməklərində düşmən mövqeyi yoxdur. Onların bizə ehtiyacı yoxdur. Hərdən şayiələr gəzir ki, guya onlar gəlib burdakı qızılları aparmaq, buradakı insanların genetik kodlarını öyrənmək istəyirlər və sairə. Bunlar axmaq fikirlərdir, onların mənası da yoxdur”.

❑ Xalidə GƏRAY

# “Hədsiz oxuyanlar gələcəkdə uğursuzluğa düçar olur”

## Psixoloq: “Təəssüflər olsun ki, “kim çox bal yığdı" rəqabətinə girən uşaqlarda zombiləşmə gedir"



**Bu il ali məktəbə qəbul imtahanlarında 700 bal yığan məzunların sayı ötən illə müqayisədə kifayət qədər yüksək oldu. Müxtəlif mətbuat orqanları, televiziyalar bu məzunlardan müsahibə aldı. Onlardan kimisi yüksək bal toplaya bilməsi üçün iki il televiziyaya baxmadığını, kimisi telefondan, sosial şəbəkələrdən uzaq durduğunu, kimisi isə gecə-gündüz fasiləsiz oxuduğunu deyirdi.**

Bu uşaqların danışıq tərzlərinə, öz fikirlərini ifadə etmək üçün seçdiyi sözlərə və cümlələrə diqqət etsək, məzunların doğrudan da real həyatla bağlantısını kəsdikləri fikri formalaşır.

Onların beyinlərində sanki proqramlaşma gedib. Bir sıra ekspertlər testlərin uşaqların beynini proqramlaşdırdığını və bunun düzgün olmadığını, bəziləri isə yüksək bal yığmaq uğrunda rəqabətin insanların psixikasına, gələcək həyatlarına mənfi təsir etdiyini, onlarda zombiləşmə getdiyini deyir. Psixoloqların qənaətinə görə, orta məktəbdə əlaçı olan, ali məktəbdə hər zaman öndə olan, bir neçə universitet bitirən insanlar həyatda geridə qalırlar. Onların əksəriyyəti digər nisbətən zəif oxuyanlarla müqayisədə gələcək də istər iş, istərsə də şəxsi həyatlarında uğursuzluğa düçar olurlar.

**Psixoloq Dəyanət Rzayev əlaçı olan, yüksək bal yığmaq uğrunda bir-biri ilə rəqabətə girən uşaqlarda zombiləşmə getdiyini dedi:** “İnsanlarda paxıllıq hissi yaranır ki, məsələn, filankəs bu paltarı geyinibsə, mən də geyinməliyəm. Artıq onun qiymətinə baxmır. Həmçinin də filankəsin uşağı 700 bal yığıb, niyə mənim uşağım yığmasın və ya kiminsə uşağı 650 bal yığıbsa, mən 651 bal yığmalıyam. Uşağa yüklənilir ki, sən də o balı yığmalısan. Amma onun gücü nəzərə alınmır. Bu yolda da insan özünü qurban verir. Gecələr yatmır, bütün günü oxuyur, özünü hər şeydən məhrum edir ki, bu da gələcəkdə insanın psixikasına mənfi təsir göstərir. Dünyanın məşhur bir çox kəşfiyyatçılarının əksəriyyətinin ali təhsili olmayıb. Məsələn, Eynşteyn heç vaxt əlaçı olmayıb. Bütün dünyadakı statistikaya diqqət etsək görərik ki, həyatda uğur qazanmış insanların çoxu 3-4 qiyməti ilə oxuyub. Bütün fənləri 5-lə oxuyan əlaçılar gələcək həyatlarında həmişə problemlərlə üzləşiblər. Real olan bir faktı deyim. İllər öncə bizim məktəbdə əlaçı bir oğlan oxuyurdu. O, iki universitet bitirsə də, həyatı uğursuz oldu; nə evləndi, nə də ki, yaxşı işi oldu. Təəssüflər olsun ki, bu gün əlaçı olan, bir-biri ilə kim çox bal yığdı rəqabətinə girən uşaqlarda zombiləşmə gedir. Bu da yaxşı əlamət deyil. Psixika bu təzyiqlərə tab gətirə bilmir. Bu baxımdan, yüksək bal yığmaq elə də yaxşı göstərici deyil. Burada günah daha çox valideynlərdə olur. Uşaqda elə hiss yaradırlar ki, sanki o, 650-700 bal yığan qohumundan, qonşusundan az bal yığsa günahkardır kimi bir hiss yaranır. Uşaqların yüksək bal toplamaq uğrunda özlərini telefon, sosial şəbəkələrdən, televiziyadan məhrum etmələri onların psixikasında, gələcək həyatlarında çox ciddi problemlər yaradır”.

❑ Günel MANAFLI

YENİ MÜSAVAT

Son səhifə

N 167 (6488) 2 avqust 2016



## Kişilər qadınlardan daha çox danışır

Türkiyənin Hacıtəpə Universitetinin tibb fakültəsinin müəllimi, alim Serkan Karaismayıloğlu sübut edib ki, qadınlar heç də kişilərdən çox danışmırmış. Onun araşdırmasına görə, qadınlar gündə 16 min 215, kişilər isə 15 min 669 sözdən istifadə edir. Alim həmçinin söyləyib ki, beynin də cinsiyyəti var və bu, ana bətnində məruz qalınan testeronla ölçülür: "Kişilərin az danışdığını düşünən varsa, futbol proqramlarını izləsin. Qadınlarda eşitmə və nitq mərkəzləri daha yaxşı inkişaf edib. Kişilərin beyin quruluşu isə eşitməyə uyğun deyil. Belə ki, beynin sol yarımkürəsi daha detallıdır. Danışma, eşitmə və mühakimə solda daha geniş inkişaf edib. Kişidə solda inkişaf gecikdiyi üçün eşitmə məsələsi onlarda problemlidir. Xüsusən də hansısa işlə məşğul olanda sizi yaxşı eşitməyə bilər. Televizora baxanda nəsə desəniz, sizi eşitməyəcək. Qadınlara məsləhətim: kişiyə nəsə demək istəyirsizsə, qabağında oturun, başını əlinizlə tutun və mümkünsə çox açıq-saçıq geyinməyin, sözünüzü deyin".

## Çinli şagird sevgililər bir-birindən yarım metr aralıda dayanmalıdır

Çində şagirdlər üçün qəribə qərar qəbul edilib. Hangzhou şəhərindəki məktəblərin birində qız və oğlan şagirdlərin bir-birilərinə yaxınlaşması qadağan edilib. Venzhou şəhərində isə yaxın əlaqə qadağan edilib. Sosial media vasitəsilə yayılan xəbərlər dövlətə bağlı "Çin Gəncliyi" qəzetində "Mənasız, ağılsız, qanunlara zidd qərar" kimi təqdim edilib. Məktəb müdirləri isə oğlanlarla qızların bir-birilərinə yaxınlaşmasını aralarında sevgi yaranmasına və dərs oxumalarının pisləşməsinə əngəl olmaq üçün qadağan etdiklərini deyiblər. Çində məktəb dövründə başlayan sevgiləri "Zao lian" (erkən eşq) adlandırırlar.



## Belə hamiləlik görünmədi

İngiltərənin Cənubi Qlosterşir qraflığındakı Yet şəhərində yaşayan 41 yaşlı Amanda Ross dükana alış-veriş üçün gedərkən marketin qarşısında qəflətən onun qarnında kəskin ağrılar başlayıb. Bağırsaq və ya mədəsində küt ağrılar başladığından şübhələnən Ross ərinə zəng vurub. Onun əri 53 yaşlı Pol Din xanımını Bristoldakı "South Hospital"a aparıb. Müayinə zamanı bəlli olub ki, Amanda Rossun ağrılarına səbəb mədə və ya bağırsaqdakı fəsadlar yox, hamiləlikdir. 41 yaşlı Amandanın hamilə olduğu aşkarlanandan 15 saat sonra isə o, qeysəriyyə yolu ilə doğub. 80 dəqiqə davam edən doğuş Pol və Amandaya qız bəxş edib. Valideynləri uşağa Xlo adını veriblər. "Müayinə zamanı həkimlər dedilər ki, hamiləliyin 7-ci, ya da 8-ci ayındayam. Onu da söylədilər ki, dərhal əməliyyat olunmalıyam, çünki hamiləliyim fəsadlı şəkildə başa çata bilər", - Amanda deyib. İlk nikahından iki övladı və iki nəvəsi olan Pol indi yenidən ata olmağına çox sevinir.





## 5 funta stul aldılar, içindən 5 minlik brilyant tapdılar

Şotlandiyanın Biqqar şəhərində bir cütlük 5 funt sterlinqə satın aldığı stulda 5 min funt sterlinq dəyərində brilliant bəzək tapıb. Anjela Milnet və onun həyat yoldaşı Enqus stulu 10 il əvvəl bir auksionda alıblar. Həmin vaxt onların imkanı olmadığı üçün başqa stullar ala bilməyiblər və onu çardağa yerləşdiriblər. Aradan 6 il keçəndən sonra cütlük həmin stulu çardaqdan götürüb. Bir müddət sonra Enqus həyat yoldaşına evlilik ildönümü münasibətilə brilyant qaşlı üzük hədiyyə edib. Daha sonra sevgililər günündə ona brilyant qaşlı sırğa hədiyyə edib. Pasxa bayramındakı hədiyyə isə qiymətli daşlarla bəzədilmiş sancaq olub. Sonradan məlum olub ki, ərin bu cür səxavətli davranmasına səbəb stulun içindən tapdığı brilyantlar olub. O, bu barədə öncə xanımına deyib, daha sonra isə məşhur bir proqramda danışıb.




**QOÇ** - Yaxşı olar ki, əsas vaxtınızı fəaliyyət sahəsində xərcləyəsiniz. Münasibət qurmaq, hansısa qlobal problemi həll etmək, uzaq səfərə çıxmaq üçün uğurlu ərəfə deyil. Yalan vədlər verməyin.

**BUĞA** - İnsanların bir-birinə soyuqlaşdığı indiki ərəfədə dini-mistik dəyərlərə qiymət verməlisiniz. Bu baxımdan Tanrıya zidd olan addımlar atmamalısınız. Səhhətinizi qoruyun.

**ƏKİZLƏR** - Ailə-sevgi münasibətlərini qaydasına salmaq üçün gözəl fürsətdir. Öz eşqinizi izhar etmək istəyirsinizsə, bir an da vaxt itirməyin. Başqalarının qəlbinə dəyən hərəkətlərə yol verməyin.

**XƏRÇƏNG** - Bu gün ilk növbədə sağlıq durumunuza diqqət yetirməlisiniz. Astroloji göstəricilər daxili orqanlarınızda problemlərin baş qaldıracağını göstərir. Qalan işləriniz normal olacaq.

**ŞİR** - Bu təqvimdə ən müxtəlif situasiyalarla rastlaşa bilərsiniz. Daha həssas olduğunuz üçün emosiyalarınızı cilovlayın. Mübahisə etməyin. Başınızı yalnız adi işlərlə qatın.

**QIZ** - O qədər də uğurlu gün deyil. Nəzərdə tutduğunuz ciddi planları təxirə salın. Qarşılıqlı münasibətlər zəminində ehtiyatlı olun. Sizə aidiyyatı olmayan məsələlərə müdaxilə etməyin, Tanrı nəzərini unutmayın.

**TƏRƏZİ** - Fəaliyyətlə bağlı yeni gedişlər etmək üçün imkan qazanacaqsınız. Bu yönümdə müttəfiqlərinizin köməyindən maksimum yararlanmağa çalışın. Bu gün ziyarətə getmək, dua oxumaq sizə rahatlıq gətirəcək.

**ƏQRƏB** - Ulduzların düzümü bu təqvimdə riskdən uzaq olmağı tövsiyə edir. Günorta saatlarında isə perspektivli danışıqlarda iştirakınız gözlənilir. Pul barədə bacardığınız qədər qənaətcil olun.

**OXATAN** - Təxminən saat 13-ə qədər mübahisə və qalmaqallar gözlənildiyindən özünüzü qoruyun. Sonrakı müddətdə isə vəziyyət qismən sabitləşəcək. İşlə bağlı məsuliyyətinizi dərk edin.

**OĞLAQ** - Hər mənada uğurlu gündür. Göy qübbəsi müdafiənizdə durduğu üçün ovqatınız xoş olacaq. Günün ikinci yarısında şəxsi büdcənizi artırmaq üçün şans qazanacaqsınız. Ölçülü-biçili danışın.

**SUTÖKƏN** - İş yoldaşlarınızla, qonşu və qohumlarınızla mülayim davranın. Hətta təqsirkar qarşı tərəf olsa da, təmkin göstərib neytrallığınızı qorumağa çalışın. Bəxtinizdə pul da var.

**BALIQLAR** - Ailə üzvlərinizlə bağlı yaranmış problemləri özünüzə dərd etməyin. Hər şeyi taleyin axarına buraxın. İndi sizə onlara qarşı mülayim mövqe nümayiş etdirmək lazımdır. Səhhətinizə fikir verin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 356 gün paltar aldı, sonda dostlarına hədiyyə etdi



Avstraliyada yaşayan Mari Saba adlı qadın paltarlara qarşı olan marağı ilə tanınır. Gənc qadın bir il ərzində 365 yeni paltar alaraq hər kəsi şoka salıb. 26 yaşlı qadın 1 il ərzində 365 paltar alacağı haqda özünə söz verib. Bundan sonra hər gün yeni bir paltar alıb. Nəhayət, bir ilin sonunda 365 ədəd paltara sahib olub. O geyindiyi qeyri-adi paltarlarla işə gedib, avtobusa minib və əylənməyə gedib. 1 ilin sonunda isə böyük bir əyləncə gecəsi təşkil edib. Mari Saba paltarlarını dostlarına hədiyyə edib. Mari hər birini 400 dollara aldığı paltarları dostlarına payladığı üçün xoşbəxt olduğunu dilə gətirib.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750